RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 287 (9166) CÜMƏ, 30 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## “Sizin yüksək liderlik keyfiyyətləriniz qarşıya qoyulmuş məqsədlərə çatmağa kömək edəcək”



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz uzun illərdir millətin görkəmli lideri kimi ölkənin hərtərəfli inkişafı məsələlərinin həllində ən heyranedici nəticələri əldə edərək Azərbaycan xalqını tərəqqi yolu ilə aparırsınız. Sizin zəngin təcrübəniz, biliyiniz, müdrikliyiniz və rəhbərlik istedadınız, məqsədyönlülüyünüz və işə fədakar yanaşmanız xüsusi hörmətə layiqdir.

Azərbaycan Respublikasının uğurları həm Sizin mübahisəsiz nüfuzunuzun, həm də aparılan siyasi kursa ümumxalq dəstəyinin əsaslı sübutudur. Sizin təşəbbüsünüzlə respublikada həyata keçirilən dəyişikliklər, milli iqtisadiyyatın inkişafı, nəhəng infrastruktur layihələrinin icrası, xalqın rifahının yaxşılaşdırılması Sizə həmvətənlərinizin dərin hörmətini və yüksək etimadını qazandırmışdır.

Siz Cənubi Qafqazda təhlükəsizlik və sülh üçün ən vacib amillərdən olan strateji tərəfdaşlığın genişləndirilməsinə və ölkələrimizin müttəfiqliyinə böyük şəxsi töhfə verirsiniz. Parlamentlərarası əlaqələrə göstərdiyiniz diqqətə görə Sizə xüsusi minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirəm ki, azərbaycanlı həmkarımızla səmimi dialoqumuz yaranıb və biz sabitliyin möhkəmləndirilməsi, Rusiya və Azərbaycan xalqlarının rifahının daha da yaxşılaşmasına yönələn birgə layihələrin həyata keçirilməsi üçün hər cür səy göstərəcəyik.

Sizi gözəl həmsöhbət, xüsusilə iti zəkaya və incə yumor hissinə malik hərtərəfli və valehedici insan kimi tanıyıram, aramızda yaranmış etimadı çox yüksək dəyərləndirirəm. Sizinlə görüşlərimizi və söhbətlərimizi məmnunluqla xatırlayıram.

Hörmətli İlham Heydər oğlu, əminəm ki, Sizin yüksək liderlik keyfiyyətləriniz bundan sonra da qardaş Azərbaycanın mənafeyi naminə qarşıya qoyulmuş məqsədlərə çatmağa kömək edəcək. Sizə və mehriban ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, rifah və xoşbəxtlik arzulayıram. Qoy, evinizdə daim xoş günlər olsun!

Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri***

## İsrail Dövlətinin Baş naziri zati-aliləri cənab Benyamin Netanyahuya

Hörmətli cənab Baş nazir.

İsrail Dövlətinin Baş naziri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi ürəkdən təbrik edir, ən səmimi və xoş arzularımı çatdırıram. Bu, dost İsrail xalqının Sizə olan böyük inam və etimadının bariz təzahürü, ölkənizin hərtərəfli inkişafı və rifahı yolunda fəaliyyətinizə və xidmətlərinizə verilən yüksək qiymətdir.

Biz tarixən dostluq və qarşılıqlı anlaşma şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-İsrail münasibətlərinə xüsusi əhəmiyyət veririk. Ötən otuzillik dövr ərzində qarşılıqlı etimad və dəstək kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin yüksələn xətt üzrə inkişaf edərək hazırkı səviyyəyə çatması məmnunluq doğurur. Ölkələrimiz arasında münasibətlərin təşəkkülündə və inkişafında Sizin xidmətləriniz böyükdür.

Bu ilin noyabrında Azərbaycanın İsraildə səfirliyinin təsis edilməsi barədə qərar qəbul edilmişdir. Ümidvaram ki, səfirliyimizin açılması Azərbaycan-İsrail münasibətlərinin inkişafına töhfə verəcəkdir.

Əminəm ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında əlaqələrin dərinləşdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Fürsətdən istifadə edərək qarşıdan gələn Yeni, 2023-cü il münasibətilə Sizə səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost İsrail Dövlətinin və xalqının əmin-amanlığı və firavanlığı naminə məsul fəaliyyətinizdə daim müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2022-ci il*

# İlham Əliyevdən turizmin inkişafına daha bir töhfə



## "Şabran" İstirahət Kompleksinin açılışı bu istiqamətdə mühüm addımdır

Şabran rayonunun Pirəbədil kəndində yerləşən kompleks paytaxt Bakıdan 147 kilometrlik məsafədədir. Kompleksin ərazisində 12,6 hektar sahədə inşa olunan hotel müxtəlif kateqoriyalı 119 nömrədən, birmərtəbəli 10, ikimərtəbəli 20 kottecdən ibarətdir.

Kompleks Azərbaycanda Hindistanın qədim təbabət sistemi - Ayurveda ilə müalicə metodlarını tətbiq edən ilk istirahət mərkəzidir. Burada peşəkar Pançakarma (toksinlərdən azadolma) mütəxəssisləri tərəfindən Hindistan ənənələri əsasında xüsusi orijinal terapiya metodları təklif edilir.

"Ayurveda Spa" mərkəzində gözəllik salonu, 6 prosedur otağı, fin saunası, buxar otağı, istirahət zonası və qapalı hovuz vardır. Burada həmçinin fitnes və yoqa ilə məşğul olmaq üçün hər bir şərait yaradılıb. Mərkəzdə şəfalı Pançakarma prosedurları, Pranayama seansları, yoqa və həyat tərzi üzrə təlimlər təşkil olunacaq.

→ 2

## Tarixi torpaqlara dönüş

### Qərbi azərbaycanlıların da hüquqları bərpa ediləcək

Dövlətin prioritet istiqamət kimi müəyyənləşdirdiyi Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiyası artıq prioritet məsələdir. Dövlət başçısının da dediyi kimi, bu istiqamətdə Qərbi Azərbaycan İcması da müəyyən işlər görməlidir. Qərbi Azərbaycan İcmasının binasının açılışında çıxış edən dövlət başçısı vurğulayıb ki, bu yer icma üçün təsadüfən seçilməyib. Bunun rəmzi mənası var. Həmin binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da öz əzəli torpaqlarına qayıdacaqlar.

Prezident İlham Əliyevin öz doğum günündə Qərbi Azərbaycan İcması ilə görüşü və orada çıxışı həm də bir yol xəritəsidir.

→ 10

## Milli mübarizənin təntənəsi

### Vətəndaş cəmiyyəti fəallarının etirazı müsbət nəticə verdi

Artıq Azərbaycanın Qarabağ bölgəsində qızıl və mis-molibden yataqlarını qanunsuz istismar edən "Base Metals" şirkəti fəaliyyətini dayandırıb.

Bununla bağlı yayılan məlumatda azərbaycanlı ekoaktivistlərin Laçın-Xankəndi yolunda keçirdiyi aksiya ilə əlaqədar şirkət rəhbərliyinin mədən fəaliyyətlərini müvəqqəti dayandırdığı və ekoloji ekspertizanın keçirilməsi üçün beynəlxalq təşkilatlara müraciət etmək qərarına gəldiyi bildirilib.

→ 11

## İranda daha 100 etirazçı edam ediləcək

### Ukraynanın vurulan təyyarəsi ilə bağlı 4 ölkə Tehranı beynəlxalq arbitraja çağırıb

İranda yüz gündən artıqdır ki, hakimiyyətə qarşı etirazlar davam edir. Buna səbəb gənc iranlı qadın Məhsa Əmininin ölümü olub. O, sentyabrın 18-də islami geyim qaydalarını pozduğuna görə Tehranda əxlaq polisi tərəfindən saxlanılıb, polis idarəsində özünü pis hiss edib, koma vəziyyətinə düşüb və tezliklə dünyasını dəyişib.

→ 12

## Nikol Paşinyan Ermənistanı oyuncağa çevirib

### Baş nazirin verdiyi heç bir vəd reallaşmır, məğlub ölkə yeni xaosa sürüklənir

Erməni iqtisadçı Tatevox Xanbekyan yazır ki, Paşinyan baş nazir seçiləndə Ermənistanı investisiya cənnətinə çevirəcəyinə söz verirdi, amma tezliklə bunun heç bir əsası olmadığı üzə çıxdı. "Əksinə, hakimiyyət investisiya qoyulmaması üçün hər şeyi etdi və buna davam edir. Dörd ilin nəticələri də göz qabağındadır. Ermənistan iqtisadiyyatı xarici kapitalı cəlb etmir, onun marağını kəsb etmir".

→ 12

## Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi təşkil edib



Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə dekabrın 29-da "Gülüstan" sarayında xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik təşkil edib.

AZƏRTAC xəbər verir ki, ənənəvi olaraq keçirilən şənlikdə Vətən müharibəsi şəhidlərinin övladları, müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud, həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqlar iştirak ediblər.

→ 5

# İlham Əliyevdən turizmin inkişafına daha bir töhfə

## "Şabran" İstirahət Kompleksinin açılışı bu istiqamətdə mühüm addımdır

**Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şabran rayonunda "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı, birinci xanım və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış oldular.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına və birinci xanıma hoteldə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şabran rayonunun Pirəbədil kəndində yerləşən kompleks paytaxt Bakıdan 147 kilometrlik məsafədədir. Kompleksin ərazisində 12,6 hektar sahədə inşa olunan hotel müxtəlif kateqoriyalı 119 nömrədən, birmərtəbəli 10, ikimərtəbəli 20 kottecdən ibarətdir.

Kompleks Azərbaycanda Hindistanın qədim təbabət sistemi - Ayurveda ilə müalicə metodlarını tətbiq edən ilk istirahət mərkəzidir. Burada peşəkar Pançakarma (toksinlərdən azadolma) mütəxəssisləri tərəfindən Hindistan ənənələri əsasında xüsusi orijinal terapiya metodları təklif edilir.

"Ayurveda Spa" mərkəzində gözəllik salonu, 6 prosedur otağı, fin saunası, buxar otağı, istirahət zonası və qapalı hovuz vardır. Burada həmçinin fitnes və yoqa ilə məşğul olmaq üçün hər bir şərait yaradılıb. Mərkəzdə şəfalı Pançakarma prosedurları, Pranayama seansları, yoqa və həyat tərzi üzrə təlimlər təşkil olunacaq.

Eyni zamanda kompleksdə "Rübai", "Ahəng", "Ocaq" restoranları, "Misra Lobby Lounge", "Badə Lounge Bar", "Aura Cafe", müxtəlif əyləncə və oyun otaqları fəaliyyət göstərəcək.

Hoteldə işgüzar görüşlər, konfranslar və xüsusi tədbirlər üçün 180 nəfərlik "Bayatı" və "Şiraz" konfrans zalları yaradılıb. Həm də yaradıcılıq mərkəzi kimi xidmət göstərəcək kompleksdə bəstəkarlar, yazıçılar və rəssamlar üçün kotteclər də nəzərdə tutulub.

Qeyd edək ki, Şabran rayonu turizm marşrutları üzrə mühüm istiqamətlərdən biri olmaq potensialına malikdir. Odur ki, artan tələbata uyğun olaraq rayon ərazisində infrastrukturun formalaşdırılması əsas vəzifələrdən biridir. Prezident İlham Əliyevin istifadəyə verilən yeni istirahət kompleksi ilə tanış olması dövlətimizin bu məsələyə həssas münasibətini nümayiş etdirir. Beləliklə, bu kompleksin istifadəyə verilməsi bölgələrdə turizm infrastrukturunun və xidmət səviyyəsinin yaxşılaşdırılması baxımından növbəti mühüm addımdır.










Azərbaycan Respublikası Prezidentinin "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli 1251-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 29 aprel tarixli 505 nömrəli, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 417-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 25 yanvar tarixli 1208 nömrəli, "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli 1235 nömrəli, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 597-VQD nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 3 iyun tarixli 1447 nömrəli, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1008-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1916 nömrəli, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2019-cu il 29 yanvar tarixli 500 nömrəli və "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 16 aprel tarixli 647 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 621-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli 1251-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli 505 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 384; 2016, № 8, maddə 1384) 3-cü hissəsində "Azərbaycan Respublikasının" sözlərindən əvvəl "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində" sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 417-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 yanvar tarixli 1208 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 55) 2-ci hissəsi ləğv edilsin.

3. "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 179; 2018, № 5, maddə 933) 2-ci hissəsinin doqquzuncu və onuncu abzasları ləğv edilsin.

4. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 597-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 iyun tarixli 1447 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1063) 3-cü hissəsi ləğv edilsin.

5. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1008-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 aprel tarixli 1916 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 667) 3-cü hissəsi ləğv edilsin.

6. "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1859 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 8.3-cü bənd ləğv olunsun və aşağıdakı məzmunda 8-1-ci hissə əlavə edilsin:

"8-1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmanın 8.1.2-ci yarımbəndində və 8.2-ci bəndində nəzərdə tutulan reyestrlərin Agentliyin informasiya sisteminə inteqrasiyasını, həmin məlumatların real vaxt rejimində Agentliyə ötürülməsini və mütəmadi olaraq yenilənməsini təmin etsin.";

6.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi"nin 5.2-ci bəndinin birinci cümləsindən "vergilər," sözü çıxarılsın və həmin cümləyə "müavinindən" sözündən sonra ", Nazirliyin yanında Dövlət Vergi Xidməti rəisinin müavinindən" sözləri əlavə edilsin;

6.3. həmin Fərmanla təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

6.3.1. 1-ci, 15-ci və 24-cü hissələr ləğv edilsin;

6.3.2. 4-cü hissənin "Göstərdiyi xidmətlər" sütununa aşağıdakı məzmunda 6 - 14-cü hissələr əlavə edilsin:

"6. kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatı və fiziki şəxslərin vergi uçotuna alınması

7. kommersiya hüquqi şəxslərinin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçot məlumatlarının dəyişdirilməsi, fəaliyyətinin dayandırılması, bərpası və ləğvi

8. kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatı məlumatlarının dəyişdirilməsi və dövlət reyestrindən çıxarılması

9. fiziki şəxslərin vergi uçotundan çıxarılması

10. nəzarət-kassa aparatının qeydiyyatı və qeydiyyatdan çıxarılması

11. vergi bəyannamələrinin qəbul edilməsi

12. "ASAN imza"nın verilməsi

13. standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikat, malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə uyğunluğunu təsdiq edən uyğunluq sertifikatı və uyğunluğun təsdiqi barədə təsdiqedici sənədlərin verilməsi

14. daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı".

7. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1479; 2021, № 3, maddə 225, № 5, maddə 452, № 6 (I kitab), maddə 572, № 9, maddə 989, № 10, maddə 1103; 2022, № 6, maddə, 599) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın "7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 7.1.7-ci yarımbəndin "İcraçılar" sütunundan ", Vergilər Nazirliyi" sözləri çıxarılsın;

7.2. 7.1.8-ci yarımbəndin "İcraçılar" sütununda "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin;

7.3. 7.1.19-cu yarımbəndin "İcraçılar" sütunundan ", Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri çıxarılsın;

7.4. 7.1.58-ci, 7.1.62-ci, 7.2.17-ci yarımbəndlərin "İcraçılar" sütununda "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.5. 7.1.71-ci yarımbəndin "İcraçılar" sütununda "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

8. "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 646; 2020, № 2, maddə 99; 2021, № 6 (I kitab), maddə 591) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2-ci və 4-cü hissələrdə "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

8.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin 1.3-cü bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2022-ci il*

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" 2002-ci il 30 iyun tarixli 965 nömrəli, "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" 2002-ci il 30 iyun tarixli 966 nömrəli və "Yerli icra hakimiyyəti orqanlarının nəzdində olan bağ təsərrüfatı idarələrinin ləğv edilməsi barədə" 2007-ci il 22 may 2186 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 621-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 965 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 372; 2005, № 6, maddə 495; 2012, № 4, maddə 378, № 12, maddə 1330; 2016, № 2 (II kitab), maddə 251; 2017, № 2, maddə 238, № 12 (II kitab), maddə 2354) 1-ci hissəsində "Azad Nağıyev - Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Aparatının torpaq münasibətlərinin tənzimlənməsi, torpaqların monitorinqi və geodeziya şöbəsinin müdiri" sözləri "Azad Nağıyev - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Torpaqların dövlət idarəetməsinin təşkili və geodeziya şöbəsi müdirinin müavini" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 966 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 373; 2005, № 6, maddə 496; 2012, № 4, maddə 379; 2017, № 2, maddə 239, № 12 (II kitab), maddə 2355) 1-ci hissəsində "Azad Nağıyev - Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Aparatının torpaq münasibətlərinin tənzimlənməsi, torpaqların monitorinqi və geodeziya şöbəsinin müdiri" sözləri "Azad Nağıyev - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Torpaqların dövlət idarəetməsinin təşkili və geodeziya şöbəsi müdirinin müavini" sözləri ilə əvəz edilsin.

3. "Yerli icra hakimiyyəti orqanlarının nəzdində olan bağ təsərrüfatı idarələrinin ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 2186 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 523; 2010, № 7, maddə 610) 2.1-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2022-ci il*

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın təsdiq edilməsi haqqında" 2000-ci il 6 mart tarixli 347 nömrəli, "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 351 nömrəli, "2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlər haqqında" 2001-ci il 8 may tarixli 717 nömrəli, "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı haqqında" 2002-ci il 11 may tarixli 920 nömrəli, "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli, "Azərbaycan Respublikası vergi xidməti işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" 2005-ci il 1 fevral tarixli 607 nömrəli, "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli və "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə" 2007-ci il 28 iyul tarixli 2292 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 621-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 186; 2016, № 5, maddə 927, № 9, maddə 1464; 2017, № 3, maddə 353; 2018, № 6, maddə 1297; 2019, № 3, maddə 448; 2022, № 5, maddə 493, № 8, maddə 925) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın 100-cü bəndinin üçüncü abzasından ", Vergilər" sözü çıxarılsın və həmin abzasda "və Dövlət Gömrük Komitəsinin" sözləri ", Dövlət Gömrük Komitəsinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 351 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 190; 2001, № 10, maddə 640; 2003, № 9, maddə 512; 2008, № 9, maddə 798; 2009, № 5, maddə 319, № 7, maddə 579; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2021, № 7, maddə 766) ilə təsdiq edilmiş "Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu haqqında Əsasnamə"nin 3.7-ci bəndində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

3. "2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 8 may tarixli 717 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 319) 2-ci hissəsində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 may tarixli 920 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 299; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2009, № 12, maddə 1043; 2014, № 4, maddə 391, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2019, № 2, maddə 256) ilə təsdiq edilmiş "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci və 15-ci hissələrin "İcraya məsul" sütununda "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin;

4.2. 2-ci və 3-cü hissələrin "İcraya məsul" sütunundan "Vergilər Nazirliyi," sözləri çıxarılsın;

4.3. 10-cu hissənin "İcraya məsul" sütununda "AZAL" Dövlət Konserni, "Azəravtonəqliyyat" Dövlət Konserni, Dövlət Dəmir Yolu," sözləri "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə və "Bakı Beynəlxalq Dəniz Limanı" sözləri "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 838; 2007, № 8, maddə 769; 2013, № 11, maddə 1449; 2014, № 5, maddə 477; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2020, № 9, maddə 1185) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. "Alternativ (bərpa olunan) enerji mənbələrindən istifadə edilməsi üzrə Tədbirlər" hissəsinin 3-cü bəndinin "Əsas icraçılar" sütunundan "VN," və "ƏMDK," akronimləri çıxarılsın;

5.2. "Akronimlər" hissəsindən "VN - Azərbaycan Respublikasının Vergilər Nazirliyi" və "ƏMDK - Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın.

6. "Azərbaycan Respublikası vergi xidməti işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 fevral tarixli 607 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 76) 1-ci hissəsindən "Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradıldığı gün" sözləri çıxarılsın.

7. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1138; 2008, № 1, maddə 9, № 3, maddə 168; 2009, № 12, maddə 1043; 2010, № 2, maddə 80; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2019, № 2, maddə 257; 2021, № 1, maddə 77) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. III hissənin 12-ci bəndinin "İcra orqanları" sütunundan ", Vergilər Nazirliyi" sözləri çıxarılsın;

7.2. IV hissənin 23-cü bəndinin "İcra orqanları" sütunundan "Vergilər Nazirliyi," sözləri çıxarılsın.

8. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli 2292 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 728; 2009, № 12, maddə 1043; 2010, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 5, maddə 861; 2017, № 5, maddə 802) ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı (2007 - 2011-ci illər)" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 27-ci, 28-ci və 29-cu bəndlərin "İcrasına məsul orqan" sütununda "Milli Təhlükəsizlik Nazirliyi, Vergilər Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti, İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

8.2. 36-cı və 37-ci bəndlərin "İcrasına məsul orqan" sütununda "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2022-ci il*

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan gəncliyi 2011 - 2015-ci illərdə" Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 7 iyul tarixli 1621 nömrəli, "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2011-ci il 21 noyabr tarixli 1850 nömrəli, "Açıq Hökumətin təşviqinə dair 2012 - 2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2013-cü il 9 aprel tarixli 2837 nömrəli, "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2014-cü il 16 yanvar tarixli 221 nömrəli və "2014 - 2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın təsdiq edilməsi haqqında" 2014-cü il 4 noyabr tarixli 827 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli 1621 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 687; 2014, № 6, maddə 644, № 9, maddə 1027, № 10, maddə 1266; 2016, № 2 (II kitab), maddə 251; 2017, № 8, maddə 1521; 2022, № 8, maddə 913) ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın "6. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 6.3.5-ci yarımbəndinin "İcraçılar" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 noyabr tarixli 1850 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1049; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521; 2021, № 5, maddə 460) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 872; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 5, maddə 861; 2017, № 8, maddə 1521) ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 5.1-ci bəndinin ikinci abzasında "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 391; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2022, №8, maddə 909) ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın "6. Dövlət Proqramının icrasına dair Tədbirlər Planı" hissəsinin 6.3.4-cü və 6.4.3-cü yarımbəndlərinin "İcraçılar" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

5. "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 221 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 34; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2020, № 5, maddə 571) 3-cü hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli 827 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1432; 2016, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 8, maddə 1521) ilə təsdiq edilmiş

"2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın "7. Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 7.8-ci bəndinin "İcraçılar" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" 2009-cu il 24 iyul tarixli 417 nömrəli, "Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" 2009-cu il 10 avqust tarixli 438 nömrəli, "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2009-cu il 4 noyabr tarixli 579 nömrəli, "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2011-ci il 13 may tarixli 1502 nömrəli, "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2011-ci il 7 iyun tarixli 1541 nömrəli və "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" 2012-ci il 8 fevral tarixli 1993 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyul tarixli 417 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 593; 2012, № 2, maddə 103; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 4, maddə 580; 2018, № 9, maddə 1896) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 438 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 646; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 120; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677; 2020, № 3, maddə 258) 1-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 noyabr tarixli 579 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 904; 2012, № 2, maddə 108; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 3, maddə 534; 2020, № 3, maddə 261; 2022, № 7, maddə 771; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 dekabr tarixli 3650 nömrəli Sərəncamı) 1-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 407; 2012, № 2, maddə 113; 2014, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677; 2019, № 5, maddə 910; 2021, № 9, maddə 1047; 2022, № 2, maddə 158) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyun tarixli 1541 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 6, maddə 517; 2012, № 2, maddə 138; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677; 2019, № 7, maddə 1259) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 1993 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 101; 2014, № 4, maddələr 391, 401; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677; 2019, № 11, maddə 1725) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2022-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ 2023-cü ilin yanvar ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | **5, 18** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | **6** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | **9** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | **10** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | **11** |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | **12,19, 27** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | **16** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | **19** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | **23** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | **24** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **25** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **25** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | **26** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | **26** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | **27** |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | **27** |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | **30** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | **30** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**

**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**

**Qəbul saat 14:00-dan başlayır.**

**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

## Azərbaycan Respublikası Prezidentinin "Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" 2018-ci il 1 mart tarixli 3736 nömrəli, "Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" 2018-ci il 6 iyul tarixli 293 nömrəli, "Mingəçevir Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" 2018-ci il 30 iyul tarixli 366 nömrəli, "BMT-nin insan hüquqları mexanizmləri üzrə qurumları ilə əməkdaşlığın səmərəliliyinin artırılması haqqında" 2018-ci il 20 sentyabr tarixli 504 nömrəli, "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 696 nömrəli və "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" 2019-cu il 22 oktyabr tarixli 1498 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 621-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 mart tarixli 3736 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 461) 2-ci hissəsindən "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi," sözləri çıxarılsın.

2. "Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 293 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1540) 2-ci hissəsindən "və Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın.

3. "Mingəçevir Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 366 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1612) 2-ci hissəsindən "və Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın və həmin hissədə "etsinlər" sözü "etsin" sözü ilə əvəz edilsin.

4. "BMT-nin insan hüquqları mexanizmləri üzrə qurumları ilə əməkdaşlığın səmərəliliyinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 sentyabr tarixli 504 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1889) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin;

4.2. "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini" və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Katibliyinin icraçı direktoru" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli 696 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2352; 2020, № 9, maddə 1185) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019-2022-ci illər üçün Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissənin altıncı abzasının dördüncü cümləsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.2 "8. "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019 - 2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı" üzrə:

5.2.1. 1.8.1-ci, 1.8.3-cü, 1.8.6-cı, 1.9.1-ci, 1.9.2-ci, 1.9.3-cü, 7.2.1-ci və 7.2.2-ci yarımbəndlərin "İcraçı orqanlar" sütununda "ƏMDK" akronimi "İN" akronimi ilə əvəz edilsin;

5.2.2. 1.9.4-cü yarımbəndin "İcraçı orqanlar" sütunundan "ƏMDK," akronimi çıxarılsın;

5.2.3. "Akronimlər" bəndindən "ƏMDK - Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın.

6. "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 oktyabr tarixli 1498 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1638) 6.1 - 6.3-cü bəndlərində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" 1997-ci il 14 noyabr tarixli 692 nömrəli, "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun yaradılması haqqında" 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli, "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 2005-ci il 1 iyun tarixli 834 nömrəli, "Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması ilə əlaqədar bəzi tədbirlər haqqında" 2005-ci il 14 sentyabr tarixli 1000 nömrəli, "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə" 2006-cı il 25 avqust tarixli 1638 nömrəli və "Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" 2006-cı il 26 avqust tarixli 1640 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 noyabr tarixli 692 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 432; 2002, № 1, maddə 56; 2003, № 9, maddə 487; 2006, № 7, maddə 588; 2007, № 6, maddə 603; 2008, № 11, maddə 969; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 1-ci hissəsinə "nəqliyyat" sözündən əvvəl "rəqəmsal inkişaf və" sözləri, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri" sözlərindən əvvəl "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi" sözləri əlavə edilsin, həmin hissədə "Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri" sözləri "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi" sözləri ilə, "Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru" sözləri "Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru" sözləri çıxarılsın.

2. "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 712; 2005, № 4, maddə 300, № 6, maddə 494; 2007, № 10, maddə 1009; 2009, № 7, maddə 589; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384; 2018, № 8, maddə 1677; 2019, № 2, maddə 294) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 493, № 10, maddə 968; 2006, № 7, maddə 588, № 9, maddə 743; 2007, № 5, maddə 459; 2009, № 4, maddə 233; 2010, № 2, maddə 80, № 7, maddə 620; 2012, № 12, maddə 1291; 2013, № 3, maddə 292; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2015, № 8, maddə 957; 2016, № 5, maddə 861, № 9, maddə 1518; 2017, № 11, maddə 2124; 2018, № 8, maddələr 1677, 1715; 2019, № 2, maddə 294; 2020, № 2, maddə 123) 1-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması ilə əlaqədar bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 sentyabr tarixli 1000 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 820; 2009, № 7, maddə 589; 2014, № 4, maddə 391, № 6, maddə 644; 2016, № 8, maddə 1384; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə yaradılan Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

**Komissiyanın üzvləri**

Azərbaycan Dövlət Neft Fondunun icraçı direktoru

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri.".

5. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 723; 2009, № 6, maddə 424, № 7, maddə 589; 2012, № 2, maddə 126; 2014, № 2, maddə 112,

№ 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79, № 6, maddə 1321; 2019, № 11, maddə 1726) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 avqust tarixli 1640 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 725; 2009, № 7, maddə 589; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 129; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384; 2018, № 1, maddə 79, № 3, maddə 478; 2021, № 1, maddə 77) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2022-ci il*

# Baş Qərargah rəisi hərbi hissələrdə olub




Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə olublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə birliyin idarə heyəti ilə görüşən Baş Qərargah rəisi müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırıqlarını aidiyyəti üzrə şəxsi heyətə çatdırıb. Şəxsi heyətin peşəkarlığı və qoşunların döyüş hazırlığına xüsusi diqqət yetirilməsi, təlimlərin, o cümlədən səhra məşğələlərinin intensivliyinin artırılması barədə tapşırıqlar verib.

Sonra döyüş mövqelərində növbətçilik aparan heyətlə görüşən general-polkovnik K.Vəliyev onun döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Daha sonra Azərbaycan Ordusunun Baş Qərargah rəisi bir neçə hərbi hissələri, o cümlədən Komando hərbi hissəsini ziyarət edib, həmçinin Şuşada xidmət edən hərbi qulluqçularla görüşüb.

General-polkovnik K.Vəliyev hərbi hissələrdə şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub, döyüş qabiliyyətinin daha da artırılması və döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması barədə tapşırıqlar verib.

Şəxsi heyətlə görüşlərdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə orduda aparılan islahatlar çərçivəsində əldə olunmuş nailiyyətlərdən danışan Baş Qərargah rəisi həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Ordusunun əməliyyat və döyüş imkanlarının xeyli artdığını qeyd edib.

Müdafiə nazirinin birinci müavini şəxsi heyətin taktiki-xüsusi hazırlığının və peşəkarlıq səviyyəsinin daim yüksək səviyyədə saxlanılması məqsədilə keçirilən təlim və məşqlərin keyfiyyətinin daha da artırılması, həmçinin qazanılan döyüş təcrübəsinin növbəti ildə keçiriləcək təlimlərdə də geniş tətbiq edilməsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

Şəxsi heyətlə birlikdə nahar etdikdən sonra Baş Qərargah rəisi hərbi qulluqçuların qayğıları ilə maraqlanıb və Müdafiə Nazirliyinin rəhbərliyi adından onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.

# Kəlbəcər rayonunda xidmət edən hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədədir

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması, həmçinin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə nazirinin tapşırığına uyğun olaraq nazir müavinləri - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Quru Qoşunları komandanı general-leytenant Ənvər Əfəndiyev Kəlbəcər rayonu ərazisində yeni inşa edilmiş yerləşmə məntəqələrinə baxış keçiriblər və döyüş mövqelərində xidmət edən hərbi qulluqçularla görüşüblər.

Bildirilib ki, yeni yerləşmə məntəqələrində qoşun xidmətinin yüksək səviyyədə təşkili üçün yüksək peşəkarlıqla tikinti-quruculuq işləri aparılıb və bütün zəruri şərait yaradılıb.

Burada qərargah, lazımi mətbəx avadanlıqları ilə tam təchiz olunan yeməkxanalar, tibb məntəqələri, əsgər yataqxanaları, hamam-camaşırxana kompleksləri, müxtəlif təyinatlı anbarlar, döyüş və avtomobil texnikasının saxlanması üçün park, eləcə də digər infrastruktur obyektləri mövcuddur.

Yerləşmə məntəqələrində işıq, su və dayanıqlı rabitə xətləri çəkilib, mərkəzləşdirilmiş istilik sistemi, eləcə də fasiləsiz elektrik enerjisinin təminatı üçün generatorlar və günəş panelləri ilə təchiz edilib.

Şəxsi heyətin məişət şəraiti ilə tanış olduqdan sonra onların döyüş hazırlığı yoxlanılıb. Hərbi qulluqçular sərt iqlim və kəskin relyefli ərazilərdə hərəkəti təmin edən xüsusi təyinatlı texnikadan və tanklardan istifadə etməklə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Daha sonra Kəlbəcərdə yerləşən bir neçə döyüş mövqeyində olan nazir müavinləri burada hərbi qulluqçuların xidməti-döyüş fəaliyyəti ilə maraqlanıblar.

Məruzə olunub ki, azad olunmuş ərazilərdə xidmət edən şəxsi heyətin döyüş ruhu və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir.

Hərbi qulluqçularla görüşən nazir müavinləri onların döyüş hazırlığını yüksək qiymətləndirib və qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, eləcə də Yeni il münasibətilə müdafiə nazirinin təbriklərini şəxsi heyətə çatdırıb və bayram hədiyyələrini təqdim ediblər.

# Türkiyənin Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti ölkəmizdə bir sıra görüşlər keçirib

Ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti bir sıra görüşlər keçiriblər.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti ölkəmizin prokurorluq orqanlarının, o cümlədən Baş Prokurorluğun yeni inzibati binası, Elm-Tədris Mərkəzi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə tanış olub.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olub, onlara mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Daha sonra heyət 44 günlük Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistan dövlətini döyüş meydanında məğlub etməsi nəticəsində ələ keçirdiyi hərbi qənimətlərin nümayiş olunduğu Hərbi Qənimətlər Parkında olub, qalibiyyətimizin əbədiləşdirilməsinə xidmət etməklə xalqımızın qürur mənbəyi hesab olunan park qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

Həmçinin nümayəndə heyəti İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olub, eksponatlar barədə onlara ətraflı məlumat verilib.

Qonaqlar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Baş Prokurorluğun əməkdaşları və veteranları ilə birlikdə Azərbaycan Dövlət Opera və Balet Teatrında görkəmli bəstəkar Fikrət Əmirovun "1001 gecə" baletinə tamaşa ediblər.

Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyətinin səfəri dekabrın 29-da başa çatıb və Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola salınıb.

# Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi təşkil edib








*Əvvəli 1-ci səh.*

Həmişə olduğu kimi, bu dəfə də uşaqlar şənliyin keçirildiyi məkana onlar üçün ayrılmış avtobuslarla gəliblər.

"Gülüstan" sarayı uşaqları sevindirmək üçün bayram əhvali-ruhiyyəsində, nağıllar aləmini xatırladan dizaynla tərtib olunmuşdu.

Uşaqları sarayda nağıl qəhrəmanları qarşılayıblar. Onlar "Face-art" vasitəsilə özləri də istənilən möcüzə qəhrəmanını canlandırmaq imkanı əldə ediblər.

Bayram şənliyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uşaqlara qayğısından, müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından bəhs edən videoçarxın nümayişi ilə başlayıb.

Sonra "Şəngülüm, Şüngülüm, Məngülüm Yeni il şənliyini necə hazırladılar" tamaşası təqdim edilib. Teatrlaşdırılmış səhnəcik dostluq, xeyirxahlıq, qarşılıqlı kömək və Xeyrin Şərə qalib gəlməsi üzərində qurulub.





"Gülüstan" sarayında balacalar üçün xüsusi zövqlə qurulan və əsl bayram əhvali-ruhiyyəsi bəxş edən dekorasiyalar uşaqların xüsusilə böyük marağına səbəb olub. Rəqslərə qoşulan, mahnılar ifa edən uşaqlar Heydər Əliyev Fondunun onlar üçün təşkil etdiyi bayramı tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının əhatəsində qeyd ediblər.

Musiqili-əyləncəli proqram müxtəlif uşaq kollektivlərinin və Azərbaycan incəsənət ustalarının iştirakı ilə hazırlanıb.

Qeyd edək ki, müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, şəhidlərimizin övladları üçün Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində şənlik təşkil edilir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu qəbildən uşaqların problemlərinin həllinə xüsusi diqqətlə yanaşır, onları qayğı ilə əhatə edir.

"Gülüstan" sarayında iki saata yaxın davam edən əyləncəli proqramın sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri verilib.

Bayram tədbirində iştirak edən uşaqlardan bəziləri təəssüratlarını AZƏRTAC-la bölüşüblər.

Paytaxtdakı 2 nömrəli internat məktəbinin şagirdi Ümid Şərifov bildirib ki, ən böyük arzusu Vətənimizə layiqli övlad olmaqdır. Balaca Ümid şanlı zəfərimizlə qürur duyduğunu dilə gətirərək deyib: "Şəhidlərimiz, qazilərimiz bizim fəxrimizdir. Onlar bizim üçün canlarından keçib, sağlamlıqlarından məhrum olublar".

Tədbirin təşkilinə görə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirən Ümid Şərifov deyib: "Heydər Əliyev Fondu hər il uşaqlar üçün Yeni il şənliyi təşkil edir, bütün uşaqlardan diqqət və qayğısını əsirgəmir. Çox sağ olsunlar ki, uşaqları sevindirirlər. Mehriban xanıma çox minnətdarıq".

Digər müsahibimiz olan Fatimə Babayeva Vətən müharibəsi şəhidi Murad Babayevin yeganə övladıdır. "Bu gün özəl gündür. Biz çox əylənirik. Musiqi, teatr səhnələri ürəyimizcədir. Bu gözəl gün üçün Heydər Əliyev Fonduna, əziz Mehriban xanıma çox minnətdaram", - deyə şəhid övladı sevinc hisslərini ifadə edib.

Atası ilə bağlı xatirələrini bölüşən Fatimə bildirib: "Atam Vətən müharibəsində şəhid olub. Atam və digər şəhidlərimiz canlarını qurban veriblər ki, biz əmin-amanlıq içərisində yaşayaq. Ən böyük arzum hərbçi olmaqdır. Bununla həm də atamın arzusunu reallaşdırmış olaram".

Göstərilən diqqətə görə dövlətimizə, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirən 16 yaşlı Gözəl Budaqova sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində təhsil aldığını deyib. Ədəbiyyatı çox sevdiyini bildirən G.Budaqova qeyd edib: "Arzum budur ki, bütün uşaqlar sülh, əmin-amanlıq içərisində, qayğısız yaşasınlar. Biz bu gün bu gözəl şənlikdə çox əyləndik, unudulmaz anlar yaşadıq".

A.S.Makarenko adına Respublika Humanitar Fənlər Təmayüllü Gimnaziyanın şagirdi Renat Əlizadə isə deyib ki, bu gün onun xatirində həmişəlik qalacaq. On yaşlı Renat bayram şənliyinin onda xoş təəssüratlar oyatdığını vurğulayıb. O, bayram şənliyinə görə Heydər Əliyev Fonduna minnətdarlığını bildirib.

# Yeni auditor təyin ediləcək



Dekabrın 29-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Azərbaycan Respublikası Hesablama Palatasının auditorunun təyin edilməsi haqqında məsələyə baxılıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın təqdimatı ilə Vüqar Emin oğlu İbrahimovun Azərbaycan Respublikası Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyi irəli sürülüb.

Tahir Mirkişili son illərdə Milli Məclis ilə Hesablama Palatası arasında peşəkar əlaqələrin inkişaf etdiyini qeyd edib, həm dövlət büdcəsi layihələrində, həm onların icrasında, həm də qanun layihələrinə rəy verilməsi sahəsində parlamentlə palata arasında səmərəli əlaqələrin qurulduğunu vurğulayıb. Hesablama Palatasının fəaliyyətində mühüm keyfiyyət dəyişiklikləri baş verdiyini deyən komitə sədri palatanın qarşısında duran çağırışlardan, bu çağırışlara cavab vermək üçün görüləcək işlərdən danışıb.

Komitə sədri qeyd edib ki, 2007-ci ildən Hesablama Palatasında şöbə müdiri və aparat rəhbəri vəzifələrində çalışan Vüqar İbrahimov palatanın auditoru kimi də yeni nailiyyətlərin əldə edilməsinə öz töhfəsini verəcək.

İclasda çıxış edən komitə sədrinin müavini Əli Məsimli, komitə üzvləri Mahir Abbaszadə, Elnur Allahverdiyev, Məzahir Əfəndiyev, Rüfət Quliyev, İqbal Məmmədov və Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Rövşən Muradov Vüqar İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyi ilə bağlı fikirlərini bölüşüblər.

Deputatlar Vüqar İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyini təqdirlə qarşılayıblar, ona palatada bundan sonra auditor kimi fəaliyyətində uğurlar arzulayıblar, təklif və tövsiyələrini diqqətə çatdırıblar.

Vüqar İbrahimov namizədliyini dəstəklədikləri üçün deputatlara təşəkkür edib və ona göstərilən etimadı doğrultmaqdan ötrü bütün imkanlarını səfərbər edəcəyini bildirib.

Fikir mübadiləsinin yekununda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi Vüqar İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə təyin olunması barədə təqdimatı məqsədəuyğun hesab edib və məsələ baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# 2022-ci il iqtisadiyyatımız üçün nə ilə önəmli oldu




**2022-ci ilin son günlərini yaşayırıq. Tarixə qovuşmaqda olan bu il nə ilə yadda qalacaq? Bu il ölkənin sosial-iqtisadi həyatında hansı yeniliklər olub, hansı nailiyyətlər əldə edilib? Bu suallara ilk növbədə Dövlət Statistika Komitəsinin açıqladığı fakt və rəqəmlər aydınlıq gətirir.**

Cari ilin yanvar-noyabr aylarında Azərbaycanda 121 milyard 445,8 milyon manatlıq ÜDM (ümumi daxili məhsul) istehsal edilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,8 faiz çoxdur. ÜDM istehsalı neft-qaz sektorunda 59 milyard 817,5 milyon, qeyri neft-qaz sektorunda 61 milyard 628,3 milyon manat olub. Sözügedən dövrdə neft-qaz sektorunda əlavə dəyər 2,4 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 9,2 faiz artıb. ÜDM istehsalının yarıdan çoxu - 52,7 faizi sənayenin payına düşüb.

Sənaye məhsulunun 76,1 faizi mədənçıxarma, 20,1 faizi emal, 3,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 88,5 faiz təşkil edib.

Ekspertlər bu sahədə sənaye zonalarının və sənaye məhəllərinin artmaqda olan rolunu qeyd edirlər. Bu da gələcəkdə həmin sənaye ocaqlarının bəhrəsinin böyük olacağından xəbər verir.

Yanvar-oktyabr aylarında 181 ölkə ilə 46 milyard 663,2 milyon dollarlıq ticarət əməliyyatları aparılıb. İxracın dəyəri 35 milyard 45,6 milyon, idxalın dəyəri 11 milyard 587,6 milyon dollar olub. Beləliklə, ölkəmizin xarici ticarət saldosu yenə də müsbət olaraq qalmaqdadır.

Yanvar-noyabr aylarında əsas kapitala 13 milyard 53,6 milyon manat məbləğində vəsait yönəldilib. Bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,2 faiz çoxdur. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 14,7 faiz azaldığı halda, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 24,5 faiz artıb. 11 ayda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 45 milyard 111 milyon manatlıq, yaxud ötən ilin eyni dövrünə nisbətən 3 faiz çox məhsul satılıb.

İstehlak qiymətlərinin indeksinə gəldikdə isə statistik rəqəmlər onların bu ilin 11 ayında keçən ilin həmin vaxtına nisbətən 113, 8 faiz təşkil etdiyini göstərir. Bu dövrdə ərzaq məhsulları , içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi 2021-ci ilin eyni aylarına nisbətən 119,5 faiz təşkil edib.

Azərbaycan dünyanın bir parçası olduğu üçün təbii ki, qlobal təsirlərdən kənarda qalmaq mümkünsüzdür. Dünya pandemiyadan sonra "qədd"ini düzəltməkdə ikən ortaya başqa problemlər çıxdı. Rusiya-Ukrayna müharibəsinin təsiri ilə qlobal iqtisadi münasibətlərdə kəskin dəyişikliklər meydana gəldi, eləcə də ticarət əlaqələrində dəyişikliklər oldu, onların bəziləri yeni marşrutlar əsasında qurulmağa başladı. Hər yerdə bahalaşma müşahidə edildi. Ekspertlər də bu fikirdədirlər ki, ölkəmiz bir çox təsir və təzyiqlərdən sığortalanmağı bacardı. Üstəlik, bizdə iqtisadi artım davam etdi, maliyyə sabitliyi möhkəmləndi, məhsul, ən əsası, ərzaq məhsulları qıtlığı olmadı. Ölkəmiz bütün bu çətinliklərdən yan keçə bildi. Ekspertlər bunun başlıca səbəbinin dövlətin həyata keçirdiyi ardıcıl tədbirlər olduğunu vurğulamaqla yanaşı, həmçinin ölkəmizin enerji idxalçısı deyil, məhz ixracatçısı olmağı ilə də əlaqələndirirlər. Məsələn, Avropa ölkələrinin rastlaşdığı problemlər hamıya məlumdur.

Yeri gəlmişkən, bu il ölkəmizin enerji sektoru üçün çox önəmli oldu. Sahədə bir sıra mühüm hadisələr baş verdi. O cümlədən Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə inşa ediləcək "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməli qoyuldu. Eləcə də Birləşmiş Ərəb Əmirliyinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının inşasına start verildi. Ekspertlərin fikrincə, energetika sektorundakı bu əməkdaşlıq sözügedən ölkələrin Azərbaycan iqtisadiyyatının digər sahələrinə investisiya yönəltməsinə də yol açır.

İyul ayında Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Anlaşma Memorandumunun imzalanması ilin mühüm hadisələri sırasında önəmli yer tutur.

2022-ci il işğaldan azad edilmiş ərazilərimizə Böyük qayıdışın başlandığı ildir! Bu il Ağalı kəndi öz sakinlərinin böyük bir dəstəsini qoynuna aldı. İndi bu "ağıllı kənd"də həyat öz axarı ilə davam edir. Ümumiyyətlə, 2022-ci ildə Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri geniş vüsət aldı. Bu ərazilərdə ikinci beynəlxalq aeroportun - Zəngilan Beynəlxalq Hava Limanının açılışı tarixə qovuşan ilimizin ən mühüm hadisələrindəndir. Cəmi ilyarım vaxt ərzində tikilib istifadəyə verilən bu hava limanı bölgənin ən mühüm nəqliyyatı infrastrukturlarından biri rolunu oynayacaq.

Qarabağda və Şərqi Zəngəzurda görülmüş işlərin siyahısı xeyli zəngindir. Buraya açılış mərasimi keçirilən və təməli qoyulan çoxsaylı infrastruktur obyektlərini, təşkil edilən beynəlxalq tədbirləri əlavə etmək olar.

Bir sözlə, gələcək işlər, daha böyük quruculuq, daha nəhəng layihələr üçün möhkəm zəmin var.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ölkəmizdə "yaşıl enerji"yə sürətlə keçid edilir

## Azərbaycan tezliklə bərpaolunan enerji sahəsində də aparıcı dövlətlərdən biri olacaq

**Bir neçə gün öncə Azərbaycanda işgüzar səfərdə olan Serbiya Prezidenti mətbuata bəyanatında neft və qazı olan ölkələr arasında kiçik müqasiyə apardı.**



Dövlət başçısının dediklərindən belə bir nəticəyə gəlindi ki, təbii sərvətlərə malik olan dövlətlərin heç də hamısı bundan lazımi şəkildə istifadə edə bilmir. Ötən onilliklərin qlobal mənzərəsi təsdiq edir ki, neft və təbii qaz amili bir sıra ölkələrdə inkişafa, sosial rifaha nail olmaq üçün mühüm vasitə kimi çıxış edə bilməyib.

### Təbii sərvətlər ölkəmizin yüksəlişinə xidmət edir

Azərbayan tarixən neft və təbii qaz ehtiyatlarına malik dövlətlər sırasındadır. Fəxarət doğuran haldır ki, bu təbii sərvətlərdən ölkəmizin yüksəlişi üçün uğurla istifadə edilir. Heydər Əliyevin başlatdığı və Prezident İlham Əliyevin qətiyyətlə davam etdirdiyi enerji siyasəti effektiv bəhrəsini verərək qeyri-neft sektorunun inkişafını, qarşıya qoyulan vəzifələrin tam olaraq həyata keçirilməsini, qlobal miqyasda respublikamızın milli maraqlarının qorunmasını təmin edir.

Bir neçə il əvvələ qədər Azərbaycanın enerji siyasəti əsasən neft amilini ehtiva edirdi. 2006-cı ildən istismar olunan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri Xəzərdən hasil olunan nefti hazırda da dünya bazarlarına çıxarmaqdadır. Dövlətimizin enerji siyasətinin ən böyük uğurlarından sayılan BTC-nin reallaşması ilə Azərbaycan Avrasiya regionunda mövqeyini xeyli gücləndirdi, Cənubi Qafqazın liderinə çevrildi. Bu gün BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihədir. Bu kəmər mühüm texniki-iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, həm də böyük siyasi məzmun kəsb edir.

Artıq iki ildir ki, Azərbaycan Avropa bazarlarına həm də təbii qaz ixrac edir. 2014-cü ildə təməli qoyulan "Cənub qaz dəhlizi"nin cəmi 6 il ərzində nəqllə bağlı bütün seqmentləri inşa edildi. Əvvəllər yalnız Gürcüstana və Türkiyəyə ixrac olunan Azərbaycanın təbii qazı 2020-ci ilin dekabrın 31-dən Avropa bazarlarına tədarük olunur.

### Azərbaycan təbii qaz ixracını artıracaq

Bir neçə gün əvvəl Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasiminə dair plenar iclasda çıxışında Prezident İlham Əliyev Azərbaycanın qaz ixracı ilə bağlı diqqətə çatdırdığı rəqəmlər ölkəmizin qlobal enerji bazarında çəkisinin ildən-ilə möhkəmləndiyini göstərir. "Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün, 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi", - deyə Prezident İlham Əliyev bildirib.

Məlum olduğu kimi, bu gün Avropa təbii qaza həmişə olduğundan daha çox ehtiyac duyur. Bu məsələdə Avropa İttifaqının əsas ümid yerlərindən biri Azərbaycandır. Qışın soyuğunda Aİ-nin bir sıra üzvləri yalnız Azərbaycan qazı ilə istiliyə olan ehtiyaclarını ödəyirlər. Onu da qeyd edək ki, bu ilin iyulunda Bakıda imzalanan "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" da Aİ-nın Azərbaycana olan inamının və ölkəmizlə edilən tərəfdaşlığa verilən xüsusi önəmin göstəricisidir.

### Milli Prioritetlərdən biri

Yaxın perspektivdə isə Azərbaycan Avropa ölkələrinə elektrik enerjisi ixrac edəcək. Artıq ölkəmizlə Avropa arasında "yaşıl enerji" istiqamətində də tərəfdaşlığın təməlləri qoyulub.

Qeyd edək ki, hazırda bir çox ölkələrdə qarşıya qoyulan hədəflərdən biri "yaşıl enerji"yə keçiddir. Enerji keçidi ənənəvi enerji resurslarının bərpaolunan enerji mənbələri ilə əvəzlənməsini, yəni "yaşıl enerjini" özündə ehtiva edir. Müasir çağırışlardan və enerji balansında gözlənilən struktur dəyişikliklərdən irəli gələrək bərpaolunun və təmiz enerji güclərinin artırılması, "yaşıl enerji" marşrutlarının yaradılması kimi vəzifələr bu gün qlobal gündəmin əsas mövzularından biridir.

Azərbaycanda "yaşıl enerji"yə keçid enerji siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış edir. Ölkəmizdəki iqlim şəraiti "yaşıl enerjinin" əldə edilməsi üçün geniş imkanlar yaradır. Təsadüfi deyil ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də elan edilən əsas istiqamətlərdən biri budur. Artıq respublikamızda bu sahədə layihələr də həyata keçirilməkdədir. Bu ilin yanvar ayında ölkəmizdə Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə Külək-Elektrik Stansiyasının təməli qoyulub. Mart ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib.

Buxarestdə plenar iclasda çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, Azərbaycan bərpaolunan enerji sahəsində 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə güc yaratmağı planlaşdırır. Azərbaycanın quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir.

Göründüyü kimi, Azərbaycanın bərpaolunan enerji potensialı olduqca yüksəkdir. Bu potensialdan irəli gələrək hazırda ölkəmizdə "yaşıl enerji"yə keçid də sürətlidir. Bütün bunlar onu deməyə əsas verir ki, tezliklə Azərbaycan bərpaolunan enerji sahəsində də aparıcı dövlətlərdən biri olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "DOST" vətəndaşlarla əsl dostluq edir




Ölkəmiz dünyada vətəndaşlara yeni ideyalar və innovativ metodların tətbiqi ilə xidmət göstərən Azərbaycan brendləri ilə məşhurlaşmaqdadır.

Fəaliyyətini vətəndaşların vaxtlarına qənaət etməklə rahat və nəzakətli davranış prinsipi əsasında quran "DOST" mərkəzləri insanlara xidmətlərin vahid məkandan göstərilməsini təmin edən nadir bir modeldir və e-hökumətin əhəmiyyətli tərkib hissələrindən biridir. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur.

Prezident İlham Əliyevin fərmanına əsasən, 2019-cu ilin may ayında "DOST" Agentliyi yaradılıb. Ötən dövrdə artıq 6 "DOST" mərkəzi açılıb. Bunlardan 5-i paytaxtda, 1-i isə Abşeronda fəaliyyət göstərir.

Bu günlərdə dövlət başçısının da iştirak etdiyi Xətai rayonunda 5 saylı Bakı "DOST" mərkəzinin açılışı oldu. 4405 kvadratmetr sahəsi olan bu mərkəzdə qeydiyyat məhdudiyyəti olmadan bütün Bakı sakinlərinə, gün ərzində 650-700 vətəndaşa əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə 153 xidmət təqdim ediləcək.

Bu mərkəzdə 120-yə yaxın işçi, 50 könüllü çalışacaq. Burada işçilər üçün təlim mərkəzi, müasir kitabxana yaradılıb, mediasiya xidmətləri təşkil olunub.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan "DOST" konsepsiyası dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, modern və çevik, tam şəffaf mexanizmlər üzərində, vətəndaş məmnunluğuna uyğun təqdim edilməsinə imkan verir. Təsadüfi deyil ki, dövlət başçısı "DOST" mərkəzlərini müasir Azərbaycanın siması adlandırıb. Ötən dövrdə 1 milyon 250 min 300-dən çox vətəndaş "DOST" xidmətlərindən faydalanıb, cari ildə bu xidmətlərdən vətəndaş məmnunluğu 98,5 faiz olub.

Bu gün "DOST" şəbəkəsinin ölkə boyu genişləndirilməsi işləri aparılır. 2025-ci ilin sonunadək 17 regional "DOST" mərkəzinin və 55 rayon filiallarının istifadəyə verilməsi nəzərdə tutulub. Gəncə, Sumqayıt, Quba, Sabirabad, Masallı, Şəki, Şamaxı, Ucar, Naxçıvan, Bərdə, Cəbrayıl və Şuşa "DOST" mərkəzlərinin açılması üçün aparılan hazırlıq işləri yekunlaşmaq üzrədir .

İşğaldan azad edilmiş ərazilərimizdə də "SMART DOST məntəqələri"nin təşkil olunması üçün xüsusi proqram hazırlanıb və artıq ilk addım kimi bu ilin may ayında Zəngilan rayonu Ağalı kəndində "SMART DOST" məntəqəsi öz doğma yurdlarına dönmüş vətəndaşlarımızın istifadəsinə verilib.

"DOST" Agentliyinin "Könüllü DOST" proqramını "Gənc DOST", "Gümüşü DOST", "Korporativ DOST", "İnklüziv DOST" və "Distant DOST" altproqramları əhatə edir. Bu il 3 ili tamam olan "Könüllü DOST" proqramına 77,4 min müraciət olub, 2,8 mindən çox şəxs bu proqramda iştirak edib. "DOST" könüllüləri "DOST" mərkəzlərində vətəndaş məmnunluğuna uyğun xidmətlərin göstərilməsinə öz dəstəklərini verirlər.

"DOST" könüllüləri mərkəzlərdə vətəndaşların qarşılanmasını, məlumatlandırılmasını, xidmət pəncərələrinə yönləndirilməsini, onlara e-sistemlərdən istifadədə, anket, forma doldurulmasında kömək göstərilməsi işlərini yerinə yetirirlər.

Ölkəmizdə son illər aparılan innovativ həllərin tətbiqinə, müasir yanaşmalara əsaslanan sosial islahatlar, o cümlədən "DOST" konsepsiyası beynəlxalq qurumların maraq dairəsindədir və bu islahatlar artıq beynəlxalq səviyyədə qabaqcıl dünya təcrübələri kimi qəbul edilir. Dünya Sosial Təminat Forumunda (Mərakeş) Beynəlxalq Sosial Təminat Assosiasiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin iki qurumunu - Dövlət Sosial Müdafiə Fondunu "Yaxşı idarəçilik" və "Xidmət keyfiyyəti" meyarları üzrə, "DOST" Agentliyini "Xidmət keyfiyyəti" meyarı üzrə Mükəmməllik Sertifikatı ilə mükafatlandırıb. Həmçinin DSMF və "DOST" Agentliyi ölkəmizin BSTA-nın Tanınma Proqramından keçən və proqramı uğurla tamamlayan ilk qurumlar olub.

Bu nailiyyətlər 2022-ci il ərzində nazirliyin əldə etdiyi ardıcıl beynəlxalq uğurların davamıdır. Onu da qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu il 11 beynəlxalq mükafata sahib olub, o cümlədən "DOST" Agentliyi Avropa Sosial Şəbəkəsinin "Avropa Sosial Xidmətlər Mükafatı", Beynəlxalq Sosial Təminat Assosiasiyasının üç mükafatı və Mükəmməllik Sertifikatı, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatı ilə təltif edilib.

Dövlət Sosial Müdafiə Fondu isə bu il "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" (Böyük Britaniya) ali mükafatı, Beynəlxalq Sosial Təminat Assosiasiyasının mükafatı və iki Mükəmməllik Sertifikatı, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatı ilə təltif olunub. "DOST" Agentliyi dörd beynəlxalq ISO sertifikatı alıb. "DOST" mərkəzləri "Avropa İttifaqı Biznes Mühiti Hesabatı-2021"də təkmil islahat kimi dəyərləndirilib.

Ölkəmizin xidmət sahəsindəki uğurları beynəlxalq təşkilatlar tərəfindən qabaqcıl təcrübə kimi öyrənilir və bunun digər ölkələrdə də genişlənməsi tövsiyə edilir. "DOST" təcrübəsinə meyilli olan və öyrənən, bu təcrübəni tətbiq etməkdə maraqlı olan ölkələrin sırası getdikcə genişlənir. Məsələn, ölkəmizdə səfərdə olan Rumıniyanın əmək və sosial həmrəylik naziri Marius-Konstantin Budey "DOST" mərkəzləri ilə tanış olduqdan sonra bu təcrübənin Rumıniyada tətbiqində maraqlı olduqlarını qeyd edib.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 2022-ci ilin yekunlarına dair hesabatı

Azərbaycan Respublikası 2022-ci il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil, açıq, praqmatik və milli maraqlara söykənən xarici siyasət kursunu uğurla həyata keçirib.

Beynəlxalq münasibətlər sistemində artmış gərginlik və bununla bağlı yaranmış çağırışlar fonunda xarici siyasətimiz beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq dövlətimizin milli maraqlarının təmin olunmasına, Azərbaycanın ərazi bütövlüyünün möhkəmləndirilməsinə, o cümlədən milli təhlükəsizlik və sosial-iqtisadi inkişaf üçün əlverişli xarici mühitin yaranmasına yönəlib.

## Xarici dövlətlər ilə ikitərəfli münasibətlər

2022-ci il ərzində xarici dövlətlərlə ikitərəfli münasibətlərin daha da inkişafı istiqamətində əməli tədbirlər görülüb. Bununla yanaşı, Azərbaycan Respublikasının bir çox dövlətlər ilə diplomatik münasibətlərinin qurulmasının 30 illiyi qeyd edilib. Bu istiqamətdə, həm Azərbaycanda, həm də aidiyyəti ölkələrdə müxtəlif tədbirlər həyata keçirilib. Xarici İşlər Nazirliyində 19 ölkə ilə diplomatik əlaqələrin 30 illiyinə, 1 ölkə ilə isə diplomatik əlaqələrin 25 illiyinə həsr olunmuş tədbirlər təşkil olunub, foto və sənədlərin sərgiləri nümayiş etdirilib. Ümumilikdə, 69 ölkə ilə diplomatik münasibətlərin qurulmasının 30 illiyi, 2 ölkə ilə isə 25 illiyi qeyd olunub.

Ötən illərdə olduğu kimi, bu il də Azərbaycan Respublikası üçün qonşuları ilə münasibətləri prioritet olaraq qalıb.

Azərbaycanla Türkiyə arasında genişmiqyaslı müttəfiqlik münasibətləri uğurla davam edib. 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə Prezidentləri arasında imzalanmış müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi hər iki ölkənin Parlamentləri tərəfindən ratifikasiya olunaraq, cari ilin fevral ayında qanun kimi qüvvəyə minib. Saziş Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişafı üçün zəmin yaradıb. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın 26-29 may 2022-ci il tarixində Bakıda keçirilmiş "Teknofest Azərbaycan" festivalında və 20 oktyabr 2022-ci il tarixində Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin isə 10 mart 2022-ci il tarixində Ankaraya işgüzar səfəri, 14 may 2022-ci ildə Rize-Artvin Hava Limanının və 9 avqust 2022-ci ildə Konya şəhərində keçirilən İslam Həmrəylik Oyunlarının açılış mərasimində iştirakı xüsusilə qeyd olunmalıdır. Bundan əlavə, 4 noyabr 2022-ci ildə Bakıda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında İqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclası keçirilib.

Azərbaycan-Rusiya əməkdaşlığı 2022-ci ildə davam edib. 22 fevral 2022-ci ildə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Rusiyaya rəsmi (21-23 fevral, Moskva şəhəri) və işgüzar səfərləri (7 oktyabr Sankt-Peterburq şəhəri, 31 oktyabr Soçi şəhəri, 26 dekabr Sankt-Peterburq şəhəri) baş tutub. 17-18 noyabr tarixlərində Rusiya Federasiyasının Baş naziri Mixail Mişustinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. 26 aprel 2022-ci il tarixində Bakı şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının 20-ci iclası keçirilib. Həmçinin iki ölkənin xarici işlər nazirləri səviyyəsində səfərlər baş tutub.

Gürcüstan ilə dostluq və əməkdaşlıq gündəliyi kifayət qədər geniş olmaqla yanaşı sabit əsasda inkişaf edib. İki dövlət arasında ali səviyyədə səfərlər baş tutub və müvafiq dövlət qurumları arasında sahəvi əməkdaşlıq davam edib. 29 sentyabr 2022-ci ildə Gürcüstanın Baş naziri cənab İrakli Qaribaşvili Azərbaycana işgüzar səfər edib. 24 oktyabr 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Gürcüstana işgüzar səfər həyata keçirib. Dekabrın 15-də Tbilisidə baş nazirlər Əli Əsədov və İrakli Qaribaşvilinin sədrliyi ilə Azərbaycan və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası keçirilib.

Azərbaycan Respublikasının İranla qarşılıqlı əsasda münasibətlərinin inkişafı üzrə səy göstərilib. 13 oktyabr 2022-ci ildə Astanada keçirilmiş Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə Toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İranın Prezidenti cənab Seyid İbrahim Rəisi ilə görüşü baş tutub. 10-11 mart 2022-ci ildə Bakı şəhərində Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 15-ci iclası keçirilib. 4 iyul 2022-ci ildə Azərbaycan Respublikası xarici işlər nazirinin İrana rəsmi səfəri həyata keçirilib.

2022-ci il Azərbaycanın dost və qardaş Mərkəzi Asiya dövlətləri ilə münasibətləri xüsusilə intensivlik və məzmun baxımından çox zəngin olub. Cari ildə Qırğızıstan və Qazaxıstan prezidentlərinin Azərbaycana, Azərbaycan Prezidentinin isə Özbəkistan, Türkmənistan, Qazaxıstan və Qırğızıstana səfərləri baş tutub. Həmçinin, 2022-ci ildə Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistanla hökumətlərarası komissiyaların növbəti iclasları keçirilib. Bununla yanaşı, 23 fevral 2022-ci ildə Düşənbədə Azərbaycan-Tacikistan ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə hökumətlərarası komissiyanın 5-ci iclası keçirilib.

İl ərzində ABŞ, Çin və Avropa dövlətləri ilə münasibətlərimiz diqqət mərkəzində olub.

Cənubi Şərqi Avropa ölkələri ilə qarşılıqlı maraqlar əsasında münasibətlərin uğurla inkişafı xüsusilə qeyd edilməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İtaliyaya, Bolqarıstana, Albaniya və Serbiyaya səfərlər edib. Öz növbəsində, Albaniya Respublikasının Baş naziri, Bolqarıstan Respublikasının Baş naziri, eləcə də Serbiya Prezidenti ölkəmizdə səfərdə olub.

Mərkəzi, Şimali və Cənubi Amerika, Yaxın Şərq, Afrika və Asiya dövlətləri ilə qarşılıqlı maraqlar əsasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq münasibətləri davam edib, işgüzar səfərlər həyata keçirilib və siyasi məsləhətləşmələr təşkil olunub.

2022-ci ildə yeni diplomatik missiyaların açılması işi davam etdirilib. Azərbaycanın İsraildə (Təl-Əviv şəhərində) və Albaniyada Səfirliyinin, Fələstində (Ramallah şəhərində) Təmsilçilik Ofisinin, Keniyada Səfirliyinin və BMT-nin Nayrobi ofisi yanında Daimi Nümayəndəliyinin təsis edilməsi barədə müvafiq sərəncamlar imzalanıb. 2021-ci ildə Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda təsis edilmiş səfirliyinə ölkəmizin səfiri 2022-ci ildə təyin edilib. Bununla yanaşı, 2020-ci ildə Kubada, 2021-ci ildə isə Bosniya və Herseqovinada təsis edilmiş səfirliklərimizə səfir təyinatları baş tutub. Ümumilikdə, Azərbaycan Respublikasının xaricdə diplomatik missiyalarının ümumi sayı 89-a çatıb (66 səfirlik, 6 daimi nümayəndəlik, 9 baş konsulluq, 8 səfirlik və təmsilçilik ofisi).

Çoxtərəfli və ikitərəfli əsasda hüquqi sənədlərin imzalanması istiqamətində iş aparılıb. 2022-ci il ərzində müvafiq prosedurlara uğun olaraq Azərbaycan-İran-Rusiya arasında 1 sənəd, Azərbaycan-Türkiyə-Türkmənistan arasında 6 sənəd, Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan arasında 1 sənəd imzalanıb. Bununla yanaşı, 27 ölkə ilə ümumilikdə 150 sənədin imzalanması təmin edilib.

## Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq

2022-ci ildə Azərbaycan Respublikasının BMT üzvlüyünə qəbul edilməsinin 30 ili tamam olub. Azərbaycan əvvəlki illərdə olduğu kimi beynəlxalq sülh, təhlükəsizlik və inkişafın bərqərar edilməsi istiqamətində BMT Nizamnaməsinin məqsədlərinin yerinə yetirilməsinə öz töhfələrini verib.

18 mart tarixində Şuşa şəhərində BMT-Azərbaycan tərəfdaşlığının 30-cu ildönümü ilə bağlı beynəlxalq konfrans keçirilib, Şuşada ilk dəfə olaraq BMT bayrağı ucaldılıb. Tədbir çərçivəsində Azərbaycan Respublikası xarici işlər naziri və Azərbaycan Respublikasının Prezidentinin köməkçisinin, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisinin, BMT təşkilatlarının rəsmilərinin iştirak etdiyi konfransda post-münaqişə dövrü məsələləri, azad edilmiş ərazilərin bərpası, Azərbaycan və BMT-nin Sabit İnkişaf Məqsədləri çərçivəsində tərəfdaşlığı müzakirə edilib.

İl ərzində ölkəmizə BMT Baş Assambleyasının (BA) 76-cı sessiyasının sədri, BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki Bölməsinin Baş direktoru, BMT-nin Məskunlaşma Proqramının (UN Human Settlements Program - UN-HABITAT) icraçı direktoru və digər BMT rəsmilərinin səfərləri təşkil edilib.

Azərbaycan tərəfindən BMT Baş Assambleyasının 77-ci sessiyasında irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə, eləcə də ölkəmizin əsas müəllifliyi ilə iki ildən bir irəli sürülən "Hərbi münaqişələr zamanı, sonradan həbs olunanlar da daxil olmaqla, girov götürülmüş qadın və uşaqların azad edilməsi" adlı qətnamə layihəsi BMT-nin Qadınların Vəziyyəti üzrə Komissiyanın 66-cı sessiyasında yenidən konsensusla qəbul edilib.

1 aprel 2022-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 49-cu sessiyası çərçivəsində Azərbaycan və Ekvadorun təşəbbüsü ilə irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə yekdilliklə qəbul edilib.

İl ərzində Azərbaycanın Qoşulmama Hərəkatında (QH) sədrliyi uğurla davam edib.

26 may 2022-ci il tarixində Azərbaycan sədrliyinin Afrika qitəsinə verdiyi xüsusi diqqəti nümayiş etdirmək və Hərəkatın Afrika İttifaqı ilə əməkdaşlıq əlaqələrini gücləndirmək məqsədilə Xarici İşlər Nazirliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qoşulmama Hərəkatının təkamülündə Afrika irsi" mövzusunda konfrans təşkil edilib.

Azərbaycan Respublikasının ev sahibliyi ilə 30 iyun-1 iyul 2022-ci il tarixində QH Parlamentlər Şəbəkəsinin (QHPŞ) Bakı Konfransının, 25-29 iyul 2022-ci il tarixlərində isə QH-nin Gənclər Sammitinin keçirilməsi və bu tədbirlərin yekunu olaraq QHPŞ-nin və QH-nin tarixdə ilk dəfə olaraq Gənclər Təşkilatının fəaliyyət modallıqlarını tənzimləyən sənədlərin, eləcə də bu qurumların loqo və bayraqlarının qəbul edilməsi QH-nin təsisatlanması istiqamətində əldə edilmiş mühüm nailiyyətlər olub.

QHPŞ-nin Bakı Konfransı çərçivəsində baş tutmuş seçkilər nəticəsində Milli Məclisin Sədri xanım Sahibə Qafarova QH PŞ-nin sədri seçilib. QH Gənclər Sammitinin yekun sənədi tədbirin Şuşa seqmentində qəbul edilib və Şuşa Akkordu adlandırılıb.

22 oktyabr 2022-ci il tarixində Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, BMT-nin ölkəmizdəki Rezident Əlaqələndiricisinin Ofisi ilə birlikdə Azərbaycan-BMT əməkdaşlığının 30 illiyi ilə əlaqədar Bakı şəhərində Beynəlxalq Xeyriyyə Yarmarkası təşkil olunub. Tədbir həmçinin hər il 24 oktyabr tarixində qeyd olunan BMT Günü və 26 oktyabr 2022-ci il tarixində ölkəmizin Qoşulmama Hərəkatına sədrliyinin üçüncü ildönümünə həsr olunub.

İl ərzində Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığa xüsusi önəm verilib. Azərbaycan təşkilatın işində fəal iştirak edib və bir sıra təşəbbüslər irəli sürüb. Təşkilat çərçivəsində mühüm qərarlar qəbul edilib.

Təşkilatın 11 noyabr 2022-ci il tarixində Səmərqənddə Doqquzuncu Zirvə Görüşü keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak edib. Zirvə toplantısında qəbul edilmiş Səmərqənd Bəyannaməsində, digər məsələlərlə yanaşı, Azərbaycan və Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və dəstəklənməsi əsasında normallaşdırılmasına dəstək ifadə olunub. Azərbaycanın münaqişədən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya səylərinə töhfənin verilməsinə hazırlıq bir daha təsdiq edilib. Bununla yanaşı, Zəngəzur dəhlizinin açılması istiqamətində səylərə dəstək ifadə olunub.

31 mart 2022-ci il tarixində Türkiyə Respublikasının Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib.

13-14 may 2022-ci il tarixlərində Bursada TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 8-ci iclasında növbəti 9-cu iclasının 2023-cü ildə Şuşa şəhərində keçirilməsi barədə qərar qəbul olunub.

Bununla yanaşı, 11 noyabr 2022-ci il tarixində Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə qəbul edilmiş qərara əsasən akademik Şahin Mustafayev mərkəzi Qazaxıstanda yerləşən Beynəlxalq Türk Akademiyasının prezidenti seçilib.

2022-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq davam etdirilib. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə gələcək əməkdaşlığının hüquqi əsasını təşkil edəcək yeni ikitərəfli saziş layihəsi üzrə danışıqlar aparılıb. İyulun 19-da Brüsseldə Avropa İttifaqı və Azərbaycan arasında Əməkdaşlıq Şurasının 18-ci iclası keçirilib və iclasda xarici işlər naziri iştirak edib. Oktyabrın 6-da Avropa İttifaqının Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısında Azərbaycan Respublikasının Prezidenti iştirak edib və bəyanatla çıxış edib. 12 dekabr 2022-ci il tarixində xarici işlər naziri Brüsselə işgüzar səfəri çərçivəsində Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin görüşündə iştirak edib. İclasda Şərq Tərəfdaşlığının hazırkı vəziyyəti və gələcək istiqamətləri, regional təhlükəsizlik, Avropa İttifaqı ilə tərəfdaş ölkələr arasında münasibətlərin perspektivləri haqqında müzakirə aparılıb.

Azərbaycanın Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Şurası, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), Şanxay Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası və digər beynəlxalq təşkilatlar və platformalar çərçivəsində əməkdaşlığı davam edib.

Azərbaycan 2022-ci ilin yanvar-aprel aylarında silahlara nəzarət və tərksilah məsələləri daxil olmaqla, hərbi siyasi sahədə inam və təhlükəsizlik yaratma sahəsində ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumuna (TƏF) sədrlik edib. Azərbaycanın TƏF-ə sədrliyi dövründə hərbi- siyasi ölçünün geniş spektri üzrə mövzular, o cümlədən, mina fəaliyyəti, post-münaqişə dövründə bərpa işləri, Avropa təhlükəsizlik arxitekturasında bloklara daxil olmayan dövlətlərin rolu kimi məsələlər üzrə ATƏT çərçivəsində dialoq və anlaşmanın təşviq edilməsinə töhfə verib.

22-23 mart 2022-ci il tarixlərində Pakistan İslam Respublikasının İslamabad şəhərində İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) "Birlik, ədalət və inkişaf naminə tərəfdaşlığın qurulması" mövzusunda 48-ci sessiyası keçirilib. Tədbirdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri ilə bağlı siyasi, iqtisadi və mədəni məsələləri əhatə edən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması", "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi", "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycanın ərazilərində İslam mədəniyyətinə aid tarixi və mədəni abidələrin dağıdılması" və "Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı dörd qətnamə qəbul edilib. İƏT tərəfindən ənənəvi olaraq hər il qəbul olunan bu qətnamələrə bölgədəki son vəziyyət nəzərə alınmaqla yeni müddəalar daxil edilib.

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Bakıda Regional Ofisinin yerləşməsi barədə 20 may 2022-ci il tarixində Azərbaycan Respublikası Hökuməti ilə ICESCO arasında Saziş imzalanıb. 24 dekabr 2022-ci il tarixində "Azərbaycan Respublikası ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında əməkdaşlığın dərinləşdirilməsinə dair Fəaliyyət Planı" imzalanıb.

2022-ci ildə Azərbaycan-NATO tərəfdaşlığı öz strateji əhəmiyyətini saxlayıb, tərəflər arasında yüksək səviyyəli dialoq və praktiki əməkdaşlıq davam edib. 15 fevral 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və NATO-nun Baş katibi cənab Yens Stoltenberq arasında telefon danışığı aparılıb. 19 iyul 2022-ci il tarixində NATO mənzil qərargahında xarici işlər naziri Ceyhun Bayramov baş katib Yens Stoltenberqlə görüşüb. 28-29 aprel 2022-ci il tarixində NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina ölkəmizə səfər edib. İl ərzində NATO ilə əməkdaşlıq şəraitində beynəlxalq sülh və təhlükəsizliyə töhfə sahəsində milli imkanların artırılması və müdafiə islahatları sahəsində səylər davam edib və bu mövzuda yeni tərəfdaşlıq məqsədləri razılaşdırılıb.

Şanxay Əməkdaşlıq Təşkilatının 15-16 sentyabr tarixlərində Səmərqənd şəhərində keçirilmiş Zirvə Görüşündə Özbəkistan Prezidentinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti ilk dəfə fəxri qonaq qismində iştirak edib. Bu ölkəmizin ŞƏT ilə əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində mühüm hadisə olmaqla yanaşı, Azərbaycanın etibarlı tərəfdaş kimi beynəlxalq sülh, təhlükəsizlik və inkişafın təmin edilməsində artan rolunun beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilməsinin daha bir nümunəsidir.

Həmçinin, 1 noyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi Ərəb Dövlətləri Liqasının Əlcəzair şəhərində keçirilən 31-ci Sammitində fəxri qonaq qismində iştirak edib.

2022-ci il ərzində beynəlxalq qurumların seçkili vəzifələrinə Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş namizədliklərin təşviq edilməsi istiqamətində fəaliyyət davam etdirilib. Ölkəmiz bir sıra seçkilərdə uğur qazanıb.

İqtisadi Əməkdaşlıq Təşkilatına və BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üçün Xüsusi Proqramına (SPECA) 2023-cü il üzrə sədrliklərin (1 il müddətinə) Azərbaycan Respublikasına keçməsi ilə bağlı qərarlar qəbul edilib.

Aparılmış uğurlu seçki kampaniyalarının nəticəsi olaraq, Azərbaycan vətəndaşları bir sıra nüfuzlu beynəlxalq qurumlara, o cümlədən BMT-nin İnsan Hüquqları Komitəsinin 2023-2026-cı illər üzrə üzvlüyünə, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin (CEDAW) 2023-2026-cı illər üzrə üzvlüyünə, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının (IPHRC) 2022-2025-ci illər üzrə üzvlüyünə, Beynəlxalq Telekommunikasiya İttifaqının Radio Tənzimləmə Komitəsinin 2023-2026-cı illər üzrə üzvlüyünə seçilib. Bundan əlavə, ölkəmiz Beynəlxalq Telekommunikasiya İttifaqı Şurasının 2023-2026-cı illər üzrə üzvü və Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin sədr müavini vəzifəsinə seçilib. Azərbaycan bununla yanaşı, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsinin sədr müavini seçilib.

## İqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə əməkdaşlıq

Azərbaycan uzun illər ərzində regional və qlobal əhəmiyyətli iqtisadi, enerji və nəqliyyat kommunikasiyalarının inkişaf etdirilməsi istiqamətində təşəbbüslər irəli sürüb və əməli addımlar atıb.

2022-ci il Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminində və tranzit daşımalarında oynadığı rolu daha da artıb.

18 iyul tarixində Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumu ənənəvi enerji tərəfdaşlığının genişləndirilməsi ilə yanaşı yaşıl və bərpa olunan enerji üzrə potensial əməkdaşlığı da ehtiva edir. 2027-ci ilədək Cənub Qaz Dəhlizinin potensialının 20 milyard kub metrə çatdırılmasını hədəfləyən Memorandum Qərbi Balkan regionunun enerji təchizatının şaxələndirilməsində mühüm addım hesab olunur.

Bununla yanaşı, Oktyabrın 1-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi keçirilib və

Azərbaycan Respublikasının Prezidenti tədbirdə iştirak edib. Dekabrın 16-da Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "Romgaz S.A." arasında Azərbaycandan Rumıniyaya qaz tədarükünə dair müqavilə imzalanıb. Müqaviləyə əsasən, 2023-cü il yanvarın 1-dən etibarən təbii qazın Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru (IGB) vasitəsilə Rumıniyaya planlı nəqli nəzərdə tutulur.

17 dekabrda Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Saziş, Azərbaycan mənbə olmaqla, Xəzər və Qara dəniz regionunda bərpa olunan enerji istehsalı potensialından istifadə edilməsini, enerji təchizatının şaxələndirilməsini nəzərdə tutur.

Qeyd edilənlərlə yanaşı, Şərq Tərəfdaşlığı (ŞT) üzrə İqtisadi və İnvestisiya Planı çərçivəsində ölkəmizə növbəti beş il ərzində ən azı 2 milyard avro vəsaitin ayrıla biləcəyi Aİ tərəfindən bəyan edilib. Prioritet layihələrin müəyyənləşdirilməsi üçün yüksək səviyyəli İşçi Qrupu yaradılıb və onun ilk iclası 7 dekabr tarixində Bakıda baş tutub.

Bununla yanaşı, ölkəmizin tranzit-nəqliyyat potensialının gücləndirilməsi istiqamətində müvafiq fəaliyyət həyata keçirilib. Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizləri, regional nəqliyyat və infrastruktur layihələri istiqamətində səy göstərilib, müvafiq razılaşmalar əldə edilib. 10-11 mart 2022-ci ildə Bakı şəhərində Azərbaycan ilə İran arasında "İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" imzalanıb. 2022-ci ilin 9 sentyabr tarixində Bakı şəhərində Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyətinin inkişafı, dayanıqlığının artırılması və rəqabət qabiliyyətliliyinin yüksəldilməsi məqsədilə Azərbaycan, Rusiya və İran arasında baş nazirlərin müavinləri səviyyəsində birinci üçtərəfli görüş keçirib. Görüşdə imzalanmış Bakı Bəyannaməsində həmçinin regionda bütün iqtisadi və nəqliyyat bağlantılarının, o cümlədən Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan MR birləşdirən nəqliyyat bağlantılarının açılması və inkişafının vacibliyi əksini tapmışdır.

Eyni zamanda Azərbaycan-Türkiyə-Türkmənistan, Azərbaycan-Türkiyə-Qazaxıstan, Azərbaycan-Türkiyə-Özbəkistan və s. bu kimi üçtərəfli əməkdaşlıq formatlarından - diplomatiyanın yeni təcrübəsindən istifadə olunmaqdadır. 2022-ci ildə Türkmənistan, Azərbaycan və Türkiyə Dövlət Başçılarının Üçtərəfli Zirvə Görüşü (14 dekabr 2022-ci il, Avaza Milli Turizm Zonası, Türkmənistan), eləcə də Azərbaycan-Qazaxıstan-Türkiyə xarici işlər və nəqliyyat sahəsi üzrə məsul nazirlərin (27 iyun 2022-ci il, Bakı; 25 noyabr 2022-ci il Aktau, Gürcüstan tərəfi də iştirak etmişdir) və Azərbaycan-Özbəkistan-Türkiyə xarici işlər, iqtisadiyyat və nəqliyyat sahələri üzrə məsul nazirlərin (2 avqust 2022-ci il, Daşkənd) üçtərəfli toplantıları keçirilib.

Dekabrın 14-də Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Avaza şəhərində Zirvə Görüşündə müxtəlif sahələr üzrə, o cümlədən energetika, ticarət, gömrük, nəqliyyat, təhsil və mədəniyyət sahələri üzrə sənədlər qəbul olunub. Şərq-Qərb Trans-Xəzər nəqliyyat dəhlizinin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Azərbaycan tərəfindən humanitar sahədə işlər 2022-ci ildə geniş şəkildə davam etdirilib. Azərbaycan tərəfindən BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC) və İslam Dünyasının Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) dəstəyi ilə irəli sürülmüş "Mədəniyyət naminə sülh" qlobal kampaniyası barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması istiqamətində iş aparılıb, 2022-ci ilin mayında Nyu-Yorkda "Mədəniyyət naminə sülh" təşəbbüsünün icrası üçün Alyansla 2022-2027-ci illəri əhatə edən Fəaliyyət Planının icrasına dair saziş imzalanıb.

İl ərzində Azərbaycan Respublikası həmçinin beynəlxalq səviyyədə humanitar yardım və inkişafa dəstək fəaliyyətini davam etdirib. İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün 5 tədris ili müddətinə (2018-2022) təsis edilmiş təhsil qrantı proqramlarının sonuncu qəbul prosesi uğurla tamamlanıb, 36 ölkədən 40 tələbə ölkəmizin ali təhsil müəssisələrində təhsil almaq üçün tam təqaüd qazanıb. Beləliklə, 5 il ərzində sözügedən proqramlar çərçivəsində 90-a yaxın ölkədən tam təqaüd haqqı qazanmış tələbələrin sayı 200-ə çatıb.

İl ərzində İraq, Braziliya, Efiopiya və Uqanda kimi dövlətlərdə fəaliyyət göstərən məktəb və xüsusi tədris mərkəzlərinə yardımlar göstərilib, Cənubi Sudan, Efiopiya, Əfqanıstan, Somali, Yəmən, Surinam, Pakistan və Ukraynaya humanitar yardım edilib.

27 fevral tarixindən başlayaraq Ukraynaya humanitar yardım göndərilib. Dərman vasitələri, tibbi sərfiyyat malları, tibbi avadanlıqlar, qida və ərzaq məhsulları və körpə uşaq qayğısı məhsullarından ibarət olan humanitar yardımlara cari ilin dekabr ayında artıq ilk hissəsi Ukraynaya çatmış güc transformatorları və generatorlar əlavə olunub (ümumi məbləği 1 milyon 422 min manat və ya 830 min ABŞ dollarından artıq). Ümumilikdə, Azərbaycan Respublikası tərəfindən Ukraynaya göstərilmiş humanitar yardımın məbləği 30 milyon manata (17.5 milyon dollara) yaxın, ümumi həcmi isə təxminən min (1000) tondur. Bununla yanaşı, müharibədən zərər çəkmiş, ailə üzvlərini itirmiş 90-a yaxın ukraynalı uşaq tibbi və sosial-psixoloji reabilitasiya məqsədilə ölkəmizə gətirilib.

Bundan əlavə, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Əhali Fondu, BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi, BMT-nin Fövqəladə Hallara Qarşı Mərkəzi Cavab Fondu, Ümumdünya Səhiyyə Təşkilatı kimi qurumların qlobal fəaliyyətinə, eləcə də BMT-nin Yaxın Şərqdəki Fələstinli Qaçqınlar üzrə Yardım və İş Agentliyinin (UNRWA) fəaliyyətinə müvafiq maliyyə dəstəyi göstərilib. İl ərzində İslam İnkişaf Bankı və digər tərəfdaşlarla birgə Afrika ölkələrində həyata keçirilən "Qarşısı alına bilən görmə qabiliyyətinin itirilməsi ilə mübarizə" kampaniyası AIDA-nın (Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi) maliyyə dəstəyi ilə davam etdirilib.

## Postmünaqişə dövründə diplomatik fəaliyyət

Azərbaycanın ərazi bütövlüyünün və beynəlxalq hüququn təmin edilməsi ilə bölgədə yaranan yeni reallıqlar çərçivəsində maraqlarımızın irəlilədilməsi prioritet təşkil edib.

Vətən müharibəsi və Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı ilə Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması nəticəsində Ermənistan və Azərbaycan arasında suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin qarşılıqlı tanınması və hörmət edilməsi əsasında münasibətlərin qurulması 2022-ci ildə xarici siyasətin əsas istiqamətlərindən biri olub.

İl ərzində davamlı, ardıcıl və məqsədyönlü addımlar nəticəsində Azərbaycan tərəfindən təşviq edilən sülh gündəliyi beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilib, bu dövr ərzində beynəlxalq tərəfdaşların vasitəçiliyi və təşkilatçılığı ilə təmaslar məhz Azərbaycanın təşviq etdiyi gündəlik əsasında Ermənistanla birbaşa ikitərəfli danışıqlar formatında irəlilədilib.

Normallaşma gündəliyi Ermənistan və Azərbaycan arasında ikitərəfli münasibətlərin əsaslarını müəyyən edəcək sülh müqaviləsinin hazırlanması, dövlət sərhədinin delimitasiyası və iki dövlət arasında nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası kimi üç əsas istiqamətdə qurulub.

Bu çərçivədə, əsas inkişaflar qismində Azərbaycanın 2021-ci ildə sülh sazişi imzalanması təklifinə uyğun olaraq, sülh sazişi üzrə baza prinsiplərinin cari ilin fevral ayında Azərbaycan tərəfindən hazırlanıb Ermənistana təqdim edilməsini, 2 oktyabr 2022-ci il tarixində Cenevrədə Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin iki ölkə arasında gələcək münasibətlərin əsasını təşkil edəcək sülh müqaviləsinin mətni üzrə praktiki danışıqların başlanmasını, eləcə də sərhədin delimitasiyası üzrə hər iki tərəfdən müvafiq komissiyaların təsis edilməsi və bu komissiyaların ikitərəfli əsasda görüşlərinin keçirilməsini qeyd etmək olar.

Azərbaycan və Ermənistan liderləri arasında Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Ş.Mişelin iştirakı ilə 2022-ci ilin 6 aprel, 22 may və 31 avqust tarixlərində Brüsseldə, Ş.Mişel və Fransa prezidenti E.Makronun iştirakı ilə 2022-ci ilin 4 fevral tarixində virtual, 6 oktyabr tarixində Praqada, 31 oktyabr tarixində Rusiya liderinin iştirakı ilə Soçidə - ümumilikdə 7 görüş keçirilib.

Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ikitərəfli formatda 2022-ci ilin 16 iyul tarixində Tbilisidə, 2 oktyabr tarixində Cenevrədə, 7 noyabr tarixində Vaşinqtonda - ümumilikdə 3 görüş keçilib. Bundan başqa, 2022-ci ilin 11 və 23 aprel tarixlərində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında iki dəfə birbaşa, bir dəfə - 4 oktyabr 2022-ci tarixində ABŞ dövlət katibinin iştirakı ilə telefon danışığı baş tutub. Eyni zamanda, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında 12 may tarixində Düşənbədə, 14 oktyabr tarixində Astanada Rusiyanın xarici işlər nazirinin, 19 sentyabr tarixində Nyu-Yorkda və 7 noyabr tarixində Vaşinqtonda ABŞ dövlət katibinin təşkilatçılığı və iştirakı ilə görüşlər keçirilib.

31 avqustda Liderlər arasında Brüssel görüşünün nəticəsində qəbul edilmiş bəyanatda sülh sazişinin gündəliyinin irəlilədilməsi istiqamətində Sazişin mətninin hazırlanması, sərhədin delimitasiyası üzrə məsələlərdə irəliyə doğru addımların atılması barədə razılığa gəlinib. Bu razılığa uyğun olaraq, 2 oktyabr tarixində Azərbaycan sülh sazişinin elementlərini qarşı tərəfə təqdim edib və bu istiqamətdə danışıqlar üzrə 2 görüş (Cenevrə və Vaşinqtonda) keçirilib. Sayca üçüncü olan 23 dekabr Moskva görüşü Ermənistan tərəfinin iştirak etməməsi səbəbindən təxirə salınıb.

İl ərzində aparılmış müzakirələr nəticəsində Ermənistan-Azərbaycan sərhəd xəttinin delimitasiya və demarkasiya prosesi üzrə hər iki tərəfdən dövlət komissiyaları təsis olunmuş, 2022-ci ilin 24 may, 30 avqust və 3 noyabr tarixlərində müvafiq olaraq iki ölkənin şərti dövlət sərhədində, Moskvada və Brüsseldə üç dəfə görüşləri keçirilib.

2022-ci ilin 3 iyun və 6 dekabr tarixlərində regional kommunikasiyaların açılması üzrə Üçtərəfli İşçi Qrupunun Moskvada 10 və 11-ci görüşləri baş tutub.

Xüsusi əhəmiyyət kəsb edən məsələ, Azərbaycan və Ermənistan liderlərinin müvafiq olaraq 6 oktyabrda Praqada və 31 oktyabrda Soçidə baş tutmuş görüşlərində hər iki ölkənin bir- birinin suverenliyi və ərazi bütövlüyünü qarşılıqlı tanıması və iki ölkə arasında bütün mübahisəli məsələlərin məhz bu əsasda həllinə dair öhdəliyin təsdiq edilməsi olub. Bu, Azərbaycan tərəfindən irəli sürülən baza prinsiplərində də əks olunduğu kimi, iki ölkə arasında münasibətlərin normallaşmasının əsasını təşkil edir və Ermənistan tərəfindən bu öhdəliyin qəbul edilməsi il ərzində post-münaqişə gündəliyinin irəlilədilməsi baxımından vacib inkişafdır.

Üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərə uyğun olaraq, Azərbaycan tərəfi yeni Laçın yolunun çəkilişini vaxtından əvvəl yekunlaşdırıb, Laçın şəhəri, Zabux və Sus kəndlərindən qeyri-qanuni məskunlaşmış ermənilər çıxarılıb və bu ərazilər Azərbaycana geri qaytarılıb.

Bununla yanaşı, il ərzində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətin qarşısının alınması istiqamətində tədbirlər görülüb. Azərbaycan hökuməti dialoq yolu ilə ərazidə faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarının, o cümlədən ağır ekoloji nəticələrin aradan qaldırılması üçün bir sıra addımlar atıb. 3 və 7 dekabr tarixlərində Azərbaycanın müvafiq qurumları ilə Rusiya sülhməramlı kontingentinin komandanlığı arasında Qızılbulaq və Dəmirli yataqlarının qeyri-qanuni istismarının ekoloji nəticələrinin monitorinqi və qiymətləndirilməsi üçün azərbaycanlı mütəxəssislərin yerində baxış keçirməsi şərtlərinin müəyyən edilməsi məqsədilə görüşlər keçirilib.

Əldə olunmuş razılaşmanın ardınca, azərbaycanlı mütəxəssislərdən ibarət heyətin sülhməramlılar tərəfindən təşkil olunmuş səfərinə bir qrup şəxsin əvvəlcədən planlaşdırılmış və təşkil olunmuş addımları nəticəsində maneçilik törədilib. Bu, Azərbaycan ictimaiyyətinin haqlı etirazına səbəb olub, bir qrup vətəndaş cəmiyyəti nümayəndələri etiraz əlaməti olaraq Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı, bu sərvətlərin Azərbaycandan Ermənistana daşınması və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolundan sui-istifadə hallarının qarşısının alınması tələbi ilə Laçın yolunda dinc nümayişə başlayıblar. Bu istiqamətdə Azərbaycana qarşı göstərilən əsassız və qərəzli iddiaların qarşısının alınması istiqamətində diplomatik səylər davam etdirilib.

Regionda nəqliyyat kommunikasiyalarının bərpası, bu kontekstdə 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq, Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişin təmin edilməsi istiqamətində fəaliyyət müvafiq işçi qrupu çərçivəsində davam etdirilsə də, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi səbəbindən bu sahədə ciddi irəliləyiş əldə edilməsi mümkün olmayıb.

Ümumiyyətlə isə, il ərzində Ermənistan-Azərbaycan arasında post-münaqişə dövründə normallaşma istiqamətində ikitərəfli təmaslarda qismən dinamika olmasına baxmayaraq, normallaşmanın hər üç istiqamətində əldə edilmiş tərəqqi gözləntilərə cavab verməyib. Bunun əsas səbəbini Ermənistanın münasibətlərin normallaşması istiqamətində real addımlar atmaq üçün zəruri siyasi iradə göstərməməsi, ziddiyyətli və qeyri-ardıcıl mövqeyi, əldə edilmiş razılaşma və üzərinə götürmüş öhdəliklərin icrasından davamlı olaraq boyun qaçırmaq səyləri, xüsusilə normallaşma səylərinə zərbə vurmaq məqsədilə siyasi və hərbi təxribatlara əl atması təşkil edir. Bununla yanaşı, sülh müqaviləsinin mətni üzrə təkliflərdə prosesi uzatmaq meylləri mövcuddur.

İkitərəfli, regional və çoxtərəfli formatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, GUAM, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilmiş görüşlər, səsləndirilmiş bəyanatlar və qəbul edilmiş sənədlər vasitəsilə Vətən müharibəsindən sonra yaranmış reallıqlar barədə məlumatlandırılma işləri gücləndirilib, regionda dayanaqlı sülh, münaqişədən sonrakı bərpa və yenidənqurma fəaliyyətləri və məcburi köçkünlərin geri qayıtması üçün zəruri şərtlərin formalaşdırılması istiqamətində fəaliyyətlərimiz davam edib.

2022-ci ildə xarici işlər nazirinin səfərləri və qatıldığı beynəlxalq tədbirlər çərçivəsində xarici həmkarları ilə keçirdiyi 60-a yaxın görüşlərdə, eləcə də Azərbaycana səfər etmiş xarici həmkarları və digər rəsmilər ilə görüşləri zamanı post-münaqişə mərhələsində bölgədə mövcud olan reallıqlar və ölkəmizin dayanaqlı sülh naminə atdığı addımlar barədə ətraflı məlumat təqdim edilib.

İşğaldan azad olunmuş ərazilərə xarici rəsmilər, parlamentarilər, beyin mərkəzlərinin nümayəndələri və jurnalistlər səfərlər edib, beynəlxalq təşkilatların qiymətləndirmə missiyaları baş tutub. Xarici dövlətlər tərəfindən konkret layihələrlə bu ərazilərin bərpası və yenidənqurulması işinə töhfələr verilib.

Ermənistanın təxminən 30 il ərzində işğal altında saxladığı ərazilərimizdə törətdiyi cinayətlərin - mülki infrastrukturun məqsədyönlü şəkildə kütləvi miqyasda dağıdılması (urbisid), mədəni irsin dağıdılması, saxtalaşdırılması və talan edilməsi (kultursid), ətraf mühitə və biomüxtəlifliyə vurulan zərər (ekosid), mülki əhalimizə, girov və ya əsir götürülmüş vətəndaşlarımıza münasibətdə törətdiyi müharibə cinayətlərinin ifşa edilməsi və bu əməllərə görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyətinin təsbit edilməsi, hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi, kütləvi məzarlıqlarda aparılan ekshumasiya və identifikasiya işinə beynəlxalq ekspertlərin cəlb edilməsi ilə bağlı fəaliyyətlər davam etdirilib.

İl ərzində Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) və İnsan Hüquqları üzrə Avropa Məhkəməsində Azərbaycan tərəfinin Ermənistana qarşı verdiyi şikayətlər üzrə zəruri tədbirlər görülüb. Dekabr ayında Azərbaycan tərəfi Ermənistana qarşı 2022-ci ilin may-avqust aylarında Ermənistanın Laçın şəhərini və iki qonşu kəndi tərk etməsi zamanı əmlakın, o cümlədən yüzlərlə mülki evin və digər yaşayış sahələrinin qəsdən və məqsədyönlü şəkildə dağıdılmasına dair yeni dövlətlərarası şikayət təqdim edib. Azərbaycan tərəfi insan hüquqlarının kobud şəkildə pozulması nəticəsində dəymiş ziyana görə kompensasiya, reparasiya, restitusiya, digər xərclərin qarşılanmasını tələb edir.

Bundan əlavə, Ermənistana qarşı aparılan hüquqi məsuliyyət tədbirləri çərçivəsində BƏM-ə təqdim ediləcək əsas iddia - 30 illik hərbi işğal dövrünə aid bütün faktları əks etdirən müfəssəl sənəd yekunlaşdırılıb. Sənəd 2023-cü ilin yanvar ayının sonunda BƏM-ə təqdim ediləcəkdir. Həmçinin 12 oktyabr 2022-ci il tarixində BƏM Ermənistan tərəfindən 16 sentyabr 2022-ci il tarixində Azərbaycana qarşı yeni müvəqqəti tədbirlərə dair verilmiş vəsatəti rədd edib. Növbəti ilin əvvəlində Azərbaycan tərəfi Ermənistana qarşı ətraf mühitə və canlı təbiətə vurulmuş zərər, həmçinin enerji resurslarının və təbii sərvətlərin qanunsuz istismarına dair yeni hüquqi məsuliyyət tədbirləri planlaşdırır.

Minalardan əziyyət çəkən ölkə kimi Azərbaycan, minaların sülhə və təhlükəsizliyə təhdid törətməsi, insan haqlarını pozması və sosial-iqtisadi inkişafa maneə yaratması və ölkəmizin üzləşdiyi mina probleminin aradan qaldırılması üçün aparılan genişmiqyaslı humanitar minatəmizləmə əməliyyatları barədə beynəlxalq səviyyədə məlumatlandırma işini davam etdirib. Müharibədən sonra mina qurbanı olan şəxslərin sayı 276 nəfərə çatıb, bunlardan 46 nəfər həlak olub. Bununla yanaşı, Ermənistanda 2021-ci ildə istehsal olunmuş minaların Azərbaycana gətirilməsi və burada basdırılmasından irəli gələn problemlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb. Ölkəmizin üzləşdiyi mina probleminə görə Ermənistanın daşıdığı hüquqi və siyasi məsuliyyətin işıqlandırılması və humanitar minatəmizləmə əməliyyatlarına beynəlxalq yardımın cəlb edilməsi prioritet vəzifələr kimi qarşıya qoyulub. Azərbaycan tərəfi "Piyadalar əleyhinə minaların istifadəsi, ehtiyata yığılmasının, istehsalının və daşınmasının qadağan edilməsi və onların məhv edilməsi üzrə Konvensiya" daxil olmaqla müvafiq beynəlxalq formatlarda diplomatik fəallıq göstərib. Bundan başqa, il ərzində BMT, Avropa İttifaqı, NATO daxil olmaqla beynəlxalq təşkilatlarla və bir sıra ölkələrlə Azərbaycanda mina probleminin aradan qaldırılması üzrə əməkdaşlıq yolları barədə dialoq aparıb.

## Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə fəaliyyət

Əvvəlki illərdə olduğu kimi, 2022-ci ildə də milli qanunvericiliyə və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində zəruri fəaliyyətlər həyata keçirilib.

Azərbaycan Hökuməti tərəfindən görülmüş tədbirlər nəticəsində Azərbaycan Respublikası vətəndaşlarının İraq Respublikası və Suriya Ərəb Respublikasından repatriasiyası, Ukraynadan təxliyəsi həyata keçirilib.

Azərbaycan hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində 2022-ci ildə 54-ü uşaq və 14-ü qadın olmaqla, ümumilikdə 68 vətəndaşın, son 3 il ərzində isə 380 uşaq və 29 qadın olmaqla, ümumilikdə 409 vətəndaşın İraq və Suriyadan repatriasiyası həyata keçirilib. Müvafiq tədbirlər planına əsasən, aidiyyəti qurumlar tərəfindən repatriantların reabilitasiya və reinteqrasiyası prosesi təmin edilib.

Azərbaycan hökumətinin dəstəyi ilə Ukraynadan ümumilikdə 16 mindən çox şəxsin (vətəndaşların və onların ailə üzvü olan xarici ölkə vətəndaşlarının) ölkəmizə təxliyəsi təmin olunub.

Azərbaycan Respublikası vətəndaşları, o cümlədən ölkəmizdə müvəqqəti və daimi əsaslarla yaşayan və ya olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində qəbulu prosesinin təkmilləşdirilməsi və onlara keyfiyyətli xidmətin göstərilməsi məqsədilə 2022-ci ilin 4 iyul tarixində Nazirliyin inzibati binasında vətəndaşların yeni qəbul mərkəzi istifadəyə verilib.

## Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunan konfranslar, xarici siyasətin informasiya təminatı və analitik fəaliyyət. XİN-in kadr potensialının inkişaf etdirilməsi

İl ərzində Xarici İşlər Nazirliyi tərəfindən təhlil işi davam etdirilib, aidiyyəti dövlət qurumlarımıza müvafiq məlumatlar təqdim olunub.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar konfrans təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən elan olunmuş "Şuşa İli" çərçivəsində AR XİN və ADA Universitetinin təşkilatçılığı ilə növbəti "Diplomatiya Həftəsi" baş tutub.

Xarici İşlər Nazirliyi "Diplomatiya Aləmi" jurnalının "Şuşa İli"nə həsr olunmuş "Şuşa - Azərbaycanın mədəniyyət paytaxtı: keçmişdə və indiki dövrdə" adlı xüsusi buraxılışı nəşr etdirib. Jurnalın xüsusi buraxılışında həm xarici, həm də yerli mütəxəssislərin, eləcə də diplomatlarımızın məqalələri yer alıb. Jurnalın elektron versiyası XİN-in rəsmi internet səhifəsində yerləşdirilib.

Heydər Əliyev Fondunun himayəsi və XİN-in dəstəyi ilə Qarabağ bölgəsi və xüsusilə Şuşa şəhərinin tarixən Azərbaycan kimliyinin tərkib hissəsi olmasına dair Gürcüstan Milli Muzeyindəki tarixi artefaktlar əsasında Eldar Nadiradzenin müəllifi olduğu "Qarabağ xanlığı: tarixi və mədəni kimlik" ("Karabakh khanate: historical and cultural profile") adlı kitab çap edilib, kitabın ingilis, fransız və ərəb dillərində nəşrləri hazırlanıb.

2022-ci il ərzində işğaldan azad olunmuş ərazilərə müxtəlif ölkələrdən 200-ə yaxın jurnalistlərin səfərləri (press turlar) təşkil olunub. Eyni zamanda, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə, Xarici İşlər Nazirliyi tərəfindən Facebook, Twitter, Instagram və YouTube platformalarında aktiv fəaliyyət davam etdirilib. İl ərzində XİN-in saytında 600-ə yaxın xəbər yerləşdirilib.

Xarici İşlər Nazirliyinin kadr təminatı prosesinin təkmilləşdirilməsi məqsədilə Dövlət İmtahan Mərkəzi ilə aparılan hərtərəfli müzakirələrin nəticəsində, mərkəzləşdirilmiş qaydada, iki əsas mərhələdən (yazılı imtahan və müsahibə) ibarət müsabiqə prosesi təşkil edilib. 500-ə yaxın ümumi namizəddən bütün imtahan mərhələlərini uğurla keçən 67 namizəddən 38 nəfər işə qəbul edilib, digər namizədlərin yaxın aylarda diplomatik xidmətə qəbul edilməsi nəzərdə tutulub.

Qeyd edilən tədbirlərlə yanaşı, cari ildə Azərbaycanın xaricdə 20 nəfər yeni diplomatik missiya rəhbəri təyinatı həyata keçirilib.

# Azərbaycan Respublikası Mərkəzi Bankının 2023-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə BƏYANATI

*Möhtərəm Prezident cənab İlham Əliyevin başçılığı ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində 2022-ci ildə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik ümumilikdə qorunmuş və iqtisadi artım davam etmişdir.*

*2022-ci ildə Mərkəzi Bankın fəaliyyət mühiti qlobal iqtisadi proseslərin ölkə iqtisadiyyatına çoxtərəfli təsirləri ilə xarakterizə olunur. Qlobal tələbin təklifdən daha yüksək templə bərpası, dünya birja əmtəələrinin qiymətlərinin və ticarət tərəfdaşı ölkələrində inflyasiyanın kəskin dəyişkənliyi, eləcə də təchizat-logistika xərclərinin yüksəlməsi ölkə daxilində inflyasiyaya təsir etmişdir. Tədiyə balansı və daxili iqtisadi aktivliyin dəstəklənməsi baxımından isə xarici mühit Azərbaycan üçün əsasən əlverişli olmuşdur. Profisitli tədiyə balansı şəraitində valyuta bazarında təklif genişlənmiş və ölkənin strateji valyuta ehtiyatlarının artımı davam etmişdir.*

*Cari ildə pul siyasəti monetar amillər vasitəsilə inflyasiya təzyiqinin yumşaldılmasına yönəldilmişdir. Monetar amillər məcmu tələbin izafi artımını məhdudlaşdırmışdır. Pul siyasəti qərarları faktiki və proqnozlaşdırılan inflyasiyanın amilləri, eləcə də risklər balansı nəzərə alınmaqla qəbul olunmuşdur. Pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi istiqamətində bir sıra qərarlar verilmiş, pul siyasəti alətlərinin yeni konfiqurasiyada tətbiqinə başlanılmışdır. Qeyd olunan tədbirlər pul siyasəti qərarlarının faiz kanalı vasitəsilə inflyasiyaya ötürücülüyünün gücləndirilməsinə xidmət etmişdir. Cari ildə ilk dəfə banklararası faizlər Mərkəzi Bankın faiz dəhlizinin parametrlərinə reaksiya verməyə başlamışdır.*

*Növbəti ildə də pul siyasəti ölkədə qiymət sabitliyinin təmin olunmasına yönəldiləcəkdir. 2023-cü ildə monetar şərait illik inflyasiya göstəricilərinin dinamikasından və yenilənmiş proqnozların hədəf diapazonundan kənarlaşmasından asılı olaraq tənzimlənəcəkdir. İllik inflyasiyanın faktiki və proqnoz göstəricilərinin azalması halında pul siyasətinin sərtləşdirilməsi üzrə pauza və sonra onun yumşaldılması imkanları nəzərdən keçiriləcəkdir.*

*Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" rəhbər tutulmaqla pul siyasətinin strateji və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdiriləcəkdir.*

## I. 2022-Cİ İLDƏ PUL SİYASƏTİ

### 1.1. Pul siyasətinin həyata keçirilməsi mühiti

*2022-ci il dünyanın tədricən pandemiyadan çıxdığı dövrdə geosiyasi gərginliyin yüksəlməsi, dünya birjalarında əmtəə qiymətlərinin və ticarət tərəfdaşı ölkələrində inflyasiyanın artımı, qlobal dəyər zəncirindəki problemlərin qalması və bu proseslərin qlobal iqtisadiyyata təsirləri ilə xarakterizə olunur. Mürəkkəbləşən qlobal mühitdə inflyasiya təzyiqləri güclənsə də, Azərbaycanda xarici sektor göstəriciləri yaxşılaşmış, iqtisadi artım tempi yüksəlmişdir.*

**Dünyada iqtisadi aktivlik** 2022-ci ildə azalma meyilli olmuşdur ki, bu da əksər ölkələrdə inflyasiyanın hədəfləri üstələməsi, maliyyə şərtlərinin sərtləşməsi və geosiyasi gərginliklə izah olunur. Son meyilləri nəzərə alaraq il ərzində beynəlxalq təşkilatlar qlobal iqtisadi artım proqnozlarını azalma istiqamətində dəyişmişlər. Beynəlxalq Valyuta Fondunun (BVF) 2022-ci ilin oktyabrında dərc etdiyi hesabatında qlobal artımın 2022-ci ildə 3.2% olacağı proqnozlaşdırılır ki, bu da yanvar proqnozuna nəzərən 1.2 faiz bəndi azdır.

Qlobal tələbin təklifdən daha yüksək templə bərpası və geosiyasi qarşıdurma, qarşılıqlı sanksiyalar **dünya əmtəə qiymətləri**ndə, xüsusilə enerji və ərzaq qiymətlərində I rübdə rekord artımlara səbəb olmuşdur. Beynəlxalq təşkilatların məlumatlarına görə, cari ilin mart ayında ötən ilin eyni ayı ilə müqayisədə enerji qiymətləri 106% (Dünya Bankı), ərzaq qiymətləri 34% (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO) yüksəlmişdir. İlin sonuna doğru qiymət artımları tədricən səngisə də, yüksək olaraq qalır.

Brent markalı **neftin orta qiyməti** 2022-ci ilin 11 ayında 100.9 ABŞ dolları təşkil etmişdir ki, bu da əvvəlki ilin orta qiymətindən (71 ABŞ dolları) 42% çoxdur. Təbii qazın qiyməti də cari ildə rekord həddə çatmışdır.

Birja əmtəələrinin kəskin bahalaşması şəraitində cari ildə dünyanın əksər ölkələrində gözləniləndən daha yüksək və qalıcı inflyasiya müşahidə edilmişdir. Daşınma-logistika xərclərinin artması və çatdırılma müddətinin uzanması dünyada inflyasiya proseslərinin güclənməsinin əsas səbəblərindən olmuşdur. Noyabrda Azərbaycanın **ticarət tərəfdaşı olan ölkələrdə orta illik inflyasiya** 20% olmuşdur.

Yaranan yeni qlobal iqtisadi reallıqların ölkə iqtisadiyyatına təsirləri birtərəfli olmamışdır. Bir tərəfdən yüksək qlobal əmtəə qiymətləri və daşınma-logistika xətlərində problemlərin artması Azərbaycanda da inflyasiya təzyiqlərini artırmışdır. Digər tərəfdən Azərbaycanın əsas ixrac məhsullarının bahalaşması ölkənin tədiyə balansına, valyuta bazarında tarazlığa və iqtisadi aktivliyə pozitiv təsir göstərmişdir.

9 ayda tədiyə balansının **cari əməliyyatlar hesabı**nda ümumi daxili məhsulun (ÜDM) 30.7%-i səviyyəsində profisit yaranmışdır. Sonrakı aylarda da xarici sektorda müsbət proseslər davam etmişdir. Ümumilikdə ilin 11 ayında tədiyə balansının əsas komponenti olan xarici ticarət balansında 23.5 mlrd. ABŞ dolları məbləğində və ya ötən ilin müvafiq dövrünə nəzərən 2.5 dəfə çox müsbət saldo yaranmışdır. Profisitli tədiyə balansı şəraitində **ölkənin strateji valyuta ehtiyatları** 11 ayda 12.3% və ya 6.5 mlrd. ABŞ dolları artaraq 59.8 mlrd. ABŞ dollarına çatmışdır.

2022-ci ildə **ölkədə iqtisadi fəallıq yüksək** qalmış, onun perspektivləri ilə bağlı gözləntilər nikbin olmuşdur.

2022-ci ilin 11 ayında ümumi daxili məhsul real ifadədə 4.8%, o cümlədən qeyri-neft sektoru üzrə 9.2% artmışdır. Qeyri neft-qaz sektorunun ticari sahələri olan qeyri neft-qaz sənayesində 5.3%, kənd təsərrüfatında 3.4%-lik artım baş vermişdir.

İqtisadi aktivliyin yüksək qaldığını Mərkəzi Bank tərəfindən aparılan real sektorun monitorinqi də təsdiqləyir. Monitorinqə görə cari ilin 11 ayında biznes inamı indeksinin orta göstəricisi qeyri-neft sənayesi, ticarət və xidmət sektorlarında ötən ilin eyni dövrü ilə müqayisədə yaxşılaşmışdır. Qeyri-neft sənaye müəssisələrində istehsal güclərinin yüklənmə səviyyəsi ötən ilin eyni dövrünə nəzərən yüksəlmişdir.

2022-ci ildə **məcmu tələb**in bütün komponentləri iqtisadi artımı dəstəkləmişdir. Məcmu tələbin genişlənməsi müxtəlif sektorlarda özünü fərqli göstərmişdir. 2022-ci ilin 11 ayında ötən ilin eyni dövrünə nəzərən cəmi istehlakın əsas göstəricisi olan pərakəndə ticarət dövriyyəsi real ifadədə 3%, qeyri-neft investisiyalarının həcmi isə 24.5% artmışdır. Son rüblər istehlakçı inamı indeksinin yaxşılaşması qeydə alınmışdır. Qeyri-neft ixracı isə 11 ayda ötən ilin müvafiq dövrünə nəzərən 13.9% artmışdır.

Cari ildə **dövlət tələbi** məcmu tələbin başlıca mənbələrindən biri olaraq qalmışdır. 11 ayda dövlət büdcəsi xərcləri ötən ilin eyni dövrünə nəzərən 16.4%, o cümlədən cari xərclər 11.6%, əsaslı xərclər 39% artmışdır. 2022-ci ilin dövlət büdcəsinə dəyişikliklərlə dövlətin investisiya xərclərinin artırılması cari ilin 11 ayında iqtisadi aktivliyə əlavə dəstək vermişdir.

### 1.2. 2022-ci ildə həyata keçirilən pul siyasəti və onun nəticələri

*2022-ci ildə pul siyasəti adekvat monetar şərait vasitəsilə inflyasiya təzyiqinin yumşaldılmasına yönəldilmiş, pul siyasəti ilə məcmu tələbin izafi artımı məhdudlaşdırılmışdır. Pul siyasətinin yeni əməliyyat çərçivəsinin tətbiqinə başlanılması ilk dəfə faiz dəhlizinin banklararası bazara təsir göstərməsinə imkan vermişdir.*

Rəsmi statistikaya görə, illik **inflyasiya** 2022-ci ilin noyabrında 15.1% (2022-ci ilin noyabr ayı 2021-ci ilin noyabr ayına nəzərən) təşkil etmiş, orta illik inflyasiya isə 13.8% olmuşdur. Baza inflyasiya[1] noyabrda illik 14.7% təşkil etmişdir. 11 ayda orta illik baza inflyasiya 11.4% olmuşdur.

2022-ci ildə də inflyasiyanın yüksəlməsinə **ərzaq məhsullarının bahalaşması** daha çox təsir göstərmişdir. Noyabrda inflyasiya illik əsasda ərzaq məhsulları üzrə 20.1%, qeyri-ərzaq məhsulları üzrə 12.1%, xidmətlər üzrə 10.7% olmuşdur.

Təhlillər göstərir ki, qiymət artımının birbaşa və dolayı olaraq əhəmiyyətli hissəsi **xarici mənşəli xərc amilləri** ilə bağlıdır. İdxal üzrə illik qiymət indeksinin artımı 10 ayda 22.1% olmuşdur ki, bu da dünya əmtəə qiymətlərinin və daşınma-logistika xərclərinin yüksəlməsi, tərəfdaşlarda inflyasiya templərinin artması ilə izah edilir. Xüsusilə dünya ərzaq qiymətləri idxal vasitəsilə daxili ərzaq inflyasiyasına ciddi təsir göstərmişdir. Valyuta bazarında tarazlıq, nominal effektiv məzənnənin bahalaşması və qəbul edilən pul siyasəti qərarlarının təsiri altında formalaşan monetar şərait inflyasiya təzyiqlərini əhəmiyyətli məhdudlaşdırmışdır.

Faktiki inflyasiyanın dinamikası **inflyasiya gözləntiləri**nə də təsir etmişdir. Dekabr ayında aparılan sorğulara görə, ev təsərrüfatlarının 81.9%-i inflyasiya gözləyir. O cümlədən respondentlərin 22.4%-i inflyasiya tempinin yüksələcəyini düşünür. Real sektor müəssisələri arasında aparılan monitorinqin nəticələrinə görə isə inflyasiya gözləntiləri 11 ayda orta hesabla ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft sənayesində və tikintidə azalmış, ticarət və xidmət sektorunda artmışdır.

Hesabat dövründə tədiyə balansının irihəcmli profisiti **valyuta bazarında tarazlığa** müsbət təsir etmişdir ki, bu da qiymət sabitliyinin başlıca lövbərini - məzənnə sabitliyini dəstəkləmişdir. 2022-ci ilin 11 ayında manatın qeyri-neft ümumi ticarət çəkili nominal effektiv məzənnəsi 7.9% bahalaşmışdır ki, bu da inflyasiyaya məhdudlaşdırıcı təsir etmişdir. Təhlillər göstərir ki, nominal effektiv məzənnənin 10% bahalaşması inflyasiyanı təqribən 3% bəndi azaldır.

2022-ci ildə Mərkəzi Bankın **faiz dəhlizi**nin parametrlərinə dair qərarlar qlobal iqtisadiyyatda proseslər, xarici və daxili risklərin reallaşma səviyyəsi, yenilənmiş proqnozlar nəzərə alınmaqla qəbul edilmişdir. 2022-ci ilin ötən dövründə faiz dəhlizi parametrləri sonuncu dəfə dekabrda olmaqla 9 dəfə müzakirə edilmişdir. İl ərzində uçot dərəcəsinin 7.25%-dən 8.25%-ə, dəhlizin yuxarı həddinin 8.25%-dən 9.25%-ə qaldırılması ilə bağlı qərarlar qəbul edilmişdir. Pul siyasəti alətlərinin yeni konfiqurasiyada tətbiqi ilə bağlı faiz dəhlizinin aşağı həddi 1 sentyabr 2022-ci ildən 6.25%-dən 4%-ə endirilmişdir. Dəhlizin aşağı həddinin azaldılması bank sektorundakı izafi likvidliyin əlverişli şərtlərlə sterilizasiyası və banklararası pul bazarında tarazlı faizlərin formalaşması imkanlarının yaranması baxımından məqsədəuyğun sayılmışdır. Lakin öncədən verilən açıqlamaya uyğun olaraq dəhlizin eninə baxılmış, dəhlizin aşağı həddi oktyabr ayının sonunda 5%-ə, dekabr ayında isə 6.25%-ə qaldırılmışdır.

Mərkəzi Bank öz əməliyyatları ilə dövr ərzində pul təklifinin izafi artımını məhdudlaşdırmağa çalışmışdır. 2022-ci ilin 11 ayında manatla pul bazası 7.3%, manatla geniş pul kütləsi (M2) isə 20% artmışdır.

Hesabat dövründə pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür.

Pul siyasətinin **yeni alətləri**nin tətbiqinə başlanılmışdır. Bu istiqamətdə daimi imkan alətləri işə salınmış və açıq bazar əməliyyatlarının çeşidi artırılmışdır. Daimi imkan aləti olaraq sterilizasiya məqsədilə 1 günlük depozit əməliyyatlarının, likvidliyin verilməsi məqsədilə isə 1 günlük əks-repo əməliyyatlarının tətbiqinə başlanılmışdır. Açıq bazar əməliyyatlarının təkmilləşdirilməsi istiqamətində sterilizasiya məqsədilə zəruri hallarda 1,3,6 və 9 aylıq notlarla yanaşı, 7 günlük repo hərraclarının keçirilməsi məqsədəuyğun sayılmışdır. Likvidliyin verilməsi yönümlü açıq bazar əməliyyatları olaraq 7 günlük əks-repo hərraclarının keçirilməsi nəzərdə tutulur.

Mərkəzi Bankın təklif etdiyi yeni alətlər içərisində **sterilizasiya** yönümlü alətlərə tələbat daha yüksək olmuşdur. Sentyabr-noyabr aylarında 1 günlük depozit əməliyyatlarının orta günlük həcmi 456.6 mln. manat olmuşdur. Mərkəzi Bank 2022-ci ilin oktyabr-noyabr aylarında likvidliyin effektiv idarə olunması məqsədilə müxtəlif müddətli 34 not hərracı keçirmişdir. Ümumilikdə, noyabrın sonuna notlar vasitəsilə sterilizasiya olunmuş vəsaitin toplam qalığı 1170 mln. manat təşkil etmişdir.

Yeni əməliyyat çərçivəsi **gəlirlik əyrisinin formalaşması**na müsbət təsir etmişdir. Noyabrda orta hesabla gəlirlik 28 günlük notlar üzrə 3.62%, 84 günlük notlar üzrə 4.12%, 168 günlük notlar üzrə 4.39%, 252 günlük notlar üzrə 4.78% olmuşdur.

İnfyasiya təzyiqlərinin artdığı şəraitdə pul təklifinin effektiv tənzimlənməsi üçün **məcburi ehtiyat normaları**ndan da daha aktiv istifadə qərara alınmışdır. Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə məcburi ehtiyat norması milli valyutada, həmçinin qiymətli metallarda depozitlər üzrə 4%, xarici valyutada cəlb edilmiş depozitlər üzrə isə 5% müəyyən olunmuşdur. 2022-ci ilin sentyabrından başlayaraq bütün banklar məcburi ehtiyatları yeni normalara uyğun saxlamağa başlamışlar.

*Ardı 9-cu səh.*

[1]Baza inflyasiya dedikdə qiymətləri dövlət tərəfindən tənzimlənən malların və xidmətlərin qiymətlərinin dəyişimindən və mövsümi amillərdən təmizlənmiş inflyasiya nəzərdə tutulur.

# Azərbaycan Respublikası Mərkəzi Bankının 2023-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə BƏYANATI

*Əvvəli 8-ci səh.*

Yeni əməliyyat çərçivəsinin effektiv tətbiqinə şərait yaratmaq üçün banklararası pul bazarının aktivləşdirilməsi istiqamətində də işlər görülmüşdür. Bu məqsədlə **alternativ əməliyyat platforması** təklif olunmuşdur. Manatla banklararası təminatsız kredit əməliyyatlarının "Blumberq" ticarət sistemi vasitəsilə bağlanmasına dair yeni kollektiv saziş qüvvəyə minmişdir.

Görülmüş işlər **banklararası pul bazarında fəallığın** artması ilə müşayiət olunur. "Blumberq" ticarət platformasında banklar arasında sentyabrda 69 ədəd əqd, oktyabrda 146 əqd bağlandığı halda noyabrda bu rəqəm 168-ə yüksəlmişdir. Noyabrda bağlanmış əqdlərin 93.6%-i qısamüddətli (1-3 günlük) olmuşdur. Banklararası REPO bazarında bağlanmış əqdlərin sayı noyabrda 76 olmuşdur ki, bu da əvvəlki ayla müqayisədə 3.6 dəfə çoxdur. Ümumilikdə, sentyabr-noyabr aylarında banklararası əməliyyatların həcmi "Blumberq" ticarət platforması üzrə 3974 mln. manat, REPO üzrə 305 mln. manat olmuşdur.

Görülən tədbirlərin nəticəsi olaraq ilk dəfə **faiz dəhlizinin parametrlərinin banklararası bazarda faizlərə təsiri** müşahidə olunmuşdur. Banklararası təminatsız pul bazarında 1 günlük əməliyyatların orta faizi noyabrda oktyabrla müqayisədə 0.6 faiz bəndi yüksək olmuşdur. Qeyd olunanlar pul siyasəti qərarlarının faiz kanalı ilə transmissiyasının yaxşılaşdığını göstərir.

Ümumilikdə, yeni əməliyyat çərçivəsinin tətbiqi pul siyasətinin alternativ lövbərinin formalaşmasına, **pul siyasətinin transmissiyasında faiz kanalının gücləndirilməsinə** xidmət edir. Yeni alətlərin tətbiqi ilə sterilizasiya əməliyyatlarının aktivləşdirilməsi kredit qoyuluşlarının balanslı artımının təmin edilməsi və ortamüddətli perspektivdə valyuta bazarında tarazlığın dəstəklənməsi baxımından da vacibdir. Eyni zamanda yeni alətlərin tətbiqi və banklararası pul bazarında əməliyyatların aktivləşməsi imkan verəcəkdir ki, banklar zərurət yarandığı təqdirdə qısamüddətli dövrə vəsait cəlb etsinlər. Bu da hesablaşmaların fasiləsizliyini və dayanıqlığını dəstəkləyəcəkdir.

**Pul siyasətinin effektiv kommunikasiyası** hesabat dövründə də diqqətdə saxlanılmışdır. 2022-ci ildə öncədən ictimaiyyətə açıqlanmış qrafikə uyğun olaraq Mərkəzi Bankın siyasət qərarlarına dair press-relizləri müvafiq analitik şərhlərlə dərc edilmiş, mətbuat konfransları keçirilmişdir. Pul siyasəti icmalı rüblük əsasda ictimaiyyətə açıqlanmışdır. Mərkəzi Bankın fəaliyyəti rəsmi internet səhifəsi, habelə yutub, tviter, instaqram, linkdin və feysbuk sosial şəbəkələri vasitəsilə mütəmadi işıqlandırılmışdır. Pul siyasətinin yeni əməliyyat çərçivəsinə keçidlə bağlı xüsusi izahedici sənəd və press-reliz açıqlanmış, bazar iştirakçıları, mətbuat nümayəndələri ilə görüşlər keçirilmişdir. Pul siyasətinə aid məsələlərə dair bir neçə sual-cavab videoları yayımlanmışdır. Müstəqil iqtisadçı ekspertlərlə görüş də keçirilmişdir.

## II. 2023-CÜ İL ÜZRƏ PUL SİYASƏTİ

### 2.1. Makroiqtisadi proqnozlar və gözləntilər

*2023-cü ilin pul siyasətinin əsas istiqamətləri növbəti ilə qlobal iqtisadiyyat və maliyyə bazarları, habelə ölkənin xarici, fiskal və real sektorları üzrə proqnozlar nəzərə alınmaqla işlənmişdir.*

2023-cü ilə **qlobal iqtisadi artıma** dair proqnozlar yüksək qeyri-müəyyənliklər şəraitində formalaşır. Epidemioloji vəziyyətin hələ də kövrək olması və məhdudiyyətlərin bərpası riski, ərzaq və enerji qiymətlərində yüksək dəyişkənlik, inflyasiyanın qarşısını almaq üçün mərkəzi banklar tərəfindən həyata keçirilən sərtləşdirici siyasət, ölkələrin yüksək borclanma səviyyəsi, təchizat zəncirində problemlər və geosiyasi gərginliyin davam etməsi qlobal iqtisadi artım gözləntilərinə mənfi təsir göstərir. BVF-nin oktyabr hesabatına əsasən, qlobal iqtisadiyyatın 2023-cü ildə 2.7% artacağı proqnozlaşdırılır ki, bu da daha öncəki proqnozdan 0.2 faiz bəndi azdır. Hesabatda iqtisadi artımın inkişaf etmiş ölkələrdə 1.1%, inkişaf etməkdə olan ölkələrdə isə 3.7% olacağı proqnozlaşdırılır. Bəzi analitik mərkəzlər hətta ABŞ və avrozonada resessiya ehtimalının əhəmiyyətli olduğunu bildirirlər.

Geosiyasi gərginlik fonunda növbəti ildə də **qlobal əmtəə qiymətlərinin** dinamikası dünya ölkələrində inflyasiya proseslərinə təsir göstərən əsas amillərdən biri olacaqdır. Beynəlxalq təşkilatların son hesabatlarına əsasən, qlobal iqtisadi artımın zəifləməsi dünya əmtəə qiymətlərindəki artımın 2023-cü ilin sonlarına doğru nisbətən səngiyəcəyini gözləməyə imkan verir. Bu da ayrı-ayrı ölkələrdə inflyasiyanın tədricən azalmasına təsir edə bilər. BVF-nin son proqnozlarına görə, 2023-cü ildə dünyada inflyasiya orta hesabla 6.5% olacaqdır ki, bu da 2022-ci ildəkindən 2.3 faiz bəndi aşağıdır. Bununla belə qeyd olunan amillərin qaldığı şəraitdə inflyasiyanın yalnız 2024-cü ildə mərkəzi bankların hədəf dairəsinə geri dönəcəyi proqnozlaşdırılır. Dünyadakı geosiyasi vəziyyət yüksək qeyri-müəyyənlik yaratmaqla inflyasiyanın proqnozdan kənarlaşma riskinin qalmasına gətirib çıxarır.

İqtisadi artımın zəifləməsi **qlobal ticarətin** dinamikasına da təsir edəcəkdir. Son proqnozlara görə, dünya ticarətinin 2023-cü ildə 2.5% artacağı gözlənilir ki, bu da daha öncə verilmiş proqnozdan 0.7 faiz bəndi azdır. Dünya ticarətinin dinamikasına qlobal borc yükünün həddindən artıq şişməsi, inkişaf etmiş ölkələrdə faizlərin yüksəlməsi, dünya ticarətində dominant rola malik olan dolların bahalaşması əhəmiyyətli təsir edəcəkdir.

**Neftin dünya qiyməti** növbəti ildə də qlobal iqtisadi aktivlik, geosiyasi amillər və OPEC++ çərçivəsində qəbul edilən qərarların təsiri altında formalaşacaqdır. Başlıca analitik mərkəzlərin proqnozları əsasında (BVF, Dünya Bankı, ABŞ Enerji Agentliyi, Standard Chartered, Fitch, Barclays və s) 2023-cü ilə konsensus qiymət 1 barelə görə 92 ABŞ dolları, o cümlədən BVF tərəfindən 85.5 ABŞ dolları səviyyəsində qiymətləndirilir. Ümumilikdə 2023-cü ildə iqtisadi artımın zəifləməsi fonunda dünyada neftə tələbin stabilləşəcəyi proqnozlaşdırılır.

Azərbaycan iqtisadiyyatının fəaliyyət mühitinin yüksək dəyişkənliyini nəzərə alaraq, Mərkəzi Bank 2023-cü ildə də makroiqtisadi proqnozları müxtəlif ssenarilər üzrə müntəzəm yeniləyəcəkdir.

2023-cü ildə əsas ixrac məhsulları üzrə dünya qiymətləri, ticarət tərəfdaşlarında makroiqtisadi durum, qeyri-neft məhsul və xidmət ixracı potensialının reallaşması Azərbaycanın **tədiyə balansına** təsir göstərən əsas amillər olacaqdır. Qiymətləndirmələrə görə, 2023-cü ildə də tədiyə balansının cari əməliyyatlar hesabında profisit gözlənilir. İxracın strukturunun diversifikasiyası cari hesabı balanslaşdıran neft qiymətinin rolunun azalmasına səbəb olur.

2023-cü ildə də **dövlət tələbi** iqtisadi aktivliyin dəstəklənməsində mühüm rol oynayacaqdır. 2023-cü ildə dövlət büdcə xərclərinin ÜDM-ə nisbətinin 30%-i üstələyəcəyi gözlənilir. Növbəti ildə büdcə qaydasının tətbiqinin davam etdirilməsi ilə qeyri-neft fiskal kəsrin və borclanmanın azaldılması strategiyasının həyata keçirilməsi uzunmüddətli fiskal dayanıqlığın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

### 2.2. 2023-cü il üzrə pul siyasətinin başlıca istiqamətləri

*2023-cü ildə Mərkəzi Bankın pul siyasəti qiymət sabitliyinin təmin olunmasına yönəldiləcəkdir. Pul siyasəti ilə bağlı qərarlar illik inflyasiya göstəricilərinin dinamikasından və yenilənmiş proqnozların hədəf diapazonundan kənarlaşmasından asılı olaraq veriləcəkdir. Növbəti ildə də pul siyasətinin strateji və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi istiqamətində islahatlar davam etdiriləcəkdir.*

**Pul siyasətinin məqsədi** növbəti ildə də qiymət sabitliyinin təmin olunması olacaqdır. İnflyasiya hədəfi üzrə kəmiyyət parametrləri dəyişməz saxlanılır. Mövcud monetar şəraitin saxlanılması 2023-cü ildə illik inflyasiya göstəricilərinin dinamikasından və yenilənmiş proqnozların hədəf diapazonundan kənarlaşma səviyyəsindən asılı olacaqdır. İllik inflyasiya göstəricilərinin və proqnozlarının hədəfə yaxınlaşması baş verərsə, ilk olaraq monetar şəraitin dəyişilməz saxlanılması, sonrakı mərhələdə isə onun yumşaldılması imkanları nəzərdən keçiriləcəkdir.

Xarici mühitlə bağlı yüksək qeyri-müəyyənliklər növbəti ilə **inflyasiyanın proqnozlaşdırılması**nı çətinləşdirir. Növbəti ildə də dünya bazarında birja əmtəələrinin qiymətlərinin dinamikası, tərəfdaş ölkələrdə inflyasiya prosesləri və daşınma xərcləri ölkədəki inflyasiya proseslərinə təsir göstərəcəkdir. Ortamüddətli dövrdə inflyasiyanın xarici amillərinin səngiməsi və hökumətlə birlikdə həyata keçirilən antiinflyasiya tədbirləri nəticəsində inflyasiyanın tədricən hədəf diapazonuna doğru hərəkət edəcəyi proqnozlaşdırılır. Artmaqda davam edən inflyasiya təzyiqlərinin inersiyası nəzərə alınmaqla onun azalması tədricən baş verəcəkdir və bu proses gözlənildiyindən daha uzun çəkə bilər.

Pul siyasəti yürüdülərkən inflyasiya proseslərinə **məzənnənin ötürücülük potensialı** 2023-cü ildə də nəzərə alınacaqdır.

Növbəti ildə də **faiz dəhlizi parametrlərinə** dair qərarlar yenilənmiş makroiqtisadi proqnozlar, xarici və daxili amillərin inflyasiyaya təsirləri, inflyasiya gözləntiləri və risk balansının dəyişimi nəzərə alınmaqla qəbul ediləcəkdir. Əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də faiz dəhlizinin Mərkəzi Bankın İdarə Heyətində öncədən ictimaiyyətə açıqlanmış qrafikə (əlavə olunur) uyğun müzakirəsi nəzərdə tutulur. Faiz dəhlizi banklararası qısamüddətli pul bazarında vəsaitlərin yerləşdirilməsi və cəlb edilməsinin alternativ dəyəri kimi istifadə ediləcəkdir.

Pul siyasətinin inflyasiyaya zaman intervalı ilə təsirini nəzərə alaraq, Mərkəzi Bank pul siyasətinə dair qərarları proqnoz inflyasiyanın hədəfdən ortamüddətli kənarlaşma səviyyəsindən asılı olaraq qəbul edəcəkdir. Bu zaman faiz, kredit və gözlənti kimi transmissiya kanallarının təsir gücü nəzərə alınacaqdır.

**Pul siyasətinin əməliyyat hədəfi** olaraq pul bazarında qısamüddətli faizlərin Mərkəzi Bankın faiz dəhlizinə yaxınlaşması üçün 2023-cü ildə Mərkəzi Bank arsenalındakı bütün alətlərdən adekvat istifadə edəcəkdir. Likvidliyin idarə edilməsində məcburi ehtiyatlardan, daimi imkan alətlərindən və açıq bazar əməliyyatlarından istifadə ediləcəkdir. Alətlərin kəmiyyət parametrlərinə və müddətinə dair qərarlar bank sisteminin likvidlik mövqeyindən asılı olaraq operativ şəkildə veriləcəkdir.

Pul siyasətinin təkmilləşdirilməsi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planına uyğun olaraq **"İnflyasiya hədəflənməsi rejimi**nə keçidin baza şərtlərinin formalaşdırılması" çərçivəsində həyata keçiriləcəkdir. Ölkədə valyuta bazarında təklif kanallarının şaxələndirilməsi, maliyyə sektorunun dərinliyinin artırılması, nağd-kölgə iqtisadiyyatının məhdudlaşdırılması və makroiqtisadi koordinasiyanın effektivliyinin gücləndirilməsi inflyasiyanın hədəflənməsi rejiminə keçidə şərait yaradacaqdır.

Yeni rejimə keçidin baza şərtlərinin formalaşdırılması istiqamətində Mərkəzi Bank tərəfindən pul siyasəti alətlərinin və pul bazarının infrastrukturunun təkmilləşdirilməsi davam etdiriləcəkdir. Mərkəzi Bankın faiz dəhlizinin effektivliyinin artırılması, o cümlədən banklararası pul bazarında qısamüddətli faizlərin dəhlizin aşağı həddinə yaxın idarə olunması imkanlarına baxılacaqdır. Mərkəzi Bankda təhlil və proqnozların hazırlanması üçün modellərin modernləşdirilməsi, proqnoz göstəricilərinin çeşidinin genişləndirilməsi xüsusi diqqətdə saxlanılacaqdır. Pul siyasətinin kommunikasiyasının əhatə dairəsinin genişləndirilməsi və aydın olmasını təmin etmək üçün daim işlər aparılacaqdır. **Pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi** istiqamətində Mərkəzi Bank bank ictimaiyyəti, maliyyə bazarlarının peşəkar iştirakçıları və müstəqil ekspertlər ilə aktiv dialoqu davam etdirəcəkdir. Yeni bank qanunvericiliyinin qəbul edilməsi Mərkəzi Bankın mandatının effektiv həyata keçirilməsinə zəruri dəstək verəcəkdir.

İnflyasiyanın hədəflənməsi rejiminə keçid istiqamətində görülən işlər tədricən inflyasiya proseslərinin faiz dərəcələri vasitəsilə idarə edilməsinə imkan verəcəkdir.

İnflyasiyanın hədəf çərçivəsində idarə edilməsi əhəmiyyətli dərəcədə makroiqtisadi siyasət institutları arasındakı **koordinasiya**nın effektivliyindən asılı olacaqdır. İnflyasiyaya qeyri-monetar faktorların təsir potensialını nəzərə almaqla iqtisadi siyasətin bütün istiqamətləri, xüsusilə fiskal və monetar siyasət arasında koordinasiyanın gücləndirilməsi təşəbbüsləri davam etdiriləcəkdir. Qəbul edilmiş strategiyaya uyğun olaraq ölkədə həyata keçirilən struktur-institusional islahatlar rəqabət mühitini yaxşılaşdırmaqla inflyasiya təzyiqlərinin yumşaldılmasına da təsir etməlidir.

### Pul siyasəti qərarlarının ictimaiyyətə açıqlanması qrafiki

2023-cü ildə faiz dəhlizinin parametrlərinə dair qərarlar 8 dəfə olmaqla aşağıdakı qrafiklə ictimaiyyətə təqdim ediləcəkdir:

| | |
|---|---|
| 1 | fevral |
| 29 | mart |
| 3 | may |
| 21 | iyun |
| 26 | iyul |
| 20 | sentyabr |
| 1 | noyabr |
| 20 | dekabr |

Qeyd olunan tarixlərdən 1 fevral, 3 may, 26 iyul və 1 noyabr tarixlərində qərarın açıqlanması mətbuat konfransı ilə müşayiət olunacaqdır.

# Gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız əzəli torpaqlarına qayıdacaqlar

## Tarixi ərazilərimizin bərpasına xidmət edən konsepsiya

**Dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olduqdan sonra bir qrup ziyalı ilə görüşü tarixi bir gün olaraq xalqımızın yaddaşında əbədi yaşayacaqdır. Vətən təəssübkeşləri, Azərbaycansevərlər, deportasiyaya məruz qalan və qaçqın həyatı yaşayan soydaşlarımız bəlkə də illərlə, aylarla belə bir günün həsrətində olublar.**

Dövlət başçımız Qərbi Azərbaycandan olan ziyalılarla görüşündə çox dəyərli çıxışında vaxtı ilə bir neçə yerə parçalanmış Azərbaycanın bütövlüyünə doğru uzanan yolun istiqamətlərini müəyyənləşdirdi, qaranlıq səmtlərinə işıq saldı, dədə-baba torpaqlarımıza qarşı ədalətsizlikdə xalqımızın qeyrət damarını tərpətdi. Prezidentin çıxışındakı hər bir cümlə həm icmanın İdarə Heyətinin üzvləri, həm də bütün ictimaiyyət üçün yol xəritəsi oldu. Bu yol xəritəsi yeni tarixi mərhələdə qarşıda duran strateji vəzifələrə həsr edilmiş konseptual mahiyyətli, proqram xarakterli müddəalarla zəngin olmaqla Azərbaycanın itirilmiş torpaqlarının bərpası üçün cəmiyyəti yeni hədəflərə səfərbər etmək baxımından böyük dəyərə malikdir.

Hər ötən ay, il tarixə çevrildikcə baş vermiş hadisələr tədqiqatçıların araşdırmalarında daha aydın görünməyə başlayır. XX əsrin əvvəllərində rus imperiyasının dirənişi ilə xalqımızın milli, ictimai, siyasi və mədəni mərkəzlərindən olan İrəvanda Ermənistan adlı bir dövlətin yaradılmasına qərar verilməsi, Prezident İlham Əliyevin də dediyi kimi, xəyanətdən ibarət olan cinayət idi. Sovet imperiyası və erməni daşnaklar milli dövlət fədailərimizi yalan vədlərlə aldadaraq cinayətə sürükləyiblər. O vaxtdan bu günədək xalqımız bir əsrdən artıqdır ki, öz potensialını həm də Ermənistan adlı uydurma dövlətin ölkəmizə qarşı apardığı düşmən siyasətini, ərazilərimizin ilhaqını və milli varlığımıza təcavüzünü dəf etməyə çalışır.

Ölkə Prezidentinin çıxışında toxunduğu digər mühüm məsələ Ermənistan-Azərbaycan münasibətlərinə dünyanın aparıcı dövlətlərinin ikili standartlara əsaslanan yanaşmaları ilə bağlıdır. Yəni bir tərəfdən beynəlxalq müstəvidə guya müsəlman ölkələri ilə əhatə olunan və "təhdidlərə" məruz qalan "zavallı" erməni xalqını himayə etmək siyasəti aparılsa da, digər tərəfdən əsas strateji hədəf Ermənistanın Azərbaycan torpaqlarının işğalını ört-basdır etməklə onu regionun dağıdıcı gücünə çevirmək kimi çirkin niyyətidir. Ona görə də Qərbi Azərbaycan məsələsi bizim üçün regional yox, milli mücadiləmizin beynəlxalq mahiyyət daşıyan aparıcı tərkib hissəsinə çevrilməlidir.

Dövlət başçısı nitqində sentyabr toqquşmalarının bizim üçün dəyərinə toxunaraq Azərbaycanı daim təhdid altında saxlamaq niyyətindən əl çəkməyən Ermənistanın revanş götürmək cəhdlərini cilovlamaq baxımından çox mühüm əhəmiyyətini açıqladı. Dövlət başçısı haqlı olaraq qətiyyətlə bildirdi ki, indi biz Ermənistanla bütün sərhədboyu strateji yüksəkliklərə tam nəzarət edirik.

Cənab Prezidentin çıxışının ən maraqlı məqamlarından biri də elmi tədqiqata cəlb edilməli olan İrəvanın tarixi mərkəzi ilə bağlıdır. Dünyada mərkəzi şəhərlər tarixi-milli kimliklərini əks etdirən ünvanlara malikdirlər. Bu, İrəvanda yoxdur. Niyə? Çünki onu dağıdıblar. Niyə? Çünki həmin mərkəz azərbaycanlıların milli simvolundan ibarət idi. Odur ki, Ermənistan reallığını əks etdirmədiyindən onu Yer üzərindən siliblər.

Görüşdə dövlətimizin başçısı tariximizin qara səhifələrinin unudulmamasını da tövsiyə etdi və onları incəliklə vərəqlədi. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiyasını xalqımıza qarşı növbəti cinayət kimi qiymətləndirdi. Özü də o xalqa ki İkinci Dünya müharibəsində Sovet İttifaqının qələbəsini Azərbaycan nefti təmin etmişdi. 1987-ci ilin payızında Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra Moskvanın himayədarlığı ilə erməni millətçiliyi yenidən baş qaldırdı. Qarabağın və Şərqi Zəngəzurun işğalı ilə 30 il ərzində növbəti faciələrimizi yaşadıq. Ermənistandan, azərbaycanlıların öz dədə-baba yurdlarından didərgin salındığı dövrdə Azərbaycanda olan siyasi hakimiyyət nəinki bu məsələyə həssaslıqla yanaşdı, əksinə, qaçqınların öz iqlim şəraitlərinə uyğun olan yerlərdə, xüsusilə Qarabağın dağlıq hissələrində məskunlaşmalarına belə mane oldular. Uzun müddət Ermənistandan qaçqın düşən insanlarımız həmin dövrün siyasi hakimiyyətindən ögey münasibətlər gördü. Yalnız Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra deportasiya olunmuş azərbaycanlılara diqqət və qayğı göstərilib.

Azərbaycan xalqına qarşı ermənilərin dəfələrlə törətmiş olduğu və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış deportasiya və soyqırımı faktları da tariximizin açılmamış səhifələrindən biri idi. Təəssüf ki, tarixboyu azərbaycanlılara qarşı soyqırımına lazımi səviyyədə siyasi-hüquqi qiymət verilməmişdir. Ulu Öndərin ən böyük xidmətlərindən biri xalqımız üçün tarixi və taleyüklü məsələyə - ermənilərin xalqımıza qarşı təxminən iki əsrə yaxın davam etmiş və ərazi iddiaları ilə həyata keçirdiyi soyqırımı faktlarına münasibəti məsələsidir. Tarixi cinayət kimi qiymətləndirilən bu faciəyə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə Ulu Öndər Heydər Əliyev 18 dekabr 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzalamışdır. Xüsusilə Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman gələcək nəsillərin tarixi hadisələri unutmaması, keçmişimizin xatırlanması üçün çox mühüm bir sənəddir.

Azərbaycan xalqının təxminən son otuz illik tarixinin elə bir səhifəsi yoxdur ki, orada Heydər Əliyevin imzası olmasın. Tarixi ərazilərimizdə dövlətçiliyin müasir mərhələsinin yaradılması, vətəndaş cəmiyyəti quruculuğu birbaşa Ulu Öndərin adı ilə bağlıdır. Ümumiyyətlə, ölkəmizdə azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya məsələlərinin ətraflı şəkildə öyrənilməsi və tədqiqi, onun xalqımıza və dünya xalqlarına çatdırılması sahəsində iş yalnız Ulu Öndərin adını qeyd



etdiyimiz fərmanlarından sonra sistemli şəkil almış və ilbəil daha da mütəşəkkil surətdə təşkil olunmuşdur. Zəngin dövləti idarəetmə təcrübəsinə malik Heydər Əliyevin bu siyasi kursu 19 ildir ki, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Cənab Prezidentin çıxışında ən mühüm məsələlərdən biri də Qərbi Azərbaycan həqiqətləri ilə bağlı araşdırmaların yeni yanaşmalarla yazılmasını ehtiva edir. Buraya sanballı tədqiqatlarla bərabər, həm də vaxtilə yazılmış kitabların tarixi reallıqlara uyğun yenilənməsinin vacibliyi də aiddir. İndi fərdi qaydada atılan ciddi addımlara dövlət dəstəyi getdikcə daha çox hiss edilməlidir. Bu məqsədlə ənənəvi beynəlxalq elmi konfransların təşkilinə üstünlük verilməlidir ki, mövzu daim özünün strateji əhəmiyyətini qoruya bilsin.

Prezidentin məxsusi qeyd etdiyi istiqamətlərdən biri də Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması və həyata keçirilməsi ilə bağlı idi. Prezidentin qayıdış anonsu, önəmli mesajları bizi çox ümidləndirdi. Dövlət başçısı vurğuladı ki, biz Ermənistana qarşı ərazi iddiası qaldırmırıq, bizim məqsədimiz sadəcə sülh yolu ilə torpaqlarımıza qayıtmaqdır.

Bu konsepsiya aparılan rəsmi və ictimai fəaliyyətimizin zirvəsini təşkil etməklə ümumazərbaycan hərəkatını XXI əsrə uğurla daşımağın vəsiləsidir. Yeri gəlmişkən, dövlət başçısının Ermənistanda depopulyasiya dövrünün yaşanması ilə bağlı fikri də çox aktualdır. Necə olur ki, oralardan deportasiya edilmiş azərbaycanlıların yaşadığı ərazilərdə bu gün canlı həyat yoxdur. Çünki ermənilər o torpaqlar üçün yaddırlar, oranın coğrafi şəraitində yaşamağa hazır deyillər. Əslində, bütün Ermənistan onlar üçün yad olduğuna görə, məqam düşən kimi oralardan başqa ölkələrə qaçırlar. Deməli, böyük güclərin əsas məqsədi ermənilərin oralarda gələcəkdə də təhdid faktoru olmasını təmin etmək, erməniləri burada hər vasitə ilə saxlamaqdır. Bu məkrli siyasətə mane olmaq baxımından da Qərbi Azərbaycana Qayıdış milli çağırışdır.

Prezident İlham Əliyev çıxışında bildirdi ki, "...Məncə bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik. Bu, çox sanballı sənəd olmalıdır. Əlbəttə ki, mütləq digər təkliflər də olacaq".

Xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinə, sözünün bütövlüyünə inanır və güvənir. Odur ki, Qərbi azərbaycanlılar da haçansa öz doğma torpaqlarına mütləq qayıdacaqlarına tam əmindirlər. Çünki bunu Prezident İlham Əliyev deyib: "Gün gələcək Qərbi azərbaycanlılar tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar".

Bəli, gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız, onların nəvələri, nəticələri tarixi torpaqlarımız olan İrəvana, Göyçəyə, Zəngəzura, Ağbabaya qayıdacaqlar. Bu, onların, bütövlükdə xalqımızın halal haqqıdır. Nəzərə almaq lazımdır ki, öz torpağına, elinə-obasına bağlı olan Azərbaycan xalqı üçün tarixi torpaqlarına qayıdış ən ümdə məsələlərdəndir.

Cənab Prezidentin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşünü və ölkə rəhbərinin dərin məzmunlu çıxışını televiziya ekranlarında izləyənlər, kütləvi informasiya vasitələrindən oxuyanlar qarşıya qoyulan məsələlərdən qürur hissi keçirirlər. Bununla əlaqədar Nəsimi Rayon İcra Hakimiyyətində, habelə rayon Ağsaqqallar Şurasında ictimaiyyətin nümayəndələri xüsusilə Qərbi Azərbaycan əsilli soydaşlarımızın iştirakı ilə geniş tərkibdə yığıncaq keçirməyi, Prezidentin nitqindən irəli gələn tövsiyələri yüksək səviyyədə yerinə yetirməyi qərara almışıq.

Qərbi Azərbaycandan olan ziyalılar bundan sonra da Zəngəzurun, İrəvanın Azərbaycanın əzəli ərazisi olduğunu bütün dünyaya çatdıracaqlar. Bu, cənab Prezident tərəfindən biz ziyalılar qarşısında qoyulmuş çox mühüm tapşırıqdır. Biz Qərbi Azərbaycanın mədəniyyətini dünyaya tanıtmaq üçün aktiv işlər görəcəyik. Qarabağ müharibəsindən öncə birinci xanım Mehriban Əliyeva Qarabağ mədəniyyətini bütün dünyaya tanıtdı. Bütün dünya xarıbülbülü Qarabağın simvolu kimi tanıdı. İndi də eyni yolla gedəcəyik.

Prezident çıxışında Qərbi Azərbaycan İcmasının yol xəritəsini detallı şəkildə müəyyən etdi. Dövlət başçısı tapşırıqlarını verdi ki, bu icma həm ölkə daxilində, həm də xaricdə, beynəlxalq təşkilatlarda böyük əks-səda doğuracaq layihələr həyata keçirməlidir. Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Azərbaycana qarşı tarixi ədalətsizliyə son qoymalıyıq. Azərbaycan xalqı bu istiqamətdə iki il bundan öncə böyük Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsində yenilməzliyini göstərib.

Prezidentimizin uzaqgörən siyasəti nəticəsində qarşıya qoyulan müqəddəs vəzifələr yüksək səviyyədə yerinə yetiriləcək, İrəvana və Zəngəzura qayıdış reallaşacaqdır. Biz hamımız bu məqsəd uğrunda var gücümüzlə çalışacağıq və yaxın illərdə Qərbi Azərbaycanda da xalqımızın itirilmiş hüquqlarının bərpasına nail olacağıq.

***Vaqif ŞADLİNSKİ,***
***Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini***

## Tarixi torpaqlara dönüş

### Qərbi azərbaycanlıların da hüquqları bərpa ediləcək

**44 günlük Vətən müharibəsindəki qələbədən sonra Böyük qayıdış proqramının qısa zamanda həyata keçirilməsi üçün misli görünməmiş tikinti-quruculuq işlərinə başlanılıb. Artıq Zəngilanın Ağalı kəndinə əhalinin mərhələli şəkildə köçürülməsinə başlanılıb və proses davam edəcək.**





### Tarix silinmir, o özü hər şeyi deyir

Bu, xalqımızın tarixi torpaqlarımıza dönüşünün başlanğıcıdır. Artıq Azərbaycan xalqı Qarabağa qayıtmağa başlayıb. Sahibləri öz torpaqlarına geri dönürlər. İndi gündəmdə tarixi torpağımız olan Qərbi Azərbaycana dönüşdü. Çünki Qərbi Azərbaycan da tarixi Azərbaycan torpağıdır. Bunu tarixi faktlar, sənədlər də sübut edir.

İndiki Ermənistan ərazisi vaxtilə soydaşlarımızın yaşadığı ərazilər olub. Oradakı şəhər və kəndlərin adından da bunu görmək mümkündür.

Dövlətin prioritet istiqamət kimi müəyyənləşdirdiyi Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiyası artıq prioritet məsələdir. Dövlət başçısının da dediyi kimi, bu istiqamətdə Qərbi Azərbaycan İcması da müəyyən işlər görməlidir. Qərbi Azərbaycan İcmasının binasının açılışında çıxış edən dövlət başçısı vurğulayıb ki, bu yer icma üçün təsadüfən seçilməyib. Bunun rəmzi mənası var. Həmin binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da öz əzəli torpaqlarına qayıdacaqlar.

Azərbaycan Prezidentinin sözü imzası qədər keçərlidir. Dövlət başçısı dediyi bütün sözləri, vədləri gerçəkliyə çevirir. Necə ki İlham Əliyev məcburi köçkün olan soydaşlarımızın tezliklə öz dədə-baba torpaqlarına qayıdacaqlarını söyləyib onu gerçəkliyə çevirmişdir, Qərbi azərbaycanlılara da çox keçmədən bu sevinci yaşadacağı qaçılmazdır.

### Qərbi azərbaycanlılar heç vaxt inamlarını itirməməlidirlər

Milli Məclisin deputatı Ceyhun Məmmədov qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşdə bir çox vacib məqama toxunub.

Deputat Prezidentin "Gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar, necə ki, bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan torpaqlara geri dönüblər" sözlərini xatırladaraq bildirdi ki, onları oraya getməyə vadar edən torpaq həsrəti və Vətən sevgisidir.

Ceyhun Məmmədov Prezident İlham Əliyevin 11 il öncə öz ad günündə Ağcabədidə məcburi köçkünlərlə görüşünü, oradakı çıxışını da yada saldı: "Gün gələcək, siz məni öz doğma diyarınızda qəbul edəcəksiniz, mən sizin diyarınıza qonaq gələcəyəm".

Deputatın sözlərinə görə, həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində o gün gəldi, insanlarımız öz doğma yurdlarına qayıtdılar. Ona görə Qərbi azərbaycanlılar da heç vaxt tarixi torpaqlarına qayıtmaq inamlarını itirməməlidirlər: "Gün gələcək, biz Qərbi Azərbaycanda bu günü xatırlayacağıq".

Ceyhun Məmmədov bildirir ki, Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə köçürülməyə məruz qalıblar: "Vaxt gələcək, onların hüquqları bərpa ediləcək və həmin soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Əsas məsələ ondadır ki, biz inamımızı itirmirik. Biz Ali Baş Komandanımız İlham Əliyevin yürütdüyü siyasət nəticəsində buna nail olacağımıza əminik.





Tarixdən hər kəsə məlum olduğu kimi, Qərbi Azərbaycan bizim əzəli torpağımızdır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsi Azərbaycandan qoparılaraq Ermənistana verilib.

Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, 1920-ci illərdə sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız olan Qərbi Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlərboyu yaşayıb və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri Azərbaycan xalqına məxsus olub.

### Mərhələli şəkildə nələr etməli olduğumuz müəyyənləşdirilməlidir

Milli Məclisin deputatı, Vəhdət Partiyasının sədri Tahir Kərimli isə qeyd edir ki, Prezident İlham Əliyevin öz doğum günündə Qərbi Azərbaycan İcması ilə görüşü və orada çıxışı həm də bir yol xəritəsidir. O, dövlət başçısının Qayıdış Konsepsiyasının hazırlanmasının lazım olduğunu dediyini xatırladaraq bildirir ki, dövlət başçısı onun istiqamətlərini də müəyyən edib: `"Qayıdış Konsepsiyasını ortaya qoyarkən burada heç də tarixi Azərbaycan torpaqlarının hərbi yolla alınması nəzərdə tutulmur. Öz ərazi bütövlüyümüzü tanıyırıqsa, başqa dövlətlərin də suverenliyini qəbul edirik. Burada məsələ paralel qoyulur. Əgər ermənilərin Azərbaycanda yaşamaq haqları varsa, nə üçün azərbaycanlıların da öz tarixi torpaqlarında yaşamaq hüququ olmasın? Tarixi aspektdə kifayət qədər sənədlərimiz mövcuddur, xəritələr, bu istiqamətdə ciddi əsərlər, yazışmalar var. İrəvanın işğal edilməsi, onun Azərbaycan şəhəri olması şəkillərdə, sənədlərdə görünür".

Deputat deyir ki, tarix Azərbaycanın tərəfindədir. İrəvan, Göyçə, Zəngibasar və digərləri bizim torpaqlarımız olub: "Vətənimizdə yaşamaq hüququndan niyə məhrum edilməliyik? Halbuki Qarabağa ermənilər sonradan gəliblər, hətta gəlmələrinin 150 illiyini də qeyd ediblər".

Tahir Kərimli qeyd edir ki, ümumiyyətlə, ermənilər 200 il bundan əvvəl Eçmiədzini ( Üçkilsə) çıxmaq şərtilə, Qarabağda, Azərbaycanın heç bir ərazisində yaşamayıblar.

Deputat hesab edir ki, Qayıdış Konsepsiyasında mərhələli şəkildə nələr etməli olduğumuz müəyyənləşdirilməlidir. Belə ki, məsələni beynəlxalq instansiyalarda qaldırmalı, Ermənistan dövlətinə notalar verməli, tələblər qoymalıyıq. Ciddi işlər görmək lazımdır. Orada yaşayan soydaşlarımız Qərbi Azərbaycandan qovulub, bir neçə dəfə deportasiya olunublar. Məsələn, 1947-1953-cü illər deportasiyasına hansı don geydirmək olar? Çeçenlər, inquşlar deportasiya olunsa da, sonradan öz vətənlərinə qayıdıblar, amma azərbaycanlılar bu hüquqlarından məhrum ediliblər. Bütün bunlar ortadadır və proqramda nəzərə alınmalıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Sərdar ÜNSAL: "Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı çağırışları qəlbimizin səsidir"

**"Prezident İlham Əliyevin bütün fəaliyyətini diqqətlə izləyir, dəstəkləyir və hər addımda həmrəy olmaqdan şərəf duyuruq. Azərbaycan dövlət başçısının Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə etdiyi çağırışlar qəlbimizin səsdir. Ermənistanı müxtəlif illərdə məcburən tərk edib Türkiyədə məskunlaşan soydaşlarımız da bu mübarizədə sonadək Azərbaycanın yanındadırlar".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının sədr müavini, İğdır Azərbaycan Evi Dərnəyinin rəhbəri, saxta "erməni məsələsi" üzrə tədqiqatçı-yazar Sərdar Ünsal ifadə edib.

Əslən İrəvandan olan soydaşımız Sərdar Ünsal deyib: "Birinci Dünya savaşının sonlarında bütün bölgəmizə qan davası gətirən erməni silahlı birləşmələri, sonrakı illərdə isə təcavüzkar Ermənistan zaman-zaman, bütün siyasi şəraitlərdə fərqli formada xalqımıza qarşı bəşəri cinayətlər törədib. İşğalçı dövlətin etnik təmizləmə siyasəti nəticəsində dədə-baba yurdunu tərk edən soydaşlarımız Anadolunun dörd bir tərəfinə, buradan da Avropa ölkələrinə səpələniblər. Təxminən yüz ili aşan bu zaman kəsiyində ilk dəfədir ki, bu acı gerçəklər rəsmi qaydada dünya ictimaiyyətinin diqqətinə çatdırılır".

Dədə-baba yurdlarına qayıtmaq, haqq səsini bütün dünyaya çatdırmaq məsələsində Qərbi Azərbaycandan olan soydaşlarımızla birlikdə mübarizə aparacaqlarını diqqətə çatdıran Sərdar Ünsal məlumat verib ki, onun doğmaları erməni silahlı quldur dəstələrinin basqılarına davam gətirə bilməyərək 1920-ci ildə İrəvan şəhərindəki Təpəbaşı məhəlləsində yerləşən dədə-baba yurdlarını tərk ediblər. Doğmalarından ona acılı-şirinli çoxlu xatirələr qalıb.

Xatırladaq ki, tədqiqatçı-yazar Sərdar Ünsalın qələmə aldığı "Ürəyim İrəvanda qaldı" romanı saxta "erməni məsələsi" mövzusunda Türkiyədə böyük əks-səda verən əsərlər sırasındadır.

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Milli mübarizənin təntənəsi

### Vətəndaş cəmiyyəti fəallarının etirazı müsbət nəticə verdi




**Dekabrın 12-dən vətəndaş cəmiyyətimizin üzvlərinin, ekofəalların, gənclərin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonunda Azərbaycanın təbii sərvətlərinin talanmasına, ekologiyasına terror həyata keçirilməsinə qarşı Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası uğurlu nəticəsini verməyə başlayıb.**

İctimaiyyət nümayəndələrinin separatçı rejim tərəfindən faydalı qazıntı yataqlarımızın, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismar edilməsinə, Azərbaycanın sərvətlərinin talanmasına qarşı günlərdir apardığı mübarizə sayəsində tələbləri yerinə yetirilməyə başlanıb, ölkəmizin Qarabağ bölgəsində qızıl və mis-molibden yataqlarının qanunsuz istismarına son qoyulub.

Bir sözlə, Azərbaycanın vətəndaş cəmiyyətinin haqlı tələbləri təmin edilib.

### Qarabağda qanunsuz istismarla məşğul olan şirkət fəaliyyətini dayandırıb

Artıq Azərbaycanın Qarabağ bölgəsində qızıl və mis-molibden yataqlarını qanunsuz istismar edən "Base Metals" şirkəti fəaliyyətini dayandırıb.

Bununla bağlı yayılan məlumatda azərbaycanlı ekoaktivistlərin Laçın-Xankəndi yolunda keçirdiyi aksiya ilə əlaqədar şirkət rəhbərliyinin mədən fəaliyyətlərini müvəqqəti dayandırdığı və ekoloji ekspertizanın keçirilməsi üçün beynəlxalq təşkilatlara müraciət etmək qərarına gəldiyi bildirilib.

Qeyd olunub ki, BMT-nin müvafiq strukturlarına və digər aidiyyəti təşkilatlara qısa müddətdə ekspertizanın təşkil edilməsi üçün müraciət edilib.

Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarını həyata keçirən "Base Metals" şirkəti ermənilərin "Vallex Group" konqlomeratının törəməsidir, Lixtenşteyndə qeydiyyatdan keçib və 2002-ci ildən "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarını həyata keçirir.

### Öz ərazimizdə pozulan hüquqlarımızı bərpa edirik

Ekofəalların Laçın-Xankəndi yolunda həyata keçirdiyi etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir və öz ərazimizdə pozulan hüquqlarımızın bərpası uğrunda apardığı haqq işidir.

Xatırladaq ki, dekabrın 3-dən etibarən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlarla bağlı sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparmışdılar. Danışıqlara əsasən, dekabrın 10-da Azərbaycan mütəxəssislərinin faydalı qazıntı yataqlarına, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxışı və müxtəlif istiqamətlər üzrə monitorinqi, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi nəzərdə tutulmuşdu. Lakin heyət Rusiya sülhməramlılarının müşayiəti ilə sözügedən yataqların yerləşdiyi ərazilərə gəlsələr də, nəzərdə tutulan ilkin baxış və monitorinqə sülhməramlılar süni əngəl yaratmışdılar.

Buna görə də Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərimizin qeyri-qanuni istismarı, habelə ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsi səbəbindən Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri və ekoloqları dekabrın 12-dən Xankəndi-Laçın yolunda etiraz aksiyası keçirirlər.

Aksiya iştirakçıları tələb edirlər ki, Azərbaycanın sözügedən ərazilərində yataqların qeyri-qanuni istismarı dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir.

### Azərbaycan haqlı mövqeyini qətiyyətlə müdafiə edir

Böyük əksəriyyəti gənclərdən ibarət olan aksiyaçılar, ekoloji hüquqların müdafiəsi sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri, ictimai fəallar beynəlxalq sənədlərdə, eləcə də milli qanunvericilikdə təsbit olunmuş hüquqlarından istifadəyə maneçilik törədənlərə qarşı etiraz edirlər. Onlar sağlam ətraf mühitdə yaşamaq, sərbəst toplaşmaq və sair kimi hüquqlarından istifadə edərək qanun pozuntusuna qarşı haqlı narazılıqlarını bildirirlər. İctimaiyyət namyəndələrimiz Ermənistanın Azərbaycan ərazilərində ekoloji vəziyyətin pisləşməsinə səbəb olan və sərvətlərimizin talan edilməsi kimi əməllərinə son qoyulmasını, burada azərbaycanlı mütəxəssislərin montorinq aparması üçün lazımi şəraitin yaradılmasını tələb edirlər.

Eyni zamanda onlar Ermənistanın bu yoldan Qarabağa hərbi məqsədlər, minaların daşınması üçün istifadə etməsinə qarşı etiraza qalxıblar. Fəallarımızın tələbləri arasında Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi mina terrorunu dayandırması da var.

Ermənistan tərəfinin yalan iddiasının əksinə olaraq, ekofəallarımızın bu aksiyası heç bir siyasi məqsəd güdmür. O cümlədən Ermənistan tərəfinin guya Laçın yolunun bağlanması, bölgədə humanitar fəlakət yaşanması, etnik təmizlənmə həyata keçirilməsi barədə iddiaları da böhtandır və həqiqəti əks etdirmir. Çünki təyinatına uyğun olaraq Xankəndi-Laçın yolundan humanitar maşınların keçidinə heç bir maneə yoxdur.

Cənibi Qafqazda vəziyyətin gərginləşməsində maraqlı olan bəzi qərəzli ölkələr var ki, bunların da başında Fransa ilə İran gəlir. Onlar ekofəallarımızın Xankəndi-Laçın yolunda keçirdiyi sülh aksiyasını erməni yalanlarına uyğun, "Laçın yolunun bağlanması", "humanitar fəlakət" yaşanması kimi təqdim etməyə çalışır, bununla bağlı Azərbaycana qarşı böhtan xarakteli iddialar səsləndirirlər. Amma Azərbaycan beynəlxalq arenada da öz haqlı mövqeyini qətiyyətlə müdafiə edir.

Yeri gəlmişkən bildirək ki, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Ermənistanın qeyri-qanuni fəaliyyəti ilə əlaqədar Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı BMT Baş katibinə ünvanladığı məktubu da BMT Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.

Məktubda, Laçın yolunda azərbaycanlı fəalların Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətə qarşı etirazlarının Ermənistan tərəfindən "humanitar böhran" kimi qələmə verməklə siyasiləşdirmək cəhdlərinə diqqət çəkilib, Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı ilə bağlı ətraflı məlumat təqdim edilib.

### Milli mənafelərimizin keşiyində

Göründüyü kimi, Azərbaycan xalqı milli birliyinin gücü və əzmi ilə haqqı uğrunda çıxdığı daha bir mübarizədə qalib gəlir. Vətəndaş cəmiyyətimizin nümayəndələrinin milli maraqlarımız uğrunda gecə-gündüz etiraz aksiyası keçirməsi, mübariz bir şəkildə mənafelərimizin keşiyində ayıq-sayıq dayanması, qətiyyətlə separatçılara təzyiq göstərməsi nəticəsində "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarının dayandırılmasına nail olduq.

Əldə etdiyimiz bu nailiyyəti, həm də milli birliyimizin daha bir qələbəsi kimi dəyərləndirmək olar və bu, bir daha onu göstərdi ki, milli mənafeyi naminə yumruq kimi birləşməyi bacaran Azərbaycan xalqı haqqı uğrunda çıxdığı istənilən mübarizədən qalib olaraq zəfərlə ayrılacaq.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*




## Azərbaycan ictimaiyyəti nümayəndələrinin Fransa parlamentində təmsil olunan siyasi qüvvələrin mövqeyi ilə bağlı müraciəti

**Azərbaycan ictimaiyyətinin nümayəndələri Fransa parlamentində təmsil olunan siyasi qüvvələrin rəhbərləri adından bu ölkənin prezidentinə ünvanlanmış məktubla əlaqədar müraciət yayıblar.**

AZƏRTAC müraciəti təqdim edir:

"Təəssüf hissi ilə bildiririk ki, son illər Fransanın müxtəlif siyasi qüvvələri tərəfindən Azərbaycan dövlətinə və xalqına qarşı aparılan açıq böhtan və qərəzli kampaniya bütün mənəvi sərhədləri aşıb. Bu ədalətsiz kampaniya Fransa ictimaiyyətinin Azərbaycana qarşı münasibətini yanlış istiqamətə yönəltməklə yanaşı, xalqımız tərəfindən də ciddi narahatlıqla qarşılanır.

Əslində isə nə baş verir: Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərimiz qeyri-qanuni istismar olunur, habelə ətraf mühitə ciddi ziyan vurulur. Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi dövrdə bu qeyri-qanuni iqtisadi fəaliyyətdən sadə erməni xalqı deyil, hərbi cinayətkarlar - Ermənistanın sabiq prezidentləri R.Koçaryan və S.Sarkisyan faydalanıblar. Hazırda isə təbii sərvətlərimiz çirkli pulların yuyulması, narkotik vasitələrin dövriyyəsi və qanunsuz silah alveri ilə məşğul olan Ruben Vardanyan tərəfindən istismar olunaraq Ermənistana, oradan isə digər ölkələrə daşınır. Biz Azərbaycana qarşı qarayaxma kampaniyası aparan fransalı siyasətçilərdən fərqli olaraq, faktlara istinad edirik. ATƏT, BMT-nin İnkişaf Proqramı, BMT-nin Ətraf Mühit Proqramı, Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuş hesabatlarda və qətnamələrdə keçmiş işğal edilmiş ərazilərimizdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyət, təbii sərvətlərin qanunsuz istismar faktları təsdiq olunub.

Dekabr ayının əvvəllərindən ekoloji vəziyyətin pisləşməsi ilə bağlı monitorinq aparılması məqsədilə azərbaycanlı mütəxəssislər əraziyə girməyə dəfələrlə cəhd etsələr də, yerli erməni sakinlərin aqressiv fiziki müdaxiləsi ilə qarşılaşıblar və nəticədə Azərbaycan vətəndaşları Azərbaycan Respublikasının ərazisinə girə bilməyiblər. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələri və ekoloqlar buna etiraz əlaməti olaraq, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış suveren ərazisində aksiya keçirərək təbii sərvətlərimizin qeyri-qanuni istismarına və ekoloji fəlakətə son qoyulmasını tələb edirlər.

**Etnik təmizləmə**

Fransa parlamentində təmsil olunan siyasi qüvvələrin rəhbərləri adından bu ölkənin prezidentinə ünvanlanan məktubda qeyd edildiyi kimi, bəli, etnik təmizləmə olub. Lakin onların iddia etdiyinin əksinə olaraq, ermənilər tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirilib. **Bu faktı hələ 1920-ci ildə Fransanın Qafqazdakı komissarı Damien dö Martel Fransa Hökumətinin o dövrdəki başçısı, xarici işlər naziri Aleksandr Millerana 20 iyul tarixli məruzəsində bildirmişdir:** *"Hərbi əməliyyatlara gəldikdə (Azərbaycan ərazilərinin ermənilər tərəfindən zəbt edilməsi nəzərdə tutulur), mən Ermənistandan gələn şahidlərdən bir sıra məlumatlar əldə etdim ki, onların {əməliyyatlar} icra edilməsi formasını təsdiqləyir: ötən iyun ayının sonunda Yerevanın cənubunda erməni hərbi birləşmələri 40 000-dən çox azərbaycanlının yaşadığı 25 kəndi mühasirəyə almışdır. Paytaxtın yanında yaşayan bu əhali {...} hər zaman sakin və sülhsevər olmuşdur; bu əhali top atəşi ilə Araza doğru qovulmuşdur və öz kəndlərini tərk etməyə məcbur olmuşdur ki, həmin kəndlər dərhal ermənilər tərəfindən zəbt edilmişdir. Bu məsələdə təxminən 4 000 nəfər edam edilmişdir, uşaq və qadınlara fərq qoyulmurdu, onlar erməni hərbçiləri tərəfindən suda boğub öldürülmüşlər".*

Ermənistanın təcavüzkarlıq siyasətinin qurbanı olan azərbaycanlılar öz tarixi torpaqlarından qovulub, ölkəmizin BMT tərəfindən tanınan ərazisinin 20 faizi işğala məruz qalıb. Nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Fransanın da səs verdiyi BMT Təhlükəsizlik Şurasının qətnamələri bu faktları təsdiq edir.

**Tarixdən**

Azərbaycanı tanımaq üçün məşhur fransalı yazıçı Aleksandr Dümanın "Qafqaz səfəri" əsərini oxumaq, bu torpaqlarda yaşayan insanlar, onların mədəniyyəti barədə ətraflı öyrənmək mümkündür. Fransa inqilabının ruhu vaxtı ilə Azərbaycana, onun xalqına da gəlib çatmış, bunun nəticəsi olaraq, 1918-ci ilin may ayında müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdı və bu dövlətin müstəqilliyi Parisdə tanınıb. Azərbaycanın müstəqilliyinə səs verən dünya liderlərindən biri də məhz Fransanın Baş naziri Jorj Klemanso olub. Bu gün də Azərbaycan Demokratik Respublikasının bütün arxivi Fransanın Sosial Elmlər Ali Məktəbinin Mərkəzi Avropa, Qafqaz və Rus Sivilizasiyaları üzrə Araşdırma Mərkəzinin kitabxanasında saxlanılır və şərəfli tariximizi vərəqləmək istəyən qərəzli siyasətçiləri bu kitabxanaya baş çəkməyə dəvət edirik.

Azərbaycan parlamentinin ilk qərarlarından biri 1919-1920-ci tədris ilindən başlayaraq yüz nəfər azərbaycanlı gəncin hökumət hesabına təhsil almaq üçün xarici ölkələrin nüfuzlu ali məktəblərinə göndərilməsi olub ki, bu tələbələrin əksəriyyəti məhz Fransaya göndərilib.

Azərbaycanlıların Fransa Müqavimət Hərəkatında iştirakı Azərbaycan tarixinin şərəfli və unudulmaz səhifələrindən biridir. Fransanın nasistlər tərəfindən işğalının ən ağır dövrlərində Kiril və Aleksandr Makinski qardaşları, Əhmədiyyə Cəbrayılov və bir çox digər həmvətənlərimiz Fransa uğrunda döyüşüblər. Bu gün Fransada Azərbaycana qarşı ədalətsiz mövqeyin tutulması həm də Fransa uğrunda canından keçən azərbaycanlıların ruhuna hörmətsizlikdir.

1944-cü il noyabrın 27-də Fransa Respublikasının müvəqqəti hökumətinin rəhbəri general De Qollun Bakıya səfəri Müqavimət Hərəkatında iştirak edən azərbaycanlılara minnətdarlıq jesti kimi məmnunluqla xatırlanır.

Dövlətimiz və xalqımız tərəfindən Fransaya verilən yüksək dəyərin fonunda bu gün baş verənlərə görə günahkar biz deyilik. Fransanın universal dəyərlərinin erməni diasporunun təsiri altında məhv edilməsini görmək bizim üçün üzücüdür.

**Qınaq və humanitar mövcudluq**

Dövlət-millət prinsipini beynəlxalq münasibətlər sisteminə tətbiq etməklə "dövlət daxilində dövlət" yaratmağa imkan verməyən və hugenotları mərkəzi hökumətə tabe etdirən kardinal Rişelyenin vətəni Fransada bu gün bir sıra siyasətçilər Azərbaycan ərazisində dağıdıcı separatizmi təşviq etməklə Azərbaycan və erməni xalqı arasında qalıcı barışığa maneələr törədirlər.

Emmanuel Makron ikinci dəfə prezident seçilərkən ətraf mühit məsələsinin fəaliyyətinin əsas istiqamətlərindən biri olacağını elan etmişdi. Bu xüsusda Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində ermənilər tərəfindən törədilmiş ekoloji cinayətlərin dayandırılması üçün Fransanın öz imkanlarından istifadə etməsi Fransa hökumətinin siyasətinə tam uyğundur.

Fransanın prioritet elan etdiyi prinsiplərə, habelə bərabərlik və dünyəvilik kimi universal dəyərlərə sadiq qalacağına ümidimiz hələ ki tam kəsilməyib. Fransızların dediyi kimi, "ümid sonda ölmür, ümid yaşadır". E.Makrona fransalı siyasətçilərin ünvanladığı məlum məktubdakı çağırışla biz də razıyıq: *"Respublika Prezidenti bizim bütün soydaşlarımıza sübut edə bilər ki, Fransa azaddır".*

Biz də inanırıq ki, Fransa Prezidenti erməni icmasının və onun təsiri altında olan siyasətçilərin deyil, Fransanın maraqlarını üstün tutaraq dünyəvi dəyərlərə sadiq, tolerant, multikultural Azərbaycanın ədalət və bölgədə sülh uğrunda səylərini dəstəkləyəcək.

Sonda bir daha xatırlatmaq istərdik ki, yarımçıq ədalət olmur. Qarşılaşdığımız açıq ikili standartlar dünyada beynəlxalq hüququn norma və prinsiplərini hörmətdən salır. Beynəlxalq hüququn hamılıqla qəbul edilən norma və prinsiplərinə hörmət və əməl edilməsi dünyanın aparıcı dövləti olan Fransanın da məsuliyyətidir.

**İmzalayanlar:**

1. Fərhad Bədəlbəyli - pianoçu, Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru;
2. Mənsum İbrahimov - Xalq artisti, professor;
3. İlqar Orucov - Fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti İctimai Birliyinin sədri;
4. Azər Allahverənov - Fəlsəfə doktoru, "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri;
5. Zaur İbrahimov - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri;
6. İsrayıl İsgəndərov - Fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyinin sədri;
7. Nurəddin Mehdiyev - "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin sədri;
8. Günel Səfərova - "Vətəndaş" Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri;
9. Səbuhi Abdullayev - Riyaziyyat üzrə fəlsəfə doktoru, "ELM" Gənclərin Sosial-İntellektual İnkişafına Dəstək İctimai Birliyinin sədri;
10. Şəhla Nağıyeva - Filologiya üzrə fəlsəfə doktoru, "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyinin sədri;
11. Ramil İsgəndərli - Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyinin sədri;
12. Şəlalə Həsənova - Filologiya üzrə fəlsəfə doktoru, professor, İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək İctimai Birliyinin sədri;
13. Nüşabə Məmmədova - Tarix üzrə fəlsəfə doktoru, "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" İctimai Birliyinin sədri;
14. Şəmistan Əlizamanlı - "Vətənpərvərliyin Təbliğinə Dəstək" İctimai Birliyinin sədri;
15. Fəxrəddin Həsənzadə - Gənclər üçün Təhsil Mərkəzi İctimai Birliyinin icraçı direktoru;
16. Azər Qərib - Azərbaycan Turizm Blogerləri Assosiasiyasının sədri;
17. Ədnan Hüseyn - "re:Azərbaycan" layihəsinin təsisçisi;
18. Məleykə Əlizadə - Tarix üzrə fəlsəfə doktoru, "Gəncə Regional Qadın Mərkəzi" İctimai Birliyinin sədri;
19. Rauf Zeyni - Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti;
20. Umud Mirzəyev - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri;
21. Novela Cəfərova - D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyəti İctimai Birliyinin sədri;
22. Mayis Əliyev - Hüquq elmləri doktoru, Sosial Hüquqların Araşdırılması İctimai Birliyinin sədri;
23. Yusif Ağayev - Filologiya üzrə fəlsəfə doktoru, "Dostluq" Gənclərin Əlaqələndirmə Mərkəzi İctimai Birliyinin sədri;
24. Elvin Talışınski - Siyasi elmlər üzrə fəlsəfə doktoru, "Elin Səsi" Milli-Mənəvi Dəyərlərimizin Qorunması İctimai Birliyinin sədri;
25. Əyyub Kərimli - İqtisadiyyat üzrə fəlsəfə doktoru, "İqtisadi və Sosial Araşdırmalara Yardım" İctimai Birliyinin sədri;
26. Elçin Mirzəbəyli - Sənətşünaslıq üzrə fəlsəfə doktoru, "Bakı Natiqlik Məktəbi" İctimai Birliyinin sədri;
27. Səltənət Qocamanlı - İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri;
28. Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri;
29. Əli Tağıyev - "Erasmus Tələbə Şəbəkəsi - Azərbaycan" İctimai Birliyinin sədri;
30. Mirəli Hüseynov - "Demokratiyanı Öyrənmə" İctimai Birliyinin sədri;
31. Fikrət Yusifov - Professor, iqtisad elmləri doktoru, "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri;
32. Müşfiq Ələsgərli - "Mediada İnnovativ Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri;
33. Faiq İsmayılov - Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri;
34. Anar Xəlilov - "Sağlam İnkişaf və Maarifləndirmə" İctimai Birliyinin sədri;
35. Vüqar Əhmədov - Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri;
36. Ayaz Mirzəyev - Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin sədri;
37. Telman Qasımov - "Elmi Araşdırmalar" İctimai Birliyinin sədri;
38. Vəli Əlibəyov - "Siyasi Texnologiyalar Mərkəzi" İctimai Birliyinin sədri;
39. Mehri Xanbabayeva - Fəlsəfə doktoru, Azərbaycan Tarixçiləri İctimai Birliyi;
40. Mətanət Əsgərqızı - "Əsgər Ailələrinə Dəstək" İctimai Birliyinin sədri;
41. Samir Adıgözəlov - "İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Elmi-Araşdırmalar Mərkəzi" İctimai Birliyinin sədri;
42. Xatirə Vəliyeva - "Xankəndi" məcburi köçkünlərə dəstək İctimai Birliyinin sədri;
43. Aydın Əbilov - "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyinin sədri;
44. Mehriban Zeynalova - "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri;
45. İradə Rzazadə - "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri;
46. Əhməd Abbasbəyli - "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri;
47. Şəhriyar Məcidov - Avropaya İnteqrasiya Mərkəzi İctimai Birliyinin sədri;
48. Rəsul Cəfərov - "Bakı insan hüquqları klubu" İctimai Birliyinin sədri;
49. Fariz Xəlili - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri;
50. Fərid Şahbazlı - "İslahatçı Gənclər" İctimai Birliyinin sədri;
51. Etibar Məmmədov - "Mədəniyyətin və Milli Ənənələrin Təbliği" İctimai Birliyinin sədri;
52. Rahilə Mehtiyeva - "Sosial-İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyinin sədri;
53. Elman Cəfərli - Yaşıl Dünya Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri;
54. Vüsalə Hüseynli - "İslahatçı Qadınlar və İnnovasiyalar" İctimai Birliyinin sədri;
55. Rəşad Əliyev - İCOMOS Azərbaycan İctimai Birliyinin sədri".

# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib





**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında növbəti qanvermə aksiyası keçirilib. Aksiyada Mərkəzi Aparatın əməkdaşları da daxil olmaqla, partiyanın 300 nəfərə yaxın üzvü iştirak edib. Toplanan qan ehtiyatı talassemiya və irsi qan xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün nəzərdə tutulub.**

Mərkəzi Qan Bankının həkim-hematoloqu Könül Muxtarlı bildirib ki, qanvermə prosesində 18-65 yaşlı şəxslər iştirak edə bilər: "Qanı heç bir dərman vasitəsi əvəz edə bilmədiyinə görə, ona həmişə ehtiyac var. Hazırda ölkədə 1500 nəfərə yaxın talassemiya xəstəsi qeydiyyatdadır. Nəzərə almaq lazımdır ki, bir nəfər donorluq etməklə, qana ehtiyacı olan üç xəstəyə kömək olur, onların həyatını xilas edir. Ona görə bu aksiyada toplanan qan ehtiyatı talassemiya və irsi qan xəstəliklərindən əziyyət çəkənlər üçün böyük dəstəkdir", - deyə həkim-hematoloq vurğulayıb.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası ənənəvi olaraq hər il qanvermə aksiyaları keçirir. Partiya xüsusilə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban Əliyevanın təşəbbüsünə qoşularaq qanvermə aksiyaları təşkil edir. Bu, partiya üzvlərinin ölkəmizdə həyata keçirilən humanist tədbirlərdə fəal iştirakının göstəricisidir.

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# "Yadındamı" filmi sərhədçi peşəsinin təbliği istiqamətinə töhfə verəcək



Dekabrın 29-da Dövlət Sərhəd Xidmətinin (DSX) Aparatında Azərbaycan Sərhəd Mühafizəsinin keçdiyi şərəfli xidmət yolundan bəhs edən "Yadındamı" sənədli filminin yaradıcı heyəti ilə görüş keçirilib.

Qurumun Mətbuat mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Xidmət rəisi general-polkovnik Elçin Quliyev "Azad Azərbaycan Teleradio və Yayım Şirkəti"nin rəhbəri Azər Xəlilova və filmdə əməyi keçən əməkdaşlara təşəkkürünü bildirib. O, qısa zamanda izləyicilər tərəfindən təqdir olunan ekran işinin gələcəkdə gənclər arasında hərbi-vətənpərvərlik hissinin yüksəldilməsi, həmçinin sərhədçi peşəsinin təbliği istiqamətində töhfə verəcəyinə əminliyini vurğulayıb.

Çıxış edənlər "Yadındamı" filmində Azərbaycan Sərhəd Mühafizəsinin tarixi və inkişafı, Dövlət Sərhəd Xidmətinin struktur qurumlarının xidməti-döyüş fəaliyyətinin təşkili, dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin olunması üzrə həyata keçirilən tədbirlər, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qazanılmış şanlı zəfərdə sərhədçilərin iştirakını və nailiyyətlərini xüsusi vurğulayıblar.

Sonda Dövlət Sərhəd Xidməti rəisinin əmrinə əsasən, faydalı əməkdaşlıq münasibətlərinin inkişafında və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə "Azad Azərbaycan Teleradio və Yayım Şirkəti"nin əməkdaşları "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı və fəxri fərmanla təltif ediliblər.

# Naxçıvanda dövlət qurumlarına aid ilk rəsmi internet səhifəsi "GOV.AZ" zonasına köçürülüb

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının internet səhifələrinin "GOV.AZ" zonasında qeydiyyatdan keçirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

XRİTDX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilkin olaraq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin (nmincom.gov.az) rəsmi internet səhifəsinin "GOV.AZ" domen zonasına köçürülməsi məqsədilə xidmətin əməkdaşları tərəfindən müvafiq təhlillər aparılıb. Saytın audit yoxlamaları aparıldıqdan sonra zonada yerləşdirilməsi təmin edilib.

Qeyd edək ki, muxtar respublikada 11 dövlət qurumunun rəsmi internet səhifəsi Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən yenilənib. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin (nnk.gov.az), Ali Məhkəməsinin (nsupremecourt.gov.az), Mərkəzi Seçki Komissiyasının (nmsk.gov.az), Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (neco.gov.az), Kənd Təsərrüfatı Nazirliyinin (nagro.gov.az), Energetika Dövlət Xidmətinin (nminenergy.gov.az), Dövlət İmtahan Mərkəzinin (ndim.gov.az) internet səhifələrinin audit yoxlamaları aparıldıqdan sonra "GOV.AZ" domen zonasına köçürülməsi planlı olaraq həyata keçirilməkdədir.

# İranda daha 100 etirazçı edam ediləcək

## Ukraynanın vurulan təyyarəsi ilə bağlı 4 ölkə Tehranı beynəlxalq arbitraja çağırıb

**Norveçdə yerləşən İran İnsan Haqları Təşkilatının (IHR) məlumatına görə, İranda hökumət əleyhinə aksiyalarda iştirak edənlərdən beşi qadın olmaqla, ən azı 100 etirazçı edam cəzasına məhkum edilib və ya ölüm hökmünün verilməsini gözləyir.**

Eyni zamanda hüquq müdafiəçiləri deyirlər ki, əslində, edam hökmü daha çox adam barədə çıxarılıb, lakin onların ailələri hakimiyyətdən qorxduqları üçün bu barədə danışmırlar. Dekabr ayında açıq məhkəmələrdən sonra iki gənc iranlı - Möhsün Şəkəri və Məcidrza Rəhnavard artıq edam ediliblər. İnqilab Məhkəməsi onları "Allaha qarşı müharibə"də təqsirli bilib.

İranda yüz gündən artıqdır ki, hakimiyyətə qarşı etirazlar davam edir. Buna səbəb gənc iranlı qadın Məhsa Əmininin ölümü olub. O, sentyabrın 18-də islami geyim qaydalarını pozduğuna görə Tehranda əxlaq polisi tərəfindən saxlanılıb, polis idarəsində özünü pis hiss edib, koma vəziyyətinə düşüb və təcili dünyasını dəyişib.

Hakimiyyət orqanları bu etirazları kənardan təşkil olunmuş qiyam kimi təqdim edərək, silahdan istifadə etməyə başlayıb. Nəticədə IHR-nin məlumatına görə, İranda 64-ü uşaq və 34-ü qadın olmaqla, azı 476 etirazçı həlak olub. Hüquq müdafiəçilərinin məhkəmə sistemi, müttəhimlərin qohumları və ya jurnalistlərə istinadən yaydığı hesabatda artıq edama məhkum edilmiş və ya təcili məhkum ediləcək 100 nəfərin adı çəkilir.






Sənəddə qeyd olunur ki, bu təqsirləndirilən şəxslər vəkillərlə görüşməkdən, lazımi hüquqi prosedurlar və ədalətli məhkəmə araşdırmasından məhrum edilib.

IHR iddia edir ki, onların əlaqə yarada bildikləri və ya işlərinin təfərrüatları kamera yoldaşları və ya hüquq müdafiəçiləri tərəfindən bildirildiyi hallarda, bu insanlar, saxta etiraflar əldə etmək üçün fiziki və psixoloji işgəncələrə məruz qalıblar.

### Tehran məhkəmədə cavab verəcək

Kanada başda olmaqla 4 ölkə Ukrayna sərnişin təyyarəsinin vurulması ilə bağlı İranla mübahisəni həll etmək üçün arbitraj məhkəməsində iddia qaldırıb.

Xatırladaq ki, 2020-ci il yanvarın 8-də Tehrandan havaya qalxan Ukrayna Beynəlxalq Hava Yollarının (UAI) PS752 reysi iki raketlə vurulub. Təyyarənin göyərtəsində olan 176 nəfərin hamısı həlak olub.

Hadisədən 3 gün sonra Tehran təyyarəni səhvən vurduğunu etiraf edib və indi bu təyyarə qəzasında vətəndaşları həlak olan Kanada, İsveç, Ukrayna və Böyük Britaniya İrana qarşı konkret addım atmağa qərar veriblər.

Bu dörd ölkə faciə qurbanları və onların ailələri adından təzminat tələb etmək istəyir. Onlar İslam İnqilabı Keşikçiləri Korpusunu qeyri-qanuni və qəsdən mülki təyyarəyə iki "yer-hava" raketi atmaqda ittiham edirlər.

İran öz növbəsində Amerika ilə münasibətlərin gərginləşdiyi bir vaxtda Tehranın ABŞ əsgərlərinin yerləşdiyi İraqdakı iki hərbi bazasına ballistik raketlər atmasından sonra - yanvarın 8-də hava hücumundan müdafiə sisteminin yüksək hazırlıq vəziyyətində olduğunu bildirib.

Çərşənbə günü yayımlanan birgə bəyanatda, dörd iddiaçı ölkə Mülki Aviasiyanın Təhlükəsizliyinə Qarşı Qanunsuz Hərəkətlərin Qarşısının Alınması üzrə 1971-ci il Konvensiyasına (1971-ci il Monreal Konvensiyası adlanır) əsasən, PS752 reysinin vurulması ilə bağlı İranla mübahisənin beynəlxalq arbitrajda həll edilməsini istəyib.

Bəyanatda həmçinin qeyd olunub ki, dörd ölkədən ibarət bu qrup İranın beynəlxalq hüquqi öhdəliklərinin çoxsaylı pozuntularına görə Tehranı məsuliyyətə cəlb etmək üçün səylərini davam etdirmək niyyətindədir.

Vurulan təyyarənin 85 sərnişini Kanada vətəndaşı idi və ya orada yaşamaq icazəsi olub.

"PS752 qəzasında yaxınlarını itirənlər ədalətə layiqdirlər" deyən Kanadanın xarici işlər naziri Melani Coli tviter səhifəsində yazıb: "Bu həftə biz beynəlxalq səviyyədə belə ədalətə nail olmaq istiqamətində mühüm addım atdıq və İranın bu faciəyə görə məsuliyyət daşıması üçün birlikdə çalışacağıq".

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# "Yaşıl Marafon" çərçivəsində hərbçilərin iştirakı ilə ağacəkmə aksiyası keçirilib

**IDEA İctimai Birliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən birgə həyata keçirilən "Yaşıl Marafon" çərçivəsində genişmiqyaslı ağacəkmə aksiyası təşkil olunub.**





AZƏRTAC xəbər verir ki, daim Vətənin müdafiəsində dayanan hərbi qulluqçular bu dəfə təbiətimizə töhfə, fidanlara həyat vermək üçün toplaşaraq Müşfiqabad qəsəbəsində 4 hektar ərazidə, Abşeron yarımadasının iqlim şəraitinə uyğun 3000-dən çox müxtəlif növ ağac əkiblər.

Qeyd edək ki, "Yaşıl Marafon" çərçivəsində keçirilən ağacəkmə aksiyaları zamanı il ərzində 2 milyondan artıq ağac əkilib.

Layihənin əsas məqsədi yaşıllıq sahələrinin artırılması ilə yarana biləcək təhlükələrin qarşısını almaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunmasında maarifləndirilmə işinə töhfə verməkdən ibarətdir.

Ölkəmizdə yaşıllıqların mühafizəsi və artırılması səylərini bundan sonra da davam etdirmək niyyətində olan IDEA İctimai Birliyi öz tərəfdaşları ilə birgə ictimaiyyəti planetimizin mühafizəsi ilə bağlı mübarizədə, ətraf mühit naminə görülən tədbirlərdə aktiv iştirak etməyə çağırır.

# Nikol Paşinyan Ermənistanı oyuncağa çevirib

## Baş nazirin verdiyi heç bir vəd reallaşmır, məğlub ölkə yeni xaosa sürüklənir

**Ermənistanda postmüharibə dönəmində gözlənilirdi ki, ölkədə normal həyat tərzi başlayacaq və rəhbərlik daxili, xarici siyasəti beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar çərçivəsində yürüdəcək. Lakin məhz Paşinyan iqtidarının yarıtmaz siyasəti, sülh müqaviləsinin imzalanmasının yubadılması səbəbindən təcrid vəziyyətinə düşmüş Ermənistan inkişafdan geri qalır. Ölkədə əhalinin sayının ildən-ilə azalması elə həddə çatıb ki, daha nə vaxtsa artacağı da şübhə altındadır.**

"Parçala və hökm sür" prinsipindən Paşinyan həm əvvəllər, həm də indi geniş istifadə edir, onun müstəqil insanları, öz fikri olanları məhv etmək, zərərsizləşdirmək istəyi artır. Bununla belə Paşinyan bəzi yeni üsullar da tətbiq edir. Ermənistanın "4rd.am" nəşri yazıb ki, deyilənə görə, baş nazir "x" partiyasının üzvünü yanına çağıraraq "y"nin onun haqqında pis sözlər dediyini bildirir. Nəticədə "x" və "y" əbədi düşmən olub, hesablaşmağa, bir-birinə inamsızlıq göstərməyə, bir-birinin ayağının altını qazmağa başlayırlar. Bəzən ehtiraslar o qədər qızışır ki, eyni komandadakı insanlar bir-biri ilə salamlaşmırlar.

Qeyd edilir ki, Paşinyanın başqa metodları da var. O, xarici mərkəzin rəğbətini qazanan partiya yoldaşını həmin mərkəzə qarşı açıq bəyanatlar verməyə sövq edir ki, birdən-birə xarici aləmlə ayrı-ayrı oyunlara girməsin: "Sadə dillə desək, vaxtilə o, Levon Ter-Petrosyanı qarşıqlıq yaratmaqda ittiham edirdi və qəzetində "Böyük qarışıqlıq" başlıqlı silsilə yazılar dərc etdirirdi. Bu taktikanın mənası isə o idi ki, komanda daxilində qruplar, ideoloqlar formalaşmır, ona qarşı koalisiyalar yaranmır, hakimiyyət hakim partiyanın daxilindən təhlükəyə məruz qalmır".

Göründüyü kimi, məğlub ölkənin ictimai-siyasi həyatında da vəziyyət gərgin olaraq qalmaqdadır. Digər tərəfdən görünən həm də budur ki, dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımlara gedir. Məhz belə vəziyyətdə problemlər içində boğulan Ermənistan əhalisi yeni hökumətə də etibar etmir. Bu, ölkənin əsas media orqanlarından sayılan "İravnuk" qəzetinin keçirdiyi sorğu zamanı məlum olub. Nəşrin hazırladığı reportaja əsasən, Ermənistanda əhalinin yalnız 6 faizi hökumətə inanır. Sorğuya əsasən, cəmiyyətdə xüsusilə müharibədəki məğlubiyyət fonunda iqtidara etimadsızlıq mövcuddur.

Bildirilir ki, dörd il öncə hərbi xunta rejiminə son qoyulsa da, fərqli heç nə baş verməyib. Köhnə problemlər olduğu kimi qalır. Bu səbəbdən də əhali çıxış yolunu xaricdə axtarır.

Erməni iqtisadçı Tatevox Xanbekyan yazır ki, Paşinyan baş nazir seçiləndə Ermənistanı investisiya cənnətinə çevirəcəyinə söz verirdi, amma tezliklə bunun heç bir əsası olmadığı üzə çıxdı. "Əksinə, hakimiyyət investisiya qoyulmaması üçün hər şeyi etdi və buna davam edir. Dörd ilin nəticələri də göz qabağındadır. Ermənistan iqtisadiyyatı xarici kapitalı cəlb etmir, onun marağını kəsb etmir. Birbaşa investisiyalar artmır. Əksinə, hakimiyyətin yüngül əli ilə kapital ölkəni tərk edir. Sonra iqtisadi sıçrayış və iqtisadi inqilab dövrü gəlməli idi. Lakin xaricdən investisiya qoyulmadığı üçün bankların verdikləri kreditlərin iqtisadi inqilabın hərəkətverici qüvvəsinə çevrilməli olduğu bildirildi. İqtisadiyyatı kreditlərlə, xüsusən də yüksək kreditlərlə inkişaf etdirməyin çətin olduğu yenilik deyil. Bu, tez bir zamanda özünü büruzə verdi. Düzdür, hökumət dəyişikliyindən sonra bankların kredit portfeli kifayət qədər yüksək sürətlə böyüməyə başladı, lakin sonra məlum oldu ki, hətta kredit kapitalı da iqtisadiyyatın real sektoruna girməyə hazır deyil".

Bildirilir ki, kredit portfelinin artımı əsasən istehlak-ipoteka kreditləri hesabına baş verir. Bunlar o qədər ağırlaşdılar ki, bank sistemi üçün təhlükə yaratmağa başladılar. Sonra mərkəzi bank etiraf etməli oldu ki, əhaliyə verilən kredit yükü gəlirlərindən daha sürətli artaraq yükə çevrilib. Buna görə də məhdudiyyətlər qoymağın vaxtı çatıb. Bir çoxları gəlirlərinə bu neçə min dram əlavə olunmasını belə hiss etmirdilər. Bunun əvəzinə hakim elita bu şəraitdə özünü tam mükafatlarla əhatə edirdi. Bir gün Paşinyanın xalqdan gizli büdcə hesabına yüksək vəzifəli məmurlara mükafat payladıqları, maaşlarını bir neçə yüz min drama qədər artırdıqları bəlli olmasaydı, bu, açıqlanmayacaqdı.

Qeyd olunur ki, bu mükafatlandırma bir çoxlarının yaşamaq uğrunda ölüm-dirim savaşı apardığı bir vaxtda baş verir. Sonra böyük depressiya dövrü gəldi, daha yaxşı bir həyat ümidlərini hələ itirməmiş insanları sarsıdan epidemiya başladı. İqtisadiyyat böhran içindədir. Bu böhrandan çıxma perspektivləri hələ olduqca qeyri-müəyyəndir. Gələn il iqtisadiyyatda artım olacağına heç bir ümid yoxdur. Dövlət büdcəsi qeyri-düzgün işləmə riski ilə üzləşir. Hökumət büdcə öhdəliklərini yerinə yetirmək üçün xaricdən əlavə pul borc almalı olur. Həmişə kreditlərə qarşı olan Paşinyan üçün dövlət borcu yükünün onunla ağırlaşması artıq mümkün deyil.

Xalq inqilab edərək "xalqın baş naziri" hakimiyyətə gətirdikdən sonra yaxşı yaşamaq əvəzinə acı reallıqla üzləşməli oldu. Bu gün ölkədəki sosial vəziyyət hakimiyyət dəyişikliyindən əvvəlki vəziyyətdən daha gərgindir. Bir çox insan gündəlik çörək problemini həll etmək faktı ilə üzləşib. Minlərlə vətəndaş işini itirib və onların sayı artmaqda davam edir.

Göründüyü kimi, hazırda məğlub ölkədə iqtidar rəsmiləri yalnız populist çıxışlarla camaatın könlünü ələ almaq istəyirlər. Xalq isə bunları görür, etiraz edir. Bu fonda da Ermənistanda ictimai-siyasi vəziyyət sürətlə gərginləşir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Riyakar siyasət, sistemli təxribatlar, antiazərbaycançı mövqe və islami dəyərlərə hörmətsizlik - İranın əsl mahiyyəti



## Şeyx Səfi - Ərdəbil Kitabxanasının müəmmalı taleyi

**Tarixi mənbələrə əsasən, XIV əsrdə Səfəviyyə təriqəti şeyxi Şeyx Sədrəddin Ərdəbili (1334-1391) tərəfindən yaradılan Şeyx Səfi Kitabxanası Şərqin ən zəngin və nadir kitab fonduna malik kitabxanalarından biri olub. Səfəvi-Qızılbaş sufilərinin müqəddəs ocağı olan Şeyx Səfi Məqbərə Kompleksi və bu kompleksdə yerləşən kitabxana müqəddəs məkan olaraq vəqf torpaqlarına daxil idi. Bu baxımdan kitabxana həmişə toxunulmaz qalmış, müntəzəm olaraq nadir əlyazmalar hesabına zənginləşmişdir.**

Azərbaycan Səfəvi hökmdarı I Şah İsmayıl Səfəvi hakimiyyəti dövründə (1501-1524) bu kitabxanaya qiymətli kitablar bağışlamışdı. 1510-cu ildə Mərv qələbəsindən sonra Xorasan bölgəsinin mədəniyyət mərkəzi olan Herat şəhəri ələ keçirildiyi zaman Herat xəttatlıq məktəbinə aid olan ən qiymətli əlyazmalar Ərdəbil kitabxanasına gətirilmişdi.

Tarixi mənbələrə görə, 1607-ci ildə Azərbaycan hökmdarı Şah I Abbas Şeyx Səfi Kitabxanasına çox sayda kitab bağışlamışdı.

1637-ci ildə Azərbaycana gəlmiş Qolşteyn Hersoqunun elçisi Adam Oleari Ərdəbildə olarkən Şeyx Səfi Kitabxanası ilə tanış olmuşdu. O, öz xatirələrində məqbərə kitabxanasının zəngin fonda malik olduğunu qeyd edərək yazırdı: "... Şeyx Səfi Kitabxanasında türk, ərəb, fars və digər dillərdə yazılan yüzlərlə kitab mövcuddur. Bu kitablar həm məzmunu, həm də tərtibi nöqteyi-nəzərindən dünyanın nadir kitablarındandır...".

XIX əsrin əvvəllərində Rusiya imperiyasının Azərbaycana yönəlik işğalçılıq siyasəti təkcə ərazi işğalı ilə deyil, eyni zamanda tarixi-mədəni dəyərlərin işğalı ilə də xarakterizə olunurdu. Hələ XIX əsrin əvvəllərində rus şərqşünaslarının Azərbaycan kitabxanalarında olduqca qiymətli nadir kitablar saxlanması haqqında ətraflı məlumatları var idi. Onlar bu qiymətli xəzinənin əldə edilməsinə xüsusi diqqət yetirirdilər. Ərdəbildə saxlanılan bu qiymətli kitabların əldə edilməsinin vacibliyi haqqında çarı məlumatlandıran şərqşünas alim, rus diplomatı Qriboyedovun dostu Osip Senkovski idi. İ.K.Yenikolopov "Qriboyedovun həyatı" adlı əsərində göstərirdi ki, "1827-ci ildə şərqşünas Osip Senkovski rus qoşunlarının baş qərərgahının rəisi Qraf Dibiçə Persiya kitabxanalarında saxlanılan nadir Şərq əlyazmalarının əldə edilməsi haqqında bir layihə təqdim edir. Qraf Dibiç Senkovskinin layihəsini Qafqaz canişini Paskeviçə göndərib xahiş edir ki, bu məsələni nəzərdən qaçırmasın və göstərilən əlyazmaları axtarıb tapmağı, ümumiyyətlə, qiymətli əsərlərin yerini öyrənməyi Qriboyedova tapşırsın". Bu işə böyük əhəmiyyət verən rus diplomatı Aleksandr Qriboyedov uzun axtarışdan sonra istəyinə nail olur. Şeyx Səfi məqbərəsində qiymətli əlyazmaların saxlandığı haqqında məlumat əldə edən Qriboyedov hansı yolla olur-olsun bu qiymətli kitab xəzinənin ələ keçirilməsinə çalışır.

İlkin olaraq rus diplomatı Qriboyedov Qacar hökumətinin nümayəndələri ilə apardığı rəsmi danışıqlarda bu məsələni gündəmə gətirir. Lakin Ərdəbil kitabxanasında saxlanan nadir əlyazmaların dini və elmi əhəmiyyətinə yaxından bələd olan vəliəhd Abbas Mirzə hər vəchlə əlyazmaların ruslara verilməsindən imtina etməyə çalışır. Abbas Mirzə Qriboyedova xitabən söyləyir ki, "Allah xatirinə, deyin görüm, sizin çarınız bu kitabları niyə istəyir? Sizi əmin edirəm ki, bu kitablar son dərəcə mürəkkəb, darıxdırıcı və yorucu qiraət üslubunda yazılmışdır. Çar belə kitablarla maraqlanırsa, ona ən yaxşı yeni və dəbli tarixi kitablar sifariş verə bilərəm".

Şeyx Səfi Kitabxanasını danışıqlar yolu ilə əldə edə bilməyən ruslar Ərdəbil şəhərini işğal edərək orada olan kitabxananı ələ keçirmək üçün Qarabağda xüsusi qoşun dəstəsi yaradır və bu dəstəyə rus generalı Suxtelin komandan təyin edilir.

1828-ci il yanvarın 25-də rus qoşunu Ərdəbil şəhərinə daxil olur. Əhalinin etirazlarından ehtiyat edərək Şeyx Səfi Kitabxanasında saxlanılan əlyazmaları ələ keçirmək üçün zor tətbiq etməkdən çəkinən rus generalı Suxtelin hiyləyə əl atır. Tarixi əsərlərdə verilən məlumatlarda qeyd edilir ki, "Rus generalı Suxtelin yerli ruhaniləri çağırıb onlara bildirdi ki, çar öz müsəlman təbəələri haqqında daha çox öyrənmək istəyir. Əgər razılaşsanız, bu kitabxananı Sankt-Peterburqa köçürəcəklər və əlyazmaların surətini çıxardıqdan sonra əslini geri qaytaracaqlar. Generalın təzyiqləri nəticəsində ruhanilər bununla razılaşdılar. Lakin Suxtelin sözünə əməl etmədi və aparılan kitablar geri qaytarılmadı".

Fevral ayının əvvəllərində ələ keçirilən yüzlərlə əlyazma iki piyada rus alayının müşayiəti altında furqonlarda Tiflisə göndərilir.

Tiflisdə Ərdəbil Kitabxanasından ələ keçirilmiş nadir əlyazmaların siyahısı tərtib edilir və qiymətli əsərlər Sankt-Peterburqa göndərilir. Güman edilir ki, siyahının tərtibində Azərbaycan tarixçisi A.A.Bakıxanov da iştirak etmişdir. Bu kitablar o dövrdə Sankt-Peterburq İmperator Kitabxanasına (indiki M.Saltıkov-Şedrin adına Rusiya Milli Kitabxanasına) verilmişdi.

Məlumatlara görə, Şeyx Səfi Kitabxanasında mövcud olan minlərlə əlyazma içərisindən 114 nəfis və nadir nüsxə Rusiyanın Sankt-Peterburq kitabxanasına göndərilmişdir. Bəzi qaynaqlarda verilən məlumatlardan aydın olur ki, Ərdəbil Kitabxanasından ələ keçirilən əsərlərin bir qismi Tiflisə aparılarkən yolda baxımsızlıq ucbatından məhv olmuşdur.

Şeyx Səfi Kitabxanasında minlərlə kitabın və qiymətli əsərlərin mövcud olması haqqında ümumi məlumatlar verilsə də, kitabların dəqiq sayı haqqında məlumatlar yox dərəcəsindədir.

Türkiyə Cumhuriyyəti Osmanlı Arxivində (BOA) saxlanan XVIII əsrdə tərtib olunmuş bir siyahıda Ərdəbil kitabxanasında mövcud olmuş 744 kitab haqqında məlumata rast gəlinir. Bu kitabların adları çəkilməsə də, hansı sahələrə aid olduğu qeyd edilmişdir. Siyahıda "Qurani-Kərim" və təfsirlə əlaqəli 582 kitab, ümumi xarakter daşıyan dini elmlərlə bağlı 6 kitab, tarixi əsərlər - 27 kitab, ədəbiyyat və divan ədəbiyyatı - 20 kitab, maliyyə-vergi sahəsinə aid 91 kitab, ümumi xarakter daşıyan 18 kitab vardır.

Tarixi əsərlərdə verilən məlumatlardan məlum olur ki, Şeyx Səfi Kitabxanasında həyata keçirilən talançılığın ikinci mərhələsi Məşrutə inqilabı dövrünə (1905-1911) təsadüf edir. 1911-ci ildə rus qoşunu Təbriz şəhəri ilə yanaşı, Ərdəbil şəhərini də zəbt edərək Şah İsmayıl Səfəvi və onun əcdadlarının məzarlarını qarət etmiş, son dərəcə qiymətli xalçalar, "Qurani Kərim"in nüsxələri və digər nəfis əlyazmalar talan edilərək Rusiyaya aparılmışdır.

Qeyd edək ki, çar Rusiyası dövründə ələ keçirilərək, Sank-Peterburqa aparılan nadir əlyazmalar kitabxanadakı mövcud əsərlərin bir hissəsi olmuşdur. Çünki Ərdəbil kitabxanasında qalan digər əlyazmalar 1935-ci ildə fars-pəhləvi rejiminin xüsusi göstərişi ilə Tehrana aparılmış, hazırda Tehranda yerləşən "Muzeyi İran - Bastan"da saxlanılır. Farslar tərəfindən müsadirə olunaraq Tehrana aparılan əlyazmaların ümumi həcmi 80 sandıq göstərilir. Bu, yüzlərlə kitab deməkdir. Bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, pəhləvi - fars rejiminin Azərbaycan tarixini kompleks şəkildə saxtalaşdırması prosesinə əsasən 1935-ci ildən etibarən başlanılmışdır.

1991-ci ildən sonra İran rəsmilərinin müraciəti əsasında Rusiyada saxlanılan Ərdəbil əlyazmalarının bəzilərinin mikrofilmi İrana təhvil verilmişdir.

Hazırda Azərbaycan tarixinə, etno-mədəni irsinə, dilinə qənim kəsilən İran molla rejiminin Tehran kitabxanalarında saxladığı bu qiymətli əlyazmalara münasibəti müəmmalı olaraq qalır.

Xüsusi olaraq qeyd edək ki, hər bir millətin tarixi, milli-mədəni dəyərləri zaman-zaman yazıya alınan əsərlərdə, əlyazmalarda öz əksini tapmışdır. Təəssüflər olsun ki, bizim gerçək tariximizi əks etdirən və çox ehtimal ki, ana dilimiz - Azərbaycan dilində olan bu əsərlər müxtəlif dövrlərdə Azərbaycandan kənara çıxarılaraq bu gün də gizli arxivlərdə saxlanılmaqdadır. Şeyx Səfi Kitabxanası əlyazmaları da bu acı taleyi yaşayan əsərlər siyahısında yer almaqdadır. Hazırda bu nadir əlyazmaların bir hissəsi Rusiya Milli Kitabxanasında, digər qismi isə İran kitabxanalarında gizli şəkildə saxlanılır və əlyazmaların saxlandığı kitabxanaların qapıları tədqiqatçıların üzünə bağlıdır. Acınacaqlı hal odur ki, bu əsərlərin taleyi haqqında heç bir məlumat yoxdur.

Biz gerçək Azərbaycan tarixini, tarixi-mədəni dəyərlərimizi obyektiv şəkildə öyrənmək istəyiriksə, mütləq şəkildə islamaqədərki tariximizin oğurlanaraq gizlədildiyi Ermənistanın Matenadaran-Mesrop Maştots adına İrəvan Əlyazmalar və sənədlərin qorunma və tədris mərkəzində saxlanılan qiymətli əlyazma nüsxələrindən, həmçinin Rusiya və İranda bağlı qapılar arxasında saxlanılaraq hazırda taleyi bəlli olmayan Şeyx Səfi - Ərdəbil Kitabxanasından istifadə etmək imkanlarına malik olmalıyıq.

Şeyx Səfi-Ərdəbil Kitabxanası əlyazmalarının Azərbaycan tarixi və ədəbi-mədəni nümunələrinin gerçək tədqiqi üçün əhəmiyyətini nəzər alaraq, Azərbaycan alimləri tərəfindən bu əsərlərin tədqiq olunmasına imkan yaradılması və nadir əlyazmaların Azərbaycana gətirilməsi istiqamətində Rusiya və İranın müvafiq elmi-tədqiqat qurumları qarşısında məsələ qaldırılması olduqca vacibdir.

***Mübariz AĞALARLI,***
***ADPU-nun dosenti***

Ana dili problemi Cənub ədəbiyyatında

## Ana dili - qurtuluş bayrağı

**Ədəbi yaradıcılıqda mövzu seçimi və onun aktuallığı kimi məsələlər həmişə önəm verilən başlıca xüsuslar sırasında olmuşdur. Amma bunu da qeyd etmək lazımdır ki, Cənub ədəbiyyatında ana dili məsələsi son yüzillikdə prinsipial olaraq bu yanaşmadan həmişə yüksəkdə dayanmışdır. Belə ki, cənublu yazarlar harada yaşamalarından (vətəndə və ya mühacirətdə), hansı dünyagörüşə və ya hansı ədəbi cərəyana mənsubluqlarından asılı olmayaraq bu məsələyə heç vaxt "arzulanan mövzu", "aktual mövzu" anlayışları prizmasından yox, təbii insani haqq məsələsi, millətin ölüm-qalım məsələsi prizmasından yanaşmışlar.**




Elə buna görə də gənc şair Şəlalə Cavanşir "Ana dilim" şeirində ana dilini haqlı olaraq qurtuluş bayrağı adlandırır:

*Sən ölmədin, mənim Türkcəm!*
*Sən yaşayırsan bağrımızda,*
*Sən yaşayacaqsan ağlımızda,*
*Sənin üçün,*
*yalnız sənin üçün yaşayanlar var, Ana dilim!*
*Sən bizim gerçək qurtuluş bayrağımızsan, Türkcəm!*

Bəlkə də elə bu cür yanaşmalara görə Cənubda ana dili ilə bağlı yazılan hər hansı ədəbi əsərə rəsmi dairələr istər-istəməz siyasi əsər, bu işlə bağlı fəaliyyətə isə təhlükəli siyasi fəaliyyət kimi baxırlar.

Ədəbiyyat təbiətdə, cəmiyyətdə və insan təfəkküründə baş verən hadisələrin aynasıdır fikri ilə razılaşmamaq mümkün deyil. Cənublu yazarların əsərlərinin incələnməsi də bu fikri birmənalı olaraq təsdiqləyir. Konstitusiya bazasının mövcudluğuna baxmayaraq, hələ də həll olunmadığından ana dili məsələsi çağdaş ədəbiyyatda bu gün də öz aktuallığını dayanıqlı şəkildə qoruyur. Demək olar ki, yaşlı nəsillə yanaşı, ədəbiyyata təzə gələn gənc nəslin nümayəndələri də bütün basqı və yasaqlara rəğmən heç bir halda bu məsələdən yan keçmirlər. Əksinə, ona get-gedə daha dərindən yanaşır, yaşananları öz əsərlərində fərqli aspektlərdən bütün çılpaqlığı ilə, həm də bəzi istisnalarla heç bir radikallığa yol vermədən əks etdirirlər.

Elə buna görə də ustad şair Muradəli Qureyşi Qaflantı "Bizim kəndin birillik tarixi" adlı poemasında yazır:

*Kimin ölkəsində haqqın yeyiblər,*
*Bu qədər dilinə böhtan deyiblər?*
*Kimin millətini, əslin danırlar,*
*Harda zülm oduna biz tək yanırlar?*

Çağdaş Cənub poeziyasının aparıcı simalarından biri olan Hadi Qaraçay da eyni fikirdədir. O, son yüz ildə millətin və onun dilinin başına açılan oyunları "Sonsuzluq" poemasında belə təqdim edir:

*Yüz ildir dilimdə qıfıl,*
*Alnımda qulluq damğası,*
*Əllərimdə tapı qandalı.*
*Böylə doğur, böylə yaşar, böylə ölürəm.*

Cənublu yazarların ana dilinin hüquqları uğrunda mübarizəsinin başlıca istiqaməti, əvvəl də qeyd etdiyimiz kimi, onun məktəblərdə tədrisi ilə bağlıdır. Ana dilində təhsilin olmamasının milli şüurda törətdiyi fəsadları onlar düzgün müəyyənləşdirib qiymətləndirir, gənclərin milli dəyərlər təməlində yetişdirilməsinin birmənalı olaraq ana dilində təhsildən - tələb olan hər yerdə milli məktəblərin açılmasından keçəcəyini bildirirlər. Çünki məktəblər - toplumun tarixboyu əldə etdiyi bilgilərin gənc nəsillərə ötürülmə prosesinin icra olunduğu yerdir.

Ona görə də İsmayıl Cəmili "Yalanlar" adlı şeirində ana dilinə qoyulan yasaqlara, fars dilində təhsil sisteminə, onun başqa etnik toplumları öz kökündən uşaqlaşdırıb assimilyasiya etməyə aparan uydurma, qondarma və yalanlarla dolu olan məzmununa üsyan edərək yazır:

*Bu oxullar, bu yuvalar*
*Bizdən deyil,*
*Bizim deyil.*
*Varaq-varaq qondarmadır,*
*Yazı-yazı uydurmadır,*
*Yalanlarla doldurmadır.*
*Kökümüzdən uzaqlaşmaq odağıdır,*
*Yadlaşmağın duzağıdır.*

"İrandakı mövcud quruluşun əleyhinə şeirlər yazmaqda" ittiham olunaraq dəfələrlə azadlıqdan məhrum edilib zindana atılsa da, tutduğu yoldan çəkilməyən tanınmış şair-publisist Səid Muğanlı isə öz dilində yaza bilmədiyi üçün hətta üzr istəmək məcburiyyətində qalır:

*Səni yaza bilmədim,*
*Bağışla, dilim,*
*Məni bağışla,*
*başqa bir dil öyrənirəm*
*yaza bilmək üçün!*

Ana dili məsələsi Cənubda artıq o qədər ciddi hal almış, fikir və düşüncələrə o qədər hakim kəsilmişdir ki, sağçı, solçu, dindar və ya ateist olmasından asılı olmayaraq, özünü Azərbaycan türkü kimi hiss və ifadə edən hər bir qələm sahibinin ən önəmli dava məsələsinə çevrilmişdir. Bütün bunların nəticəsidir ki, hətta Qumda dini təhsil alan tanınmış şair və jurnalist Seyid Heydər Bayat belə bu misraları yazmağa məcbur olmuşdur:

*İndi düzünü de:*
*Başqa dildə təsbeh çevirərkən*
*nə istəyirsən Tanrıdan?*
*Sevgilimin itkin ayaq izlərinə işıq salmağını,*
*Yoxsa sənin səccadə dilinə alışmağımı,*
*Yoxsa*
*"Tanrım, oxuduğum laylaları unutsun oğlum!"*
*- deyirsən?*

"Başıbəlalı dilimiz" adlı satirik hekayəsində Əlirza Zihəq "sapı özümüzdən olan bir balta"nın azərbaycanlıların qədim dilinin guya əslində "hərzənd dili" olduğunu sübut etmək üçün min hoqqadan çıxdığını, Mərəndin Gəlinqaya kəndində iki ahıl talış tapıb zorla onlara qədim azərbaycanlı olduqlarını və bineyi-qədimdən bu torpaqlarda yaşadıqlarını sübut etməyə çalışmasından bəhs edir. Amma qocalar "balta"nın bütün cəhdlərinə rəğmən öz zatlarını danmaq fikrində deyillər. Ona görə də "iki ayaqlarını bir başmağa dirəyib" etiraz edirlər:

- "Biz talışıq və iki yüz il olmaz ki, bu torpağa gəlmişik! Dilimiz də talış dilidir!"

"Balta" isə öz "vəzifə"sini yerinə yetirməkdə israrlıdır. Hətta bu biabırçılıqdan sonra da fikrindən əl çəkmir və azərbaycanlıları monqolların türkləşdirməsi barədə kitab yazır və utanmadan qocaların dediklərini də özü bildiyi kimi "yozur". Əslində, bütün bunlar ciddi elmi, tarixi dəlillərə rəğmən İranda bəzi dairələrin hələ də azərbaycanlıları monqolların türkləşdirməsi haqda uydurulmuş cəfəng iddiadan əl çəkmək fikrində olmadıqlarının bədii ifadəsidir. Bu iddia nəinki antitarixi, antielmi, həm də antiməntiqidir. Belə ki, istər-istəməz haqlı suallar doğurur: Əgər istilaçı monqollar azərbaycanlıların dilini belə asanlıqla dəyişdirmək qüdrətinə sahib idilərsə, onda nəyə görə onları monqollaşdırmaq əvəzinə türkləşdirirdilər? Monqollaşdırmaq onlar üçün daha asan və əlverişli deyildimi? "Dil dəyişdirmək bacarığı"na sahib olan monqollar işğal etdikləri ucsuz-bucaqsız ərazilərdə azərbaycanlılardan başqa daha hansı xalqın və ya xalqların dilini dəyişdiriblər?

Öz əsərlərində İranda dil məsələsinin vəziyyətinə geniş yer verən ədiblərdən biri də hazırda Almaniyada mühacir həyatı yaşayan tanınmış yazar Əziz Səlamidir. O, bu utancverici problemə fərqli aspektlərdən yanaşır, məsələnin ciddiliyini ifadə etmək üçün bəzən hətta ağlasığmaz üsullara əl atır. Onun "Göylər məni it elə!" adlı əsəri bu baxımdan daha çox diqqəti cəlb edir. Müəllif yazır: "Mən bir insan olaraq, bu dünyada bu it qədər də deyiləm. O, istədiyini öz dilində ucadan deyə bilir. Amma mənim düşündüyümü öz dilimdə heç yavaşca da deməyə haqqım yoxdur. Mən deyəndə ki, bura mənim vətənimdir, bu dağlar, bu çöllər, bu çaylar, bu heyvanlar, bu insanlar mənimdir və mən də onlarınam, onda dilimi kəsir və boğazıma qurşun doldururlar".

Əlbəttə, fəryad xarakteri daşıyan bu sətirləri oxuyub üstündən sakitcə keçmək qeyri-mümkündür. Çünki bütün rəsmi sənədləri Allahın adının zikr edilməsi ilə başlayan və ilahi ədalətə iddia edən bir dövlətin öz vətəndaşları olan 30 milyonluq bir topluma qarşı 100 ilə yaxındır davam edən bu antibəşəri yanaşmanı XXI əsrdə belə hələ də aradan qaldırmaması haqlı sual doğurur: Əgər dünyadakı hər kəs kimi, azərbaycanlıları və onların dilini də Allah yaradıbsa, onda bu inkar siyasəti Allahın əleyhinə deyilmi?..

Hazırda həm ictimai həyatda, həm də ədəbiyyatda ana dilinin hüquqları uğrunda mübarizənin liderlərindən biri də Cənubi Azərbaycanın milli şairi və rəssamı kimi tanınan Huşəng Cəfəridir. Şair əksər əsərlərində, o cümlədən "Savalan" poemasında Azərbaycan türklərinin və onların dilinin aşağılanmasına, "İranın milli birliyi tələb edir" kimi, məntiqsiz və antiinsani bəhanələrlə sıradan çıxarılmasına qarşı əsl ziyalı təpkisi göstərir. Onun qənaətinə görə xalqının, yurdunun və ana dilinin təəssübünü çəkməyən, ana dilinə, ədəbiyyatına, milli mədəniyyətinə sahib çıxmayan kəs ən yüksək mövqeyə çatsa, ən ali kürsüdə oturmağa nail olsa belə milli mənəvi dəyərlərin qoruyucusu ola bilməyəcək.

İranda Azərbaycan türkcəsinin düşdüyü mövcud durumu düzgün qiymətləndirən H.Süleymanoğlu haqlı olaraq yazır: "Əgər dil varlığın evidirsə, onda biz azərbaycanlılar uçurdulmuş bir evdə yaşamaq zorunda qalmışıq". Ona görə də o, şair və yazarları özlərinin bu "uçurdulmuş ev-varlıq"larını yenidən tikib abadlaşdırmağa çağırır. Bu çağırış həm də ana dilini arxaik, lüzumsuz ərəb və fars sözlərindən təmizlənib hər kəsin anlaya biləcəyi bir vəziyyətə gətirməyə çağırış kimi də başa düşmək olar.

Bəlkə də elə buna görə Fəriba İbrahimi "Ana dilim" şeirində ana dilinin millətin yaşatdığı ən böyük dəyər olduğunu qeyd etməklə yanaşı, onun özünün yabançı sözlərdən qorunmalı olduğunu önə çəkir:

*Sənlə yaşayıram, səninlə varam,*
*Ruhuma, qəlbimə göz, ana dilim.*
*Sənsən əsgi günüm, sən gələcəyim*
*Yabançı sözlərə döz, ana dilim.*

Cənublu çağdaş yazarların İslam inqilabından sonra ana dili ilə bağlı nəşr etdirdikləri əsərlərin tədqiqi aşağıdakıları göstərir:

- Cənublu yazarlar harada yaşamalarından asılı olmayaraq ana dilinin hüquqları uğrunda mübarizənin yenə də ön sırasındadırlar;
- onların nəşr etdirdikləri əsərlərin əksəriyyəti nəinki separatçılıq - İranın parçalanması ideyasını daşımır, əksinə, vahid İran dövləti hüdudları daxilində bərabərhüquqlu vətəndaşlıq ideyalarını təbliğ edir;
- bəzi rəsmi dairələrin milli azadlıq hərəkatı xofu altında ölkənin parçalanması ilə bağlı əndişələrinə əsas verə biləcək faktlara ədəbi əsərlərdə demək olar ki, rast gəlinmir;
- ana dilində təhsil və milli hüquqların reallaşdırılması ilə bağlı irəli sürülən tələblər xalq referendumu yolu ilə təsdiqlənmiş ölkə konstitusiyası çərçivəsindən kənara çıxmır;
- cənublu yazarların böyük əksəriyyəti ana dilinin Şimalda mövcud olan ədəbi dil normalarına uyğun şəkildə - vahid ədəbi dil müstəvisində inkişafını dəstəkləyir; bununla yanaşı, Cənub üçün yeni dil normaları yaradılması, eləcə də ortaq dil kimi Türkiyə türkcəsinə keçmə çağırışları da eşidilir.

**Fikrət SÜLEYMANOĞLU,**
**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi**

***(Əvvəli qəzetin 21, 22, 27, 28 dekabr tarixli saylarında)***

# REGİONLAR

## Erkən pensiya hüququ verən peşə və vəzifələrin siyahısı genişləşdirildi

**Prezident İlham Əliyevin tapşırığına əsasən, son illər sosial sahədə aparılan islahatlar pensiyaçıların sosial müdafiəsi, pensiya təminatına əlçatanlığın artırılması, erkən pensiya hüququ olan kateqoriyaların sırasının artırılması istiqamətində də mühüm addımların atılmasına imkan verib.**

Bu istiqamətdə növbəti addım kimi, Nazirlər Kabinetinin yeni qərarı ilə "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"na əlavələr edilib.

Siyahıya yeni 59 vəzifə və peşə əlavə edilib ki, həmin sahələrdə çalışan şəxslərə də 5 il erkən pensiyaya çıxmaq hüququ verilib.

Onların sırasına metropoliten və dəmir yolları sahəsində xidmətlərin göstərilməsi, dəmir-filiz ehtiyatlarının hasilatı və emalı, tikinti, quraşdırma, təmir və s. sahələrə aid vəzifə və peşələr daxildir.

Qeyd edək ki, bundan əvvəl cari ilin iyun ayında da "Əmək pensiyaları haqqında" qanunda 50-dək əlavə və dəyişiklik edilməklə, erkən pensiya hüququ olan kateqoriyaların sırasının artmasına xidmət edən yeni humanist yanaşmalar tətbiq edilib.

## Azərbaycanda son 50 ildə ilk dəfə çəltikçilikdə sertifikatlı toxum əldə olunub

**Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunda (ƏETİ) kənd təsərrüfatının ənənəvi sahələrindən olan çəltikçiliyin inkişafı, çəltik istehsalının artırılması və əhalinin düyüyə olan tələbatının ödənilməsi istiqamətində əhəmiyyətli tədbirlər görülür.**

Çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı, yerli və rayonlaşdırılmış sortlarının toxumçuluğunun yaradılması məqsədilə bu sahədə toxumla təminat istiqamətində həyata keçirilən tədbirlər müvəffəqiyyətlə nəticələnib.

Son 50 ildə ilk dəfə olaraq Azərbaycanda sertifikatlaşdırılmış çəltik toxumu istehsal edilib. ƏETİ tərəfindən Lənkəran rayonunda istehsal olunan "Avanqard" çəltik sortunun ölkə ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilib və mühafizə olunan seleksiya nailiyyətlərinin dövlət reyestrində qeydiyyatdan keçirilib.

"Avanqard" çəltik sortunun 500 kq "Orijinal" və 1200 kq "Super elit" toxumu Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi tərəfindən sertifikatlaşdırılıb. Bundan başqa, 3 illik fəaliyyətin nəticəsi olaraq cari ildə çəltiyin 2 yerli "Zəfər" və "Bəstə" sortları dövlət sınağının keçirilməsi məqsədilə Aqrar Xidmətlər Agentliyinə təqdim edilib.

Çəltikçiliyin inkişaf etdirilməsi üçün yerli imkanlardan səmərəli istifadə edilməsi, yeni çəltik sortlarının genefondunun yaradılması, yerli şəraitə uyğun formalarının seçilməsi və onların toxumçuluq sisteminin yaradılması istiqamətində tədqiqat işlərinin əhəmiyyəti böyükdür.

Sortların yaradılması, toxum istehsalı və kadr potensialının artırılması istiqamətində Pakistan, Türkiyə, İran və Malayziyanın müvafiq elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq əsasında fəaliyyətlər davam edir.




## Tərtərdə şəhid ailələrinin və qazilərin övladları üçün bayram şənliyi keçirilib

**Tərtərdə Vətən müharibəsi şəhidləri və qazilərinin övladları üçün 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə bayram şənliyi keçirilib.**

Rayon icra hakimiyyətinin və "Vəkiloğlu" MMC-nin birgə təşkilatçılığı ilə "Tərtər" istirahət mərkəzində keçirilən bayram tədbirində şəhid ailələri, müharibə veteranları, qazilər və onların fidan balalarından savayı, RİH-in başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, YAP rayon təşkilatı və Ağsaqqallar Şurasının sədrləri, hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak ediblər.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarından keçən Vətən oğullarının xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müstəqim Məmmədov Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni təqvim ili münasibətilə tədbir iştirakçılarını təbrik edərək qeyd edib ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə hesabına 2023-cü ili də qalib xalq kimi qarşılayırıq: "2020-ci il sentyabr ayının 27-də rəşadətli Azərbaycan Ordusu əks hücuma keçərək işğal altında olan torpaqlarımızı azad etdi. Son 200 il ərzində ilk dəfə olaraq ermənilərlə münaqişə qələbə ilə başa çatdı. Vətən müharibəsi günlərində dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev özünü həm də bacarıqlı sərkərdə kimi göstərdi. Biz döyüşlərdə şəhid olmuş soydaşlarımızın ruhu qarşısında baş əyir, onlara ulu Tanrıdan rəhmət diləyirik. Qədirbilən xalqımız onları heç vaxt yaddan çıxarmayacaq".

M.Məmmədov daha sonra qeyd edib ki, Vətən müharibəsində ermənilər dəfələrlə Tərtər şəhəri də daxil olmaqla 40 yaşayış məntəqəmizə 16 min 277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atıblar: "Ancaq tərtərlilər bir gün də olsun öz doğma yurdlarını və ev-eşiklərini tərk etməyib, evləri dağılsa da, şəhidlər versə də, ön cəbhədə olduğu kimi, arxa cəbhədə də qəhrəmanlıq, şücaət göstəriblər".

Sahib Alıyev də çıxış edərək 44 günlük Vətən müharibəsində şəhidlərimizin qanının yerdə qalmadığını, tarixi qələbənin qazanıldığını və bu qələbədə hər bir əsgərin Vətən qarşısındakı borcunu şərəflə yerinə yetirdiyini söyləyib. Bildirib ki, torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimiz heç zaman unudulmayacaq, onların əziz xatirəsi qəlbimizdə daim yaşayacaq.

Tədbir bədii hissə ilə davam etdirilib. Sonda şəhid və qazilərimizin fidan balalarına hədiyyələr təqdim olunub.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Tovuzda yeni tunel inşa edilib

Bakı-Böyük Kəsik dəmir yolu xəttinin Tovuz şəhərinin Rövşən Məmmədov küçəsindən keçən hissəsində yeni avtomobil tuneli inşa olunub.

Yeni tunelin qapalı hissəsinin uzunluğu 30 metr olmaqla açıq hissəsinin (yanaşma yollar ilə birgə) ümumi uzunluğu 420 metrdir. Tunel hər birinin eni 4 metr olan 2 hərəkət zolağından ibarətdir.

Tunelboyu hər bir istiqamət üzrə 120 və 150 metr uzunluğunda yan yolların və eni 1,20 metr olmaqla piyada səkilərinin inşası da layihə üzrə həyata keçirilib.



Qeyd edək ki, əvvəllər bu ərazidə mövcud olan tunelin müasir standartlara cavab verməməsi, üstəlik, ensiz olması hərəkət iştirakçılarının rahat və təhlükəsizliyini təmin etmirdi. Köhnə tuneldən yalnız minik maşınları istifadə edə bilirdi, piyadalar üçün səkilər mövcud deyildi.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## "Qarabağdan səfər etdim" kitabının təqdimatı olub

**Quzanlıda aşıq sənətinin görkəmli nümayəndələrindən olan Aşıq Valehin 300 illik yubileyinə həsr edilmiş "Qarabağdan səfər etdim" adlı kitabın təqdimatı olub.**

Ağdam Muğam Mərkəzində Əməkdar mədəniyyət işçisi, yazıçı-publisist Mustafa Çəmənlinin moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycanda aşıq sənətinin inkişafına göstərilən dövlət qayğısından, Qarabağın ustad sənətkarı Aşıq Valehin həyat və yaradıcılığından bəhs edilib.

Bildirilib ki, Ağdam Rayon İcra Hakimiyyətinin dəstəyi ilə nəşr edilən kitabın müəllifi Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin "Dədə Qorqud" elmi-tədqiqat laboratoriyasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Almara Nəbiyevadır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

## Özbəkistan hökumətinin Qarabağa hədiyyəsi

### Füzulidə 960 yerlik məktəb binası inşa edilir



**İşğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə Özbəkistan büdcəsinin vəsaiti hesabına 960 şagird yerlik məktəb binası inşa edilir.**

Layihə rəhbərinin tikinti üzrə müavini Rəfail Sadıqov AZƏRTAC-a bildirib ki, üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılacaq. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, nəzarət buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa ediləcək.

İşlər yüksək keyfiyyətlə, tikinti normalarına uyğun şəkildə aparılır. Binanın tikintisinin 2023-cü ilin avqust ayında yekunlaşdırılması nəzərdə tutulur.

Tikintidə sahə rəisi Rasim Mustafayevin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərin qurulmasında iştirak etmək onun ən böyük arzularından olub: "Mən özüm qarabağlıyam, Ağdam rayonundanam. 40 ildən çoxdur ki, tikinti sahəsində çalışıram. Respublikamızın bir çox bölgəsində inşaat işləri ilə məşğul olmuşam. Ən böyük arzularımdan biri Qarabağda tikinti aparmaq idi. Nəhayət, bu, mənə müyəssər oldu. 2022-ci ildə Ağdam rayonunda Xaçınçay üzərində dəmir yolu körpüsünün tikintisinə rəhbərlik elədim. İndi də Füzuli şəhərindəki məktəb binasını inşa edirik. Bu günü bizə yaşadan Prezidentimizə minnətdaram. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin".

Özbəkistandan olan mütəxəssis İslam Kərimovla söhbət zamanı Qarabağda məktəb tikintisində iştirak etməyindən qürur duyduğunu söyləyib. "Biz Özbəkistandan sentyabr ayında gəlmişik. Məktəbi Azərbaycan şirkəti ilə müqavilə əsasında inşa edirik. Mütəxəssislər Özbəkistandandır. İşimiz yaxşı gedir. Şadıq ki, işğaldan azad olunmuş Füzuli şəhərinin tikintisində iştirak edirik", - deyə o əlavə edib.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev keçən il noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Dövlətləri Təşkilatı) VIII Zirvə Görüşündə çıxışı zamanı Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında növbəti həmrəylik, dostluq, qardaşlıq addımı olduğunu bildirib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözləri də ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Hər iki ölkəni ortaq din, mənəvi dəyərlər, oxşar ənənələr, dil və mədəniyyət birləşdirir.

◆ İlə yekun vurulur

## "Yalama Aqropark"ın heyvandarlıq kompleksində bu il 1303 buzov doğulub

**Ölkə üzrə ən iri heyvandarlıq təsərrüfatlarından sayılan "Yalama Aqropark"da bu il 473 ton ət, 8410 ton süd istehsal olunub.**

Xaçmaz rayonunun Yalama qəsəbəsində yaradılmış ilk aqroparkda saxlanılan heyvanların sayı 3135 başa çatdırılıb. AZƏRTAC-ın yaydığı məlumatda bildirilir ki, heyvandarlıq təsərrüfatında Avstriya və Almaniyadan gətirilmiş "Simmental" cinsli inəklər bəslənilir.

2022-ci ildə aqroparkın heyvandarlıq kompleksində 1303 buzov doğulub. Sağılan inəklərin sayı min başa yaxındır. Aqroparkdan il ərzində ümumilikdə 1246 heyvan satılıb ki, bunlardan da 241 başı damazlıq düyədir.

Heyvandarlıq təsərrüfatının baytar həkimi Fərid Osmanlı bildirib ki, aqroparkda südlük-ətlik istiqamətli heyvanlar saxlanılır. Bu heyvanlarda südün keyfiyyəti göstəricilərinə görə digər cinslərdən fərqlənir. İstehsal edilən südün yağlılıq dərəcəsi 4,2 faiz və daha yuxarı olduğundan tərəfdaş emal müəssisələri tərəfindən kərə yağı istehsalında geniş tətbiq olunur. Stabil keyfiyyətli süd istehsalı ölkəmizin süd məhsullarına tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır.

"Simmental" cinsin ətlik keyfiyyəti yüksəkdir. Kökəldilmiş cöngələr 18 aylıqda 500 kiloqrama, 24 aylıqda 650 kiloqrama çatır. Yaxşı yemləmə və bəsləmə şəraitində 900-1100 qram sutkalıq çəki artımı əldə etmək mümkündür. Təmiz ət çıxarı 50-55 faiz olur.

Qarşıya qoyulan tapşırığa uyğun olaraq, "Yalama Aqropark"ın əkin sahələri 3 dəfə artırılıb, eyni zamanda istehsal genişləndirilib. Xaçmaz rayonunun İstisu qəsəbəsində Dövlət Ehtiyat Fondu torpaqlarından 956 hektar sahə uzunmüddətli icarəyə götürülərək əkin dövriyyəsinə qatılıb.



"Yalama Aqropark" MMC-nin əkinçilik xidmətinin rəhbəri Rza Rzayev bildirib ki, müəssisənin əkin dövriyyəsinə cəlb etdiyi torpaq sahəsi 1500 hektara çatdırılıb. Onun 830 hektarı pivot suvarma sistemi ilə təmin edilib. Hazırda daha 20 hektarda müasir suvarma sisteminin qurulması işləri aparılır.

Əkin sahələrində heyvandarlıq təsərrüfatının yem tələbatını ödəmək üçün taxıl və qarğıdalı bitkisinin, həmçinin digər yem bitkilərinin əkin həcmi genişləndirilib. Təsərrüfatda 280 hektar dən qarğıdalı, 130 hektar silosluq qarğıdalı, 200 hektar qarışıq senaj, 642 hektar arpa, 232 hektar yonca, 8 hektar gülül (vika) əkilib.

## Aqrar sığorta Azərbaycan kəndlisinin özgüvənliyini artırıb

### Ölkə üzrə kənd təsərrüfatı məhsullarının istehsal həcminin 95 faizi aqrar sığorta ilə əhatə olunub

**Məlum səbəblərdən sonra dünyada ərzaq təhlükəsizliyinin təminatı daha aktual xarakter almağa başlamışdır. Odur ki, indi hər bir ölkə aqrar sektora daha çox dəstək verir. Əsas məqsəd ölkənin ərzağa olan tələbatını maksimum yerli istehsal hesabına ödəməkdir.**

Bu isə ilk növbədə həmin ölkənin kənd təsərrüfatı potensialı ilə bağlıdır. Sirr deyil ki, heç də bütün ölkələrin aqrar imkanları ərzaq sarıdan daxili tələbatı ödəməyə yetmir. Belə olan halda tələbat idxal hesabına ödənir ki, bu da bir çox səbəbdən etibarlı və sərfəli çıxış yolu hesab olunmur.

Azərbaycana gəldikdə, bizim ərzaqlıq buğda istisna olmaqla başqa məhsullar üzrə tam və ya yüksək səviyyədə özümüzü təmin etmək imkanımız var. Amma bunun üçün mövcud torpaqdan və sudan səmərəli istifadə etmək, o cümlədən dünyada tətbiq olunan üsullarla məhsuldarlığı artırmaq lazımdır. İndiyədək aparılan aqrar islahatların da əsas məqsədi elə bu istiqamətə yönəlmişdir.

Belə tədbirlərdən biri də ölkə ərazisində aqrar sığortanın tətbiqidir. Məlum olduğu kimi, kənd təsərrüfatı ən riskli sahədir. Yağış, dolu, quraqlıq, yoluxucu xəstəliklər bitkiçiliyə və heyvandarlığa böyük ziyan vurur, bir çox halda kəndlinin müflis olmasına gətirib çıxara bilir. Belə halda ən güvənli çıxış yolu sığortadır ki, artıq bizim kənd təsərrüfatı məhsulları istehsalçıları da ondan yetərincə yararlanırlar. Üstəlik, Azərbaycanda tətbiq olunan aqrar sığortanın bir üstünlüyü də var və o da ondan ibarətdir ki, dövlət sığorta haqqını ödəməklə kəndliyə yardımçı olur. Başqa sözlə desək, sığorta olunan bitki və heyvanlara görə ödənilən sığorta pulunun çox hissəsi dövlət tərəfindən qarşılanır. Bundan əlavə, aqrar sığortaya kəndlinin əlçatanlığını asanlaşdırmaq üçün Aqrar Sığorta Fondunun (ASF) şəbəkəsi genişləndirilir.

Xəbər verildiyi kimi, bu günlər ASF-nin daha bir filialı Qubada fəaliyyətə başlayıb. Quba-Xaçmaz iqtisadi rayonunu əhatə edən filial Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən rayonlarında fəaliyyət göstərən fermerlərə xidmət edir. Yeri gəlmişkən qeyd edək ki, bölgə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bu iqtisadi rayon əsasən tərəvəz və meyvə istehsalı üzrə ixtisaslaşıb.

Aqrar Sığorta Fondu fəaliyyətə başlayandan Quba-Xaçmaz iqtisadi rayonunda təkcə bitkiçilik üzrə 2021-2022-ci ilin əkin mövsümlərində 8713 aqrar sığorta müqaviləsi üzrə 25000 hektara yaxın əkin sahəsi sığortalanıb. Bura buğda, arpa, soya, qarğıdalı sahələri, fındıq, alma və gilas bağları daxildir. Gəlirlərini qorumaq, fəaliyyətlərinin dayanıqlılığını təmin etmək məqsədilə aqrar sığorta xidmətlərindən istifadə edən fermerlərin sayı günbəgün artır. Quba şəhərinin mərkəzində açılan filial fermerlərə daha yaxın olmaq, yerlərdə onların tələb və təkliflərini dinləmək, müstəqil ekspertlərlə daha sıx və oprerativ əməkdaşlıq etmək imkanı yaradacaq.



Sonda onu bildirək ki, kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən islahatlardan biri olan aqrar sığorta sistemi fəaliyyət göstərdiyi qısa müddət ərzində ölkənin bütün bölgələrində istehsal həcminin təxminən 95 faizini əhatə edib. Bitkiçilik, heyvandarlıq və akvakultura sahəsində çalışan bütün fermerlər bu sistemin xidmətlərindən yararlana bilər. İlin sonuna qədər təkcə bitkiçilik üzrə fermerlərə zərər ödənişlərinin 3 milyon manata çatacağı gözlənilir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Yeni il ərəfəsində bizim Bakı gecələri










**Qış öz hökmündədir. Paytaxt sakinlərinin, xüsusən də uşaqların həsrətlə gözlədiyi qardan səs-soraq olmasa da, hətta sinoptiklər bu yöndə bir "vəd" verməsələr də, qış şaxtası-sazağı ilə öz sözünü deyir. Əsasən də səhər ertən və gecələr bayır-bacaqda çox soyuq olur. Ancaq Bakının yeni il ərəfəsi gecələri o qədər füsünkardır ki, onların gözəlliyinə nə şaxta-sazaq, nə də Xəzərin şıltaq, ərköyün küləyi xələl gətirə bilir. Gecədən xeyli keçmiş də bayram libaslı küçələrdə, park və xiyabanlarda gəzib-dolaşan insanlara rast gəlmək mümkündür. Bir retro mahnının sözləri yada düşür:**

*Aylı gecə... doğma şəhər...*
*Ətrafina sal bir nəzər,*
*Yollarını nurla bəzər*
*Bizim Bakı gecələri.*

Bakı gecələrinin gözəlliyi həmişə dillər əzbəri olub. Paytaxtımız böyüdükcə, ildən-ilə deyil, bəlkə də aydan-aya genişləndikcə, ən mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edən meqapolisə çevrildikcə onun gecələrinin də cazibəsi artıb. Yaşadığımız indiki bayramqabağı günlərdə bu, daha əyani, daha aydın görünür.

Yaşlı paytaxt sakinləri yəqin yaxşı xatırlayırlar ki, illər əvvəl ən yaraşıqlı, ən təmtəraqlı yolka Bakının baş yolkası olardı. O da hər il şəhərin mərkəzi yerlərindən birində qurulardı. Zamanımızda mənzərə bambaşqadır. Yolkaların biri Dənizkənarı Milli Parkda, o birisi "Azneft" meydanında "meydan oxuyur". Digəri özünə qədim "Qız qalası"na yaxın məkan seçib. Fəvvarələr meydanında, başqa mərkəzi küçələrdə ucalan, ayrı-ayrı parklardan boylananlar da var. Başqa birisi fərqlənmək üçün "yaxa"sına "2023" rəqəmini vurub... İndi hünərin var, tap görüm bu əsrarəngiz yolkaların hansıdır baş yolka?! Gündüzün gözəlliyini artırdıqları bir yana qalsın, gecələri də nura, işığa qərq ediblər. Axı indinin yolkası başından-budağından 10-15 rəngli oyuncaq asılmış küknar və ya şam ağacı deyil. Bugünün yolkaları Yeni il qabağı gecələrimizi çıraqban edən bənzərsiz çilçıraqlardır. İşıqlı Azərbaycanın - regionun ən işıqlı ölkəsinin yolkalarıdır. Həm də bir deyil, beş deyil, paytaxtın hər rayonunda, hər qəsəbəsində yolkalar qurulub. Heç biri də digərinə bənzəmir. Sanki gözəllik yarışına çıxıblar: hansımız daha cazibəli, daha işıqlıdır?! Bax beləcə, Bakımızın gecələri də gündüzə dönüb.

Yolkaların ətrafından, səkilərdən ayaq səsləri gecədən xeyli keçənədək çəkilmir. Şəhərin geniş küçə və prospektləri ilə səhərəcən maşınlar şütüyür. Axı Bakı Yeni il astanasındadır... Yeri gəlmişkən, təkcə Bakı deyil, ölkənin bütün şəhər və kəndləri indi yolka bəzəklidir. Gəncəli, Naxçıvanlı, Şuşalı, Şirvanlı, Şəkili, Qubalı, Lənkəranlı... Azərbaycan Yeni il yolkalarının işığına bürünüb. Uzaq Ağalı kəndimizdə də "ağıllı" yolka bərq vurur. Odur ki, təkcə gündüzümüzün deyil, gecələrimizin də işığı düşmənin, bizi gözü götürməyənlərin gözünü qamaşdırıb onları kor edir...

Biz isə yeni ilə açıq ürəklə, gülər üzlə gedirik. 2021-ci və 2022-ci ili artıq ürəyimizdə yurd nisgili olmadan qarşıladıq. 2023-ə daha şövqlə, daha həvəslə, daha böyük inam və ümidlərlə qədəm qoyuruq. Çünki qurub-yaratmaqdayıq, gücümüz çoxalır, nüfuzumuz artır. Uzun illər xalqımızın "Hər qaranlıq gecənin bir işıqlı səhəri var" inamı ilə yaşadıq. Müdrik Prezidentimiz, Müzəffər sərkərdəmiz İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək o məqsədə çatdıq. Ona görə də indi bayramlarımızı daha şadyanalıqla keçiririk. Bütün ölkənin timsalında Bakının Yeni il şərəfinə belə bəzənməsi də (elə bəzənməsi ki, az qala gündüzü gecəsinin gözəlliyinə həsəd aparır ) bu əhvali-ruhiyyədən, bu xoş ovqatdan irəli gəlir.

Şükür, artıq koronavirus adlı pandemiyanın qadağalarından da azad olmuşuq. Şəhərin gəzməli-görməli yerləri, əyləncə mərkəzləri sakinlərinin və çoxsaylı qonaq-qarasının üzünə açıqdır. Çoxlarımız isə Yeni il axşamı bir-birimizin evinə qonaq getməyə, qohumlarımızla, dostlarımızla bayramlaşmağa, gözəl libas geyinmiş Bakının gecəsini eyvanlardan, pəncərələrdən bir daha seyr etməyə hazırlaşırıq.

*Əsər külək sərin-sərin*
*Qucağında göy Xəzərin,*
*Gözəlidir gecələrin*
*Bizim Bakı gecələri.*

Yeni il ərəfəsində isə bizim Bakı gecələri daha da gözəldir. Bu gözəllik əmin-amanlığın əks-sədası, işıqlı günlərin güzgüsü, xoş güzəranın nümunəsi, təzahürüdür.

***Flora SADIQLI,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***







AZƏRBAYCAN www.azerbaijan-news.az

# "Misli" Azərbaycan futboluna yeni nəfəs gətirdi





**"Misli" brendi ölkəmizdə idmanın inkişafına xüsusi diqqət və qayğı göstərərək bu istiqamətdə həyata keçirilən layihələrin icrasında uğurla təmsil olunur.**

Azərbaycan Premyer Liqasına sponsorluqda əsas məqsəd ölkə futbolunun inkişafına dəstək göstərmək, futbolun birləşdirici xüsusiyyətindən faydalanaraq kütləviliyinin təmin edilməsi istiqamətində konkret ölçülə bilən KPİ/ƏPG (Əsas Performans Göstəricisi) əsasında spesifik və məqsədyönlü kompleks tədbirlərin görülməsidir. Paralel olaraq bu işə xidmət etməklə yanaşı, digər sahələrdə qazanılan uğurlu nəticələrin işığında analoji olaraq pozitiv və dinamik dəyişikliklərin icrasına və yüksək nəticələrin əldə edilməsinə nail olmaqdır.

"Azərlotereya" ASC və Peşəkar Futbol Liqası (PFL) arasında imzalanan müqavilədən bir neçə ay keçib. Ötən müddət göstərdi ki, Azərbaycan futboluna dəstək olmaq, bu birləşdirici və insanları bir-birinə ürək bağları ilə ortaq hədəfə kökləyən idman növü ətrafında insanların daha da yaxınlaşmasına, böyük futbol ailəsi olaraq sağlam köklərlə birləşməsinə töhfə vermək "Misli" üçün başlıca prioritetlərdən biridir.

Peşəkar Futbol Liqasının (PFL) prezidenti Elxan Səmədovla bu mövzu ətrafında görüşüb söhbət etdik. PFL rəhbəri dedi ki, anlaşma idman mərc və lotereya oyunları həyəcanını etibarlı və şəffaf şəkildə yaşamaq imkanı yaradır: "Hər kəsə bəllidir ki, "Azərlotereya" ASC Azərbaycanın yeganə rəsmi lotereya təşkilatçısı və idman mərc operatorudur. Bu operatorun ən uğurlu layihələrindən birinin "Misli" şirkəti ilə anlaşma nəticəsində ərsəyə gəldiyi şübhəsizdir. Bu il avqustun 10-da "Misli" brendinin futbol üzrə Azərbaycan Premyer Liqasının titul sponsorluğuna dair müqavilənin imzalanma mərasimi keçirildi. Bu müqavilə uzun müddətdir ki, sponsorluq baxımından çətinlik çəkən Azərbaycan Premyer Liqasına yeni nəfəs gətirdi. Tədbirdə iştirak edən AFFA prezidenti Rövnəq Abdullayev də "Misli" ilə əməkdaşlığın önəmindən bəhs edərək razılaşmanın futbolun inkişafına daha da təkan verəcəyini bildirdi, "Misli Premyer Liqası"nın futbolun populyarlığı baxımından mühüm əhəmiyyət kəsb etdiyini söylədi.

"Demirören Holding" şirkətinin İdarə Heyətinin sədri Yıldırım Demirören isə öz növbəsində "Misli"nin Azərbaycan Premyer Liqasının baş sponsoru olması ilə ölkə futbolunun inkişafına mühüm töhfə verəcəyini vurğuladı. Bildirildi ki, "Misli" hər zaman ölkə idmanının inkişafına xüsusi diqqət və qayğı göstərərək bu yolda dövlətin prioritet siyasətinə dəstək olmağa davam edəcək".

Elxan Səmədov qeyd etdi ki, əməkdaşlıq barədə razılıq əldə olunan gündən etibarən "Misli" öz üzərinə düşən vəzifəni ən yüksək səviyyədə icra edir. Bu anlaşma nəticəsində yeni adı və yeni brendi ilə "Misli Premyer Liqası"nın daha da maraqlı keçirilməsi, təşkilati işlərin icrasındakı çətinliklərin aradan qaldırılması, idman mübarizəsinin yüksək səviyyəyə çatdırılması, oyunların keçirilməsində əməyi olan şəxslərin iş şəraitinin yaxşılaşdırılması yönündə ciddi addımlar atılıb: "Azərlotereya"nın İdarə Heyətinin sədri Zafer Reisoğlu da PFL ilə uğurlu əməkdaşlıqdan məmnun olduqlarını bildirdi. O qeyd etdi ki, "Misli" bu günədək ölkə üçün önəmli müxtəlif tədbirlərə, eləcə də idmanın inkişafı naminə layihələrə dəstək olub. "Misli" futbol üzrə Azərbaycan Premyer Liqasının sponsoru olmaqla ölkə futbolunun inkişafı üçün çalışır. İnanırıq ki, bu işbirliyimiz gələcəkdə də uğurla davam edəcək və bir çox sahələrdə olduğu kimi futbolda da müvəffəqiyyətlər qazanacağıq".

PFL prezidenti onu da vurğuladı ki, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi yönündə diqqətçəkən işlər görülüb. Kadr ehtiyatlarımızın beynəlxalq təcrübə əsasında peşəkarlaşdırılması istiqamətində də işlər davam etdirilir: "Peşəkar Futbol Liqasının rəhbəri olaraq böyük dəstəyə görə bir daha "Misli"yə təşəkkür edir və Azərbaycan futbolunun bu anlaşmanın töhfəsini hələ uzun müddət hiss edəcəyinə əminliyimi bildirirəm".

Qeyd edək ki, "Azərlotereya" ASC "Misli" brendi vasitəsilə ölkədə müxtəlif idman yarışlarının, sosial layihələrin təşkilinə dəstək olur. Şirkətin dəstəyi ilə həyata keçirilən idman tədbirləri sırasında futbol üzrə Azərbaycan çempionatı (Misli Premyer Liqası - Red) ilə yanaşı, "Bakı Marafonu" və "Goal+ Summer Festival"ını qeyd etmək olar. Qətərdə keçirilən futbol üzrə dünya çempionatının ölkəmizdəki yayımının baş sponsoru da "Misli" idi. Eyni zamanda ölkə üçün əhəmiyyətli idman yarışlarının canlı yayımına da "Misli" dəstək göstərir.



AZƏRBAYCAN
DOST mərkəzləri dövlətin sosialyönümlü siyasətini nümayiş etdirir
Sülhü Azərbaycan bərqərar edəcək
İlham Əliyevin "ASAN"ı
Milli iradəmizin nümayişi
Bakı Yeni ilə hazırlaşır

# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC "Gen.Ə.Şıxlinski" gəmisi üçün ehtiyat hissələrin satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 yanvar 2023-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti "Şəki gəmisi" üçün mühərrik ehtiyat hissələrinin satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 yanvar 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1164.**

***Tender komissiyası***







## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən Əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortalanması üzrə xidmətin satın alınması ilə bağlı elan edilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 19 dekabr 2022-ci il tarixli qərarına əsasən nəqliyyat vasitələrinin sığortalanması üzrə "QALA SIĞORTA" ASC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində çalışacaq

Fövqəladə Hallar Nazirliyi (FHN) 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, bununla bağlı fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun imzaladığı əmrə əsasən, vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, həyat təminatı və digər mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ aradan qaldırılması işinin təşkili məqsədilə nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

# Ötən illərdən bağlı qalan qəsdən adam öldürmə cinayəti üzrə iş məhkəməyə göndərilib

2020-ci il martın 28-də İsmayıllı rayonu ərazisində naməlum insan skeletinin aşkar edilməsi faktına görə rayon prokurorluğunda başlanmış və icraatı dayandırılmış cinayət işi Baş Prokurorluqda öyrənilərək istintaqın davam etdirilməsi Kriminalistika və informasiya texnologiyaları idarəsinə həvalə olunub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aparılmış istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində aşkarlanmış naməlum insan skeletinin 1978-ci il təvəllüdlü Rəşad Məmmədova məxsus olması müəyyən edilib.

İbtidai istintaq zamanı Rəşad Məmmədovun müvafiq qurumda istintaq edilən cinayət işi üzrə ifadə verməsinin qarşısını almaq üçün qabaqcadan əlbir olan bir qrup şəxs Elvin Əliyev və Ümidvar İbişov tərəfindən başqa cinayəti gizlətmək məqsədilə öldürülməsi və meyitinin yandırılmasına dair əsaslı şübhələr müəyyənləşdirilib.

Toplanmış sübutlar əsasında Elvin Əliyev və Ümidvar İbişova Cinayət Məcəlləsinin 120.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə), 120.2.3-cü (zərərçəkmiş şəxsi ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar qəsdən öldürmə), 120.2.6-cı (başqa cinayəti gizlətmək məqsədilə qəsdən adam öldürmə), 245-ci (meyit üzərində təhqiredici hərəkətlər) və digər maddələri ilə ittiham elan edilib.

Cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevaya əzizi

**NAİL FƏTƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis sədrinin köməkçisi Rauf Məmmədova əzizi

**ƏNVƏR FEYZULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevə əzizi

**RƏŞAD RZAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevaya əzizi

**NAİL FƏTƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 538-97-96, 539-84-41,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6491
Sifariş 3768
Qiyməti 40 qəpik